Xalqın qəzeti!

# Xalq qəzeti

№ 249 (30365) 16 noyabr 2023-cü il, cümə axşamı

Gündəlik ictimai-siyasi nəşr

1919-cu ildən çıxır

Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti

xalqqazeti.az

**Günün sözü**

**Prezident İlham ƏLİYEV:**

**Bizim siyasətimiz demək olar ki, DOST mərkəzlərində öz əksini tapır. Bu mərkəzlər müasir Azərbaycanın simasını əks etdirir və ölkəmiz məhz bu yolla inkişaf etməlidir. Müasirlik, yenilik, islahatlar, gənclərin bu işlərə qoşulması ölkəmizin inkişafına xidmət göstərəcək.**

## DOST Azərbaycanın çağdaş xidmət brendidir

### Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva İsmayıllıda



**Noyabrın 15-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva İsmayıllıda Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin DOST İnklüziv İnkişaf və Yaradıcılıq Mərkəzinin "DOST EVİ" filialının açılışında iştirak ediblər.**

Əmək və Əhalinin Sosial Müdafiəsi naziri Sahil Babayev dövlətimizin başçısına və birinci xanıma görülən işlər barədə məlumat verdi.

Qeyd edək ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə həyata keçirilən dövlət siyasətində sosial sahənin inkişafına və həssas təbəqənin sosial məsələlərinin həllinə daim xüsusi diqqət yetirilir. Bu istiqamətdə dövlət səviyyəsində icra olunan layihələrlə yanaşı, Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın təşəbbüsləri də xüsusi əhəmiyyəti ilə seçilir. Bu baxımdan DOST İnklüziv İnkişaf və Yaradıcılıq Mərkəzinin yaradılmasını da qeyd etmək olar. Birinci vitse-prezident Mehriban Əliyevanın təşəbbüsü ilə yaradılan Mərkəzin əsas məqsədi şəhid ailələrinin üzvləri, əlilliyi olan şəxslər, valideynini itirmiş uşaqlar, aztəminatlı ailələrin övladları sırasından istedadlı şəxslərin yaradıcılıq potensialının inkişaf etdirilməsidir.

Mərkəzin fəaliyyət istiqamətləri əsasən musiqi, təsviri incəsənət, rəqs, dulusçuluq, xalçaçılıq, toxuma, floristika, landşaft dizaynı və bağçılıq, bədii oyma, kulinariya, fotoqrafiya və sairdir.

Fəaliyyət dövrü ərzində 470 benefisiar mərkəzdə müxtəlif yaradıcılıq istiqamətləri üzrə təlim, sosial pedaqoji və psixoloji xidmətlərdən yararlanıb. Hazırda mərkəzdə 186 nəfərə xidmət göstərilir. Onlardan 131 nəfər əlilliyi olan şəxs, 21 nəfər valideynini itirmiş uşaq, 22 nəfər aztəminatlı ailələrin üzvləri, 12 nəfər isə şəhid ailəsi üzvüdür.

İsmayıllıdakı "DOST EVİ" də həmin mərkəzin filialı kimi fəaliyyət göstərəcək.

*(ardı 2-ci səhifədə)*



## Böyük qayıdışın Laçın qaranquşu

İkinci yazı

**Laçının ümumi mənzərəsinə diqqət yetirəndə adama elə gəlir ki, gülümsər bir çöhrəyə baxırsan. Sakinlər uzun illərin ayrılığından sonra necə bir bitib-tükənməyən sevincə və könül xoşluğuna qovuşublarsa, sanki, şəhər də yad-yağı tapdağından xilas olmağından, öz övladlarının qayıdışından eləcə şadlanır, davamlı bir məmnunluqla cilvələnir.**

### Həsrətin sonu, yeni həyatın əvvəli

Qeyrətli soydaşımız Reza Deqatinin laçınlılara misilsiz hədiyyəsinin xoş təəssüratı ilə geri çevriləndə yolun o biri üzündə çeşidli gül dibçəklərini, dekorativ kolları və yenicə biçilmiş çəmənliyi suvaran orta yaşlı kişi ilə görüşüb söhbətləşmək marağımız qarşısıalınmaz oldu. Beləliklə, cənnətmisal bir həyətin sakini Gündüz Təhməzovla müsahib olduq.

– "Xalq qəzeti"ndən gəlmişik, istəyirik sizin köhnə yurdunuzdakı yeni gün-güzəranınızla tanış olaq.

– Xoş gəlmisiniz, qonağımız olun.

– Xoş gününüzə gəlmişik. Bu gözəlliyi özünüz yaratmısınız, yoxsa hazır qəbul etmisiniz?

– Bu abad, yaraşıqlı ev, çəmənlik, güllər, dekorativ fiqurlar, tamet döşənmiş həyət hamısı dövlətimizin, onun rəhbəri sevimli Prezidentimizin bizə hədiyyəsidir. Təkcə bu ərazi əvvəlki həyətimizdir.

*(ardı 7-ci səhifədə)*

## Ermənistan və KTMT: son nöqtəni Qriqoryan qoyur?

**Məlum olduğu kimi, Ermənistanın baş naziri Nikol Paşinyan Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının noyabrın 23-də Minskdə keçiriləcək sammitində iştirakdan imtina edib. O da məlumdur ki, erməni hökumət rəhbərinin imtina ilə bağlı qərarı onun Belarus Prezidenti Aleksandr Lukaşenko ilə telefon danışığı əsnasında açıqlanıb. Baş nazirin aparatının yaydığı məlumatda vurğulanıb ki, Nikol Lukaşenkoya KTMT-dəki həmkarlarının məsələni anlayışla qarşılayacağına ümid bəslədiyini deyib.**

Bu fikirdə müəyyən qədər əl yeri var. Yəni, nəzəri də olsa, Ermənistanın qurumun növbəti toplantılarında təmsil olunacağını ehtimal etmək mümkündür. Ancaq ölkənin təhlükəsizlik şurasının katibi Armen Qriqoryanın açıqlaması onu deməyə əsas verir ki, rəsmi İrəvan KTMT ilə yollarını tamamilə ayırıb, onun rəsmən təşkilatdan çıxması isə yalnız an məsələsidir.

*(ardı 3-cü səhifədə)*

## Fransanın Yay Olimpiya Oyunları ilə manipulyasiya cəhdi



**Fransa hakimiyyəti dünya mediasında Azərbaycanla bağlı mənfi təbliğat aparmağa baş vurub. Özü də 2024-cü ildə Parisdə keçiriləcək Yay Olimpiya Oyunları müstəvisində. Sən demə, Fransada Dezinformasiya ilə mübarizə qrupu adlı bir təşkilat var imiş və həmin qurum, guya, müəyyənləşdirib ki, "X" sosial şəbəkəsinin bir azərbaycanlı istifadəçisi öz profilində ölkə polisinin etirazçılara qarşı şiddət tətbiqi ilə bağlı nə isə paylaşıb və iddia edib ki, insan hüquqlarının pozulduğu məmləkətdə Olimpiya oyunlarının keçirilməsi yolverilməzdir. Tanış mənzərə deyilmi? Tanışlıq nədədir? Onu yazının sonunda diqqətə çatdıracağıq. Hələlik isə...**

*(ardı 3-cü səhifədə)*

## Lindsi Snell Azərbaycandan niyə əl çəkmir?



**İctimaiyyətimizin yaxşı tanıdığı amerikalı jurnalist Lindsi Snell Azərbaycandan əl çəkmir. "Ulduz" kinosunda Lütfəli Abdullayev demiş, arxamızca düşüb "qarabaqara" bizi izləyir. Özünün "X" hesabında Azərbaycan və Türkiyə əleyhinə həqiqətdən uzaq, qərəzli və hətta ağlasığmaz hər cür mesajlar paylaşır.**

*(ardı 8-ci səhifədə)*

## İrəvanın güvəndiyi dağlar deyil, onların maketidir

**Yaxın Şərqdə yüzlərlə azyaşlının öldürülməsi ilə müşayiət olunan qırğına haqq qazandıran Avropa gücləri, Ağ Ev Qarabağı könüllü və burunları qanamadan tərk etmiş ermənilərin hüquqlarının qorunmasını Bakıdan israrla tələb etməyə girişiblər. Bir milyon insanın bomba yağışının altında, açıq təcavüzlə torpağından qovulması və əslində, sayı qırx-əlli mindən çox olmayan erməninin rahat şəkildə Ermənistana köçməsi.**



*(ardı 4-cü səhifədə)*

## Bayden, yoxsa Tramp?!



Səhifə ⇨ 11

# Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva İsmayıllıda

(əvvəli 1-ci səhifədə)



Bildirildi ki, DOST İnklüziv İnkişaf və Yaradıcılıq Mərkəzinin "DOST EVİ" filialı Muğanlı–İsmayıllı yolunun 16-cı kilometrliyində yerləşir.

Müəssisə modern və konstruktiv elementlərlə, milli ornamentlər də əlavə olunmaqla müasir üslubda layihələndirilib, mühəndis sistemləri ən yüksək tələblərə cavab verir.

"DOST EVİ" birmərtəbəli olmaqla iki blokdan ibarətdir. Filialda 10 istiqamət üzrə 6 emalatxana – dulusçuluq, bədii oyma, misgərlik və zərgərlik, dərzilik və kəlağayı, xalçaçılıq, toxuma və bədii tikmə, un məmulatları emalatxanaları fəaliyyət göstərəcək.

Sərgi və Satış Mərkəzində benefisiarların hazırladıqları əl işlərinin nümayişi, həmçinin satışı həyata keçiriləcək. Hazırda "DOST EVİ"ndə DOST İnklüziv İnkişaf və Yaradıcılıq Mərkəzinin benefisiarları tərəfindən dulusçuluq, bədii oyma, xalçaçılıq, toxuma və tikmə, dərzilik, təsviri incəsənət, floristika, bağçılıq və landşaft dizaynı istiqamətləri üzrə hazırlanmış əl işlərindən ibarət sərgi təşkil olunub. Sərgidə 150-dək əl işi təqdim edilir.




Diqqətə çatdırıldı ki, bölgədə yaşayan və "DOST EVİ"nə cəlb edilmiş əlilliyi olan şəxslər və digər həssas qrupların hazırladıqları sənətkarlıq nümunələrinin də burada nümayişi və satışı həyata keçiriləcək.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva "DOST EVİ"ndəki emalatxanalarla tanış oldular.

"DOST EVİ" bölgədə müvafiq peşə hazırlığı kursları üçün təlim bazası rolu oynamaqla yanaşı, özünüməşğulluq layihələrinin icrasına da dəstək olacaq. Burada 50 nəfərin məşğulluğu təmin ediləcək. Benefisiarlar, təlimçilər və digər işçilər əlilliyi olan şəxslər və digər həssas qruplar arasından seçiləcək.

Qeyd olundu ki, filialda 50-80 nəfər benefisiar üçün 6 ay – 2 il müddətində təlimlər-kurslar təşkil olunacaq və sonda onlara sertifikatlar veriləcək.



Əlilliyi olan şəxslər inklüziv kafe sahəsində işə cəlb edilərək ictimai iaşə xidmətləri təşkil olunacaq.

Burada qonaqlara ekoloji təmiz məhsullardan hazırlanan və milli kulinariya nümunələri olan keyfiyyətli qidalar, un məmulatları təqdim ediləcək. Filialın bio-market sahəsində ekoloji təmiz kənd təsərrüfatı məhsulları satılacaq.

Bir sözlə, "DOST EVİ" bölgədə yeni iş yerlərinin, o cümlədən, əlilliyi olanlar, həmçinin digər həssas qrupların məşğulluq və gəlir imkanlarının artırılmasına, milli sənətkarlığın inkişafına və təbliğinə, bölgədə turizm imkanlarının genişləndirilməsinə, ekoloji təmiz məhsulların satışına, keyfiyyətli iaşə xidmətlərinin göstərilməsinə dəstək verəcək.

İsmayıllı rayonunda belə bir müəssisənin yaradılması, eyni zamanda, bu ərazinin abadlaşmasına imkan yaradıb.

"DOST EVİ" Muğanlı–İsmayıllı yolu ilə hərəkət edən insanlar, xüsusilə qonaqlar üçün gözəl asudə vaxt, istirahət və keyfiyyətli xidmətlər məkanı olacaq.

***AZƏRTAC***

## "Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin fəaliyyətinin təmin edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 5 sentyabr tarixli 706 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə

# Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1.** "Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin fəaliyyətinin təmin edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 5 sentyabr tarixli 706 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012, № 9, maddə 858; 2013, № 2, maddə 109, № 3, maddə 254, № 4, maddə 377; 2014, № 2, maddə 117, № 5, maddə 486, № 9, maddələr 1027, 1044, 1048; 2015, № 6, maddə 708, № 8, maddə 917, № 10, maddə 1122; 2016, № 2 (II kitab), maddə 251, № 5, maddə 852, № 8, maddə 1384, № 9, maddə 1464; 2017, № 2, maddə 174, № 4, maddə 564, № 5, maddə 809, № 8, maddələr 1521, 1531; 2018, № 3, maddə 437, № 6, maddə 1242, № 10, maddə 2013, № 11, maddə 2253; 2019, № 1, maddə 61, № 4, maddə 647; 2020, № 8, maddələr 1039, 1044, 1047; 2021, № 8, maddə 919, № 9, maddə 990, № 11, maddə 1217; 2022, № 5, maddə 475, № 10, maddə 1133, № 11, maddə 1264; 2023, № 1, maddə 84, № 2, maddə 245, № 5, maddələr 658, 665, № 7, maddələr 957, 969, № 8 (I kitab), maddə 1176) 5.22.2-ci yarımbəndi ləğv edilsin.

**2.** Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Fərmandan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 15 noyabr 2023-cü il**

# Müdafiə naziri Zakir Həsənov "Dubai Airshow – 2023" beynəlxalq sərgisində

**Müdafiə naziri general-polkovnik Zakir Həsənov və nazirliyin digər rəhbər heyəti Birləşmiş Ərəb Əmirliklərində (BƏƏ) keçirilən "Dubai Airshow – 2023" beynəlxalq sərgisində iştirak edir.**

Noyabrın 15-də nazirliyin rəhbər heyəti Türkiyə Müdafiə Sənayesinin "ROKETSAN" şirkətinin stendində nümayiş etdirilən silah, texnika və hərbi təyinatlı vasitələrlə tanış olub.

"ROKETSAN" şirkətinin rəhbərliyi ilə keçirilən görüşdə hərbi-texniki əməkdaşlığın inkişaf perspektivləri müzakirə olunub, qarşılıqlı maraq doğuran digər məsələlər barədə ətraflı fikir mübadiləsi aparılıb.

*

**Həmin gün Zakir Həsənovun rəhbərlik etdiyi nümayəndə heyəti sərgisində nümayiş etdirilən İtaliyanın "Leonardo" şirkətinin istehsalı olan silah, texnika və hərbi təyinatlı vasitələrlə tanış olub.**

Şirkətin rəhbəri ilə keçirilən görüşdə hərbi-texniki əməkdaşlığın inkişaf etdirilməsinin vacibliyi xüsusi vurğulanıb, qarşılıqlı maraq doğuran bir sıra məsələlər müzakirə olunub.

*

**Dünən Zakir Həsənovun rəhbərlik etdiyi nümayəndə heyəti sərgidə BƏƏ-nin "EDGE" şirkətinin stendində nümayiş etdirilən silah, texnika və hərbi təyinatlı vasitələrlə də tanış olub.**



Sərgi çərçivəsində şirkətin rəhbəri ilə keçirilən görüşdə hərbi-texniki əməkdaşlığın inkişaf perspektivləri, eləcə də qarşılıqlı maraq doğuran digər məsələlər barədə ətraflı fikir mübadiləsi aparılıb.

**XQ**

# Fələstin Dövlətinin Prezidenti Zati-aliləri cənab Mahmud Abbasa

**Hörmətli cənab Prezident,**

Fələstin Dövlətinin milli bayramı münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edir, ən xoş arzularımı yetirirəm.

Keçən il Azərbaycanın Fələstində diplomatik nümayəndəliyinin təsis edilməsi ikitərəfli əlaqələrimizin inkişafı istiqamətində atılmış müsbət addım idi. Tərəfimizdən Fələstində məktəbin inşa edilməsi məsələsi də gündəlikdədir.

Biz Qəzzadakı gərginliyin tezliklə aradan qaldırılacağına ümid edirik. Azərbaycan Fələstin məsələsinə münasibətdə daim həmrəylik nümayiş etdirmiş və bu məsələnin BMT-nin müvafiq qətnamə və qərarlarına uyğun olaraq iki dövlət prinsipi əsasında həllini dəstəkləyir. Ölkəmiz BMT-nin Fələstinli Qaçqınlara Yardım və İşlərin Təşkili üzrə Yaxın Şərq Agentliyinə bundan sonra da dəstək göstərməyə davam edəcəkdir.

İnanıram ki, ölkələrimiz arasında xoş ənənələrə malik dostluq əlaqələri və əməkdaşlığımız bundan sonra da uğurla inkişaf edəcəkdir.

Bu əlamətdar gündə Sizə möhkəm cansağlığı, xoşbəxtlik, işlərinizdə müvəffəqiyyətlər, qardaş Fələstin xalqına sülh və əmin-amanlıq diləyirəm.

**Hörmətlə,**

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 13 noyabr 2023-cü il**

# Birinci xanım Mehriban Əliyevanın "Fələstin üçün tək ürək" toplantısının iştirakçılarına müraciəti



**Azərbaycan Respublikasının Birinci xanımı Mehriban Əliyevanın noyabrın 15-də İstanbulda keçirilən dövlət və hökumət başçılarının xanımlarının "Fələstin üçün tək ürək" toplantısının iştirakçılarına müraciəti olub.**

AZƏRTAC Birinci xanım Mehriban Əliyevanın müraciətini təqdim edir.

– Hörmətli Əminə xanım!

Hörmətli toplantı iştirakçıları!

İlk növbədə, Türkiyə Respublikasının Birinci xanımı, hörmətli Əminə Ərdoğana bu tədbirdə iştirak etmək üçün dəvətinə görə dərin təşəkkürümü bildirirəm.

Hörmətli Əminə xanımın humanitar və sosial sahələrdə fəaliyyətini, o cümlədən, hərbi münaqişələrdən əziyyət çəkən mülki şəxslərə, qadınlara və uşaqlara yardım göstərilməsi məsələlərinə verdiyi töhfəni xüsusi qeyd edir və bunu yüksək qiymətləndirirəm.

Bu il yaranmasının 100-cü ildönümünü qeyd edən Türkiyə Respublikası bütün sahələrdə mühüm nailiyyətlər əldə etmiş, beynəlxalq aləmdə böyük nüfuza malik qüdrətli dövlətdir. Qardaş Türkiyə daim sülhün və ədalətin yanında olaraq bölgədə və dünyada sabitliyin və təhlükəsizliyin təmin olunmasına önəmli töhfə verir. Azərbaycan–Türkiyə qardaşlığı və birliyi bu gün özünün ən yüksək səviyyəsindədir.

Hörmətli toplantı iştirakçıları!

İsrail–Fələstin münaqişə zonasında gərginliyin miqyasının gündən-günə genişlənməsi və daha böyük insan faciəsinə səbəb olması ciddi narahatlıq doğurur. Ürək ağrısı ilə izlədiyimiz dözülməz insan iztirabları hər birimizi dərindən sarsıdır. Bu silahlı qarşıdurmadan ən çox əziyyət çəkənlərin mülki şəxslər, xüsusilə də qadınlar və uşaqlar olması olduqca üzücüdür. Hərbi əməliyyatların aparılması zamanı beynəlxalq humanitar hüquqa riayət edilməsi zəruridir. Mən həlak olanların yaxınlarına başsağlığı verir, yaralananların tezliklə şəfa tapmasını diləyirəm.

Azərbaycan hərbi əməliyyatların dərhal dayandırılması ilə bağlı çağırışları dəstəkləyir və son gərginliklə əlaqədar oktyabr ayında BMT Baş Assambleyasında qəbul edilmiş qətnamənin lehinə səs vermişdir. Ölkəmiz beynəlxalq hüquqa və BMT-nin müvafiq qətnamələrinə uyğun olaraq, İsrail–Fələstin münaqişəsinin "iki dövlət" prinsipi əsasında həllinin tərəfdarıdır. 2019-cu ildən etibarən Qoşulmama Hərəkatına sədrliyimiz dövründə Fələstin məsələsinə daim diqqət ayırmışıq. İnanıram ki, bu il Ramallah şəhərində ölkəmizin Təmsilçilik Ofisinin fəaliyyətə başlaması Azərbaycan–Fələstin əlaqələrinin inkişafına təkan verəcəkdir.

Son on il ərzində ölkəmiz BMT-nin Fələstinli Qaçqınlara Yardım və İşlərin Təşkili üzrə Yaxın Şərq Agentliyi xətti ilə dəfələrlə humanitar və maliyyə yardımı göstərmişdir. Eyni zamanda, Azərbaycan Fələstinə siyasi və maliyyə dəstəyinin cəlb edilməsi məqsədilə bir sıra beynəlxalq tədbirlərə evsahibliyi etmişdir. Bunların sırasında Fələstin Dövlətinə yardım məqsədilə İslam Maliyyə Təhlükəsizlik Şəbəkəsinin təsis konfransını və Qüds şəhərinin inkişafına dəstək məqsədilə donor konfransını qeyd etmək istərdim. Azərbaycan dövlətinin verdiyi təqaüd əsasında fələstinli gənclər ölkəmizdə ali təhsil alırlar. Azərbaycan tərəfindən Fələstində inşa ediləcək məktəb Fələstin xalqına dəstəyimizin növbəti təzahürü olacaqdır.

Geniş səlahiyyətlərə malik beynəlxalq təsisatların üzləşdiyi hazırkı böhran vacib məsələlərin həllini əngəlləyir. Dərin kökləri olan bu böhran başqa bir müzakirə mövzusudur. Qeyd etmək istəyirəm ki, müasir dövrdə hərbi münaqişələrin həll olunmaması böyük ölçüdə beynəlxalq hüququn selektiv şəkildə tətbiq olunmasından irəli gəlir. İkili standartlar və qərəzli yanaşma bu böhranın daha da kəskinləşməsinə şərait yaradır.

İctimai rəyin çaşdırılması və beynəlxalq hüququn manipulyasiyası üçün qərəzli media platformaları vasitəsilə yalan hekayələr yayılır. Bundan daha təhlükəlisi isə mənəvi dəyərlərdən manipulyasiya məqsədilə sui-istifadə olunması hallarıdır.

Ermənistanın Azərbaycana qarşı 30 il davam edən təcavüzü nəticəsində ərazilərimiz işğal olunmuş, bir milyona yaxın soydaşımız öz dədə-baba yurdlarından didərgin düşmüş, 300-dən artıq şəhər və kəndimiz darmadağın edilmiş, dini və mədəni irsimiz dağıdılmışdır. Vaxtilə işğal edilmiş torpaqlarımızda 67 məsciddən 65-i yerlə-yeksan edilmişdir.

Təəssüflə qeyd etmək istərdim ki, BMT Təhlükəsizlik Şurasının 1993-cü ildə qəbul etdiyi 4 qətnaməsi 27 il kağız üzərində qaldı. Azərbaycan 2020-ci ildə 44 günlük Vətən müharibəsində torpaqlarını özü işğaldan azad etdi və bu ilin sentyabr ayında antiterror əməliyyatı ilə Ermənistan silahlı qüvvələrinin qalıqlarının mövcudluğuna və separatizmə son qoyaraq suverenliyini tam bərpa etdi.

Çıxışımın sonunda vurğulamaq istərdim ki, ən çətin məqamlarda belə bəşəriyyət mərhəmət hissini itirməməlidir. Buna görə də, hörmətli Əminə xanıma bu vacib tədbiri təşkil etdiyinə və dəvətinə görə bir daha dərin minnətdarlığımı bildirirəm.

# Fransanın Yay Olimpiya Oyunları ilə manipulyasiya cəhdi

## Parisin anti-Azərbaycan xəttində növbəti trayektoriya və miskinliyin anatomiyası



**(əvvəli 1-ci səhifədə)**

Demək çətindir ki, “Paris-2024”ün təşkilinə qarşı çıxan azərbaycanlı var, yoxsa həmin şəxs uydurulmuş virtual Zorrodur. Amma onun iddia etdiyi bildirilən məsələ yanlış deyil. Bəlkə fransız polisi zorakılıq eləmir? Əlbəttə edir! Bəlkə Paris Avropanın ən çirkli şəhərləri sırasında yer almır? Alır! Yoxsa, Fransada insan hüquqlarına tam etinasız mühit hökm sürmür? Vəziyyət tam olaraq belədir! Ölkədə həyatın bütün sahələrində dəhşət yaşanır. Ümumən, son illər Fransanın daxili siyasətinin müşahidəsi orada istər insan hüquqlarının pozulması hallarının, istər polis zorakılığının, istərsə də rasizmin, islamofobiyanın yüksələn xətt üzrə inkişaf etdiyini göstərməkdədir. Ölkə cəmiyyətində ciddi qütbləşmə var. Miqrantlara, qaradərililərə qarşı nalayiq rəftar adi hal alıb. Dünyanın nüfuzlu və ciddi media orqanlarının yaydıqları materiallarda paytaxt Paris də daxil olmaqla, böyük şəhərlərdə antisanitariya probleminin artıq dözülməz həddə çatdığı göstərilir. Hələ başqa naqislikləri demirik. Yəni, sözümüz odur ki, təkcə bir azərbaycanlı yox, hadisə və prosesləri izləyən istənilən şəxs bunları görür. Deməli, kimlərinsə belə məsələləri qabardaraq, Fransanın dördilliyin ən nüfuzlu idman olayının təşkilinə layiq olmadığını vurğulamasında tutarlı məntiq var. Onların hansı xalqa və millətə mənsubluğunun önəmi yoxdur. Əvvəla, hər bir şəxsin sosial şəbəkədə öz fikirlərini sərbəst şəkildə ifadə etmək hüququ var. İkincisi, hazırkı qloballaşma dövründə sosial şəbəkələrdə xalq və millət deyil, fərd anlayışı, o cümlədən, istifadəçilərin öz düşüncə və baxışlarını yayması aktualdır. Əgər həmin baxışlarda qaydalara zidd cəhətlər varsa, bunun araşdırılması və müvafiq tədbir görülməsi sosial şəbəkələrin müstəsna hüququdur.

*

Amma başlıca məqam heç bunda da deyil. Tutalım, bir azərbaycanlı öz sosial şəbəkə profilində Fransa əleyhinə nə isə yazır. Bu, o deməkdirmi ki, məsələni təşkil edən Azərbaycan dövlətidir? Belə yanaşma olar? O zaman qənaətə gəlirik ki, indiyədək fransız mediasında ölkəmizlə bağlı yazılan hər cür hədyanların sifarişçisi məhz Fransa dövlətidir. Bu dövlətin başbilənləri o qədər şərəfsiz ssenarilər qurub-quraşdırıblar ki, indi barələrində mənfi rəy yazılan kimi dərhal məsələnin ən yuxarı səviyyədə təşkil olunduğunu zənn edirlər. Axı, başqa cür düşünə bilmirlər. Təbiətlərinə dövlət ərkanının qaydalarına zidd olaraq hakim kəsilmiş nifrət, qisasçılıq hissi dözümlü davranmalarına imkan vermir.

*

Digər tərəfdən, lap tutalım bir azərbaycanlı Fransa əleyhinə mənfi fikir paylaşıb və iddia edib ki, ölkədə Olimpiya oyunları kimi mötəbər idman tədbirinin keçirilməsi düzgün deyil. Burada nə var ki? Həmin adamın yanlış rəyə gəlməsi də mümkündür. Hətta belə olduğu təqdirdə də, məsələni Azərbaycan dövlətinin əks-təbliğatı müstəvisinə gətirmək nə dərəcədə doğrudur? Əlbəttə, doğru deyil. Nəinki doğru deyil, eyni zamanda bu cür iddianı tirajlamaq acizlikdir ki, onu da Fransanın Dezinformasiya ilə mübarizə qrupu adlanan təşkilat edib. O təşkilat ki, Prezident Emmanuel Makronun administrasiyasının təmsilçiləri tərəfindən ortaya atıldığı qətiyyən şübhə doğurmur. Öz aləmlərində, guya, Azərbaycanı aşağılayacaq ağıllı plan qurublar...

*

Maraqlıdır ki, sözügedən qrup azərbaycanlı sosial şəbəkə istifadəçisinin hərəkətini Azərbaycan hakimiyyəti ilə əlaqələndirə də bilməyib. Lakin kampaniyanın Fransanın nüfuzuna xələl gətirmək məqsədi daşıdığını vurğulayıb. Bu, kifayət qədər məkrli şəkildə ölkəmizi hədəfə almaqdır. Necə ola bilər ki, indiyədək varlığı ilə yoxluğu məchul olan təşkilatın yaydığı informasiya “Reuters” kimi media qurumunda yayımlanır? Hələ digər tanınmış kütləvi informasiya vasitələrindəki tirajlanmaları bir kənara qoyuruq. Deməli, hər şey aydındır.

*

Bəli, Fransa dövləti diqqəti daxili problemlərdən yayındırmaq üçün yaramaz gedişlərə baş vurmaqdadır. Ölkənin özündən çox uzaq regionda – Cənubi Qafqazda vəziyyəti gərginləşdirmək planları da bundan irəli gəlməkdədir. Makron administrasiyası Ermənistanı maliyyələşdirir, silahlandırır, ölkədə Avropa İttifaqının hərbiləşmiş missiyasını yerləşdirir və onun daha da genişləndirilməsinə cəhd göstərir. Beləliklə, regionda münaqişə ocağının saxlanılmasına çalışır. Fransa Prezidenti öz aləmində qlobal siyasət aparır. Psixoloji baxımdan yanaşsaq, bu “siyasət” üçün hədəf qondarmaq şərtdir. Makron yaxşı bilir ki, Yay Olimpiya Oyunları böyük hadisədir və şübhəsiz hər bir Fransa vətəndaşı onun ölkəsində təşkilini toy-bayram kimi qiymətləndirir. Belədə buna qarşı çıxan tərəf uydurulmaqla, həm diqqət daxili problemlərdən yayındırılır, həm də sözügedən “qlobal siyasət” üçün müqavimət formalaşdırılır. Makronun başbilənləri bir azdan Azərbaycanın Yay Olimpiya Oyunlarının Parisdə keçirilməsinə etiraz məntiqlərində Rusiya izi tapmağa girişsələr, qətiyyən təəccüblənmərik. Nəzərə alaq ki, Fransa hakimiyyəti üçün “düşmən” axtarışı şərtdir. Özünü demokratiyanın beşiyi hesab edən ölkənin bu sayaq davranışı, həqiqətən, miskin mənzərə doğurur.

*

Fransanın qatı anti-Azərbaycan mövqeyi xüsusunda növbəti məqama diqqət yetirək. Bir daha vurğulayaq ki, Yay Olimpiya Oyunları dördilliyin ən mötəbər idman tədbiridir. Ölkənin Dezinformasiya ilə mübarizə qrupu adlandırılan qondarma təşkilatının Azərbaycana fokuslanması onu deməyə əsas verir ki, Yelisey sarayı məhz mövcud müstəvidə də ölkəmizə qarşı cəbhə açmaqdadır. Təxminən belə: Azərbaycan Olimpiya oyunlarına qarşı çıxır, ölkə idmanı siyasət müstəvisinə gətirir, bütün mütərəqqi dəyərlərdən uzaqdır və s. Sözügedən qrupun saxta bilgilərinin Avropanın və dünyanın aparıcı media orqanlarında yayımlanması məhz haqqında söz açdığımız təəssüratın formalaşdırılmasına xidmətdən başqa bir şey deyil. Ancaq Fransa hökuməti nəzərə almır ki, belə gedişlərlə bütövlükdə Yay Olimpiya Oyunlarına zərbə vurur. Daha doğrusu, oyunları özünün siyasi kampaniyasında alətə çevirir.

*

Ancaq rəsmi Parisin davranışının bumeranq effekti yaratma ehtimalı böyükdür. Məsələ burasındadır ki, dünyanın müxtəlif ölkələrində Fransanın neokolonializm siyasətinə qarşı müqavimət artır, insanlar azadlıq tələb edir, öz dillərində danışmaq hüququna, dini etiqad azadlığına hörmətlə yanaşılmasını istəyirlər, müqəddəratlarını təyin etmək hüququndan yararlanmaq niyyətlərini açıq şəkildə ifadə edir, bu dəyərlər uğrunda mübarizə aparırlar. Belə bir durumda Parisin Yay Olimpiya Oyunlarına evsahibliyini gerçəkləşdirməsi əleyhinə kampaniyaların başlaması və genişlənməsi artıq reallıqdır. Əlbəttə, bu cür mənfur siyasi xətt yürüdən ölkənin böyük idman olayından dividend götürməsi yolverilməzdir. Çünki həmin dividendi özünün istər daxildəki, istərsə də xaricdəki yarıtmazlıq kursunun davamı üçün sipərə çevirəcək. Məsələyə mövcud anlamda yanaşsaq, təbii ki, sülhün rəmzi sayılan Yay Olimpiya Oyunlarına evsahibliyinin Fransadan alınıb başqa dövlətə verilməsi nəinki şərtdir, həm də tələbatdır. Bir ölkənin iqtidarı ki, öz vətəndaşının normal yaşam haqlarına laqeyd yanaşır, üstəlik, loru dildə desək, xaricdə özünə aid olmayan məsələlərə burun soxur, belə bir hakimiyyət nə üçün nüfuzlu idman tədbirinin təşkili ilə üstünlük qazanmalı, mövqeyini möhkəmləndirməlidir? Hesab edirik ki, məsələyə beynəlxalq miqyasda baxılmasına ciddi ehtiyac var.

*

Sonda haqqında söz açacağımızı bildirdiyimiz bir məqama da diqqət yetirməyi vacib sayırıq. Birmənalı şəkildə vurğulaya bilərik ki, hazırda Azərbaycana münasibətdə qərəzli və çirkin kampaniya aparan Fransa mediasının davamlı və ardıcıl xarakter daşıyan xəttinin təkanverici qüvvəsi rəsmi Parisdir və Qərbin bir sıra nüfuzlu media orqanları da təlimatlarını Yelisey sarayından aldıqlarını gizlətmirlər. Dezinformasiya ilə mübarizə qrupu deyilən təşkilatın da Makronun köməkçilərinin direktivləri ilə “təhlil apardığı” şübhəsizdir.

Oxşar hallar indiyədək də yaşanıb. İstər fransız mediası, istərsə də Qərbin bəzi kütləvi informasiya vasitələri ölkəmizi ləkələməkdən çəkinməyiblər və bunu idman və mədəniyyət müstəvisində də ediblər. Fikrimizin təsdiqi üçün 2015-ci ildə Bakıda keçirilmiş I Avropa Oyunları öncəsi duruma nəzər salaq. Həmin vaxt Azərbaycanla bağlı qarayaxma təbliğatının hədəfi oyunların ölkəmizdə təşkilini əngəlləmək idi. 2012-ci ildə nüfuzlu “Avroviziya” mahnı yarışmasının paytaxtımızda keçirilməsi zamanı da oxşar xoşagəlməz durum müşahidə olunurdu. Bu mənada da bumeranq effektindən söz aça bilərik. Vaxtilə Fransa başda olmaqla, ermənipərəstlərin qurduqları mənfur ssenarilər hazırda özlərinə qarşı işləyir ki, bu gedişatda ilahi ədalət və qanunauyğunluq var.

***Əvəz CAHANGİROĞLU***
***XQ***

# Ermənistan və KTMT: son nöqtəni Qriqoryan qoyur?

## Lukaşenkonun çağırışı, İrəvanın inadı və Peskovun təəssüfü



**(əvvəli 1-ci səhifədə)**

Qeyd edək ki, N.Paşinyanın sözügedən imtina qərarı Ermənistanda kifayət qədər geniş müzakirə predmetinə çevrilməkdədir. Mövcud xüsusda müxtəlif fikir və mülahizələr gündəmə gəlməkdədir. Başlıca məqam isə odur ki, Nikolun Belarusun paytaxtına getməməsini Ermənistanın növbəti anti-Rusiya addımı, hətta demarşı kimi qiymətləndirənlər çoxdur. Əgər müxalif kəsim bu demarşın acınacaqlı nəticələr doğuracağını bildirirsə, iqtidar təmsilçiləri Nikolun addımından qürrələnir, məsələni cəsarət nümunəsi kimi tirajlayırlar...

***

A.Qriqoryana gəldikdə, o, Ermənistanın KTMT ilə yollarını ayırmasının səbəblərini sadalayıb. Əlbəttə, bu sadalamanın özü də anti-Rusiya xəttinin elementləri ilə müşayiət olunmaqdadır. Məsələn, Qriqoryanın sözlərinə görə, 2020-ci il müharibəsindən sonra KTMT Dağlıq Qarabağın Ermənistanın suveren hissəsi olmadığını və təşkilatın bu məsələlərlə məşğul ola bilməyəcəyini bəyan etmişdi. Bu fikir Ermənistanın qurumun iclaslarında iştirakını dayandırması reallığını doğurmuşdu. Deməli, belə çıxır ki, təşkilat İrəvanın avantürist maraqlarını üstün tutub özünün nizamnamə tələblərini pozmalı imiş...

A.Qriqoryan ağ yalan danışır. Çünki 44 günlük müharibədən iki il sonra, konkret desək, 2022-ci ilin noyabrında Ermənistan KTMT-nin sammitinə evsahibliyini gerçəkləşdirib. Həmin toplantıda Rusiya Prezidenti Vladimir Putin də iştirak edib. Əlbəttə, bu, başqa söhbətin mövzusudur ki, İrəvan tədbirdə istəyinə nail olmayıb və nəticə etibarilə Ermənistan–KTMT münasibətləri daha da qəlizləşib.

Reallıq budur ki, qəlizləşmə 2020-ci ildən yox, məhz həmin vaxtdan, daha doğrusu, məlum İrəvan sammiti gedişində başlamışdı. Yəni, indi Qriqoryanın Qarabağa fokuslanmasında məntiq yoxdur. Ancaq KTMT ilə bağlı olmasa da, Ermənistanın, ümumən anti-Rusiya xəttində Qarabağ ritorikasının yer aldığı danılmaz faktdır və yalnız bu baxımdan Qriqoryanı, müəyyən qədər, haqlı saymaq mümkündür. Onu da yada salaq ki, bir müddət əvvəl ölkə parlamentinin spikeri Alen Simonyan Moskvanı 10 noyabr 2020-ci il tarixli üçtərəfli Bəyanatla Qarabağı Azərbaycana verməkdə günahlandırmışdı.

***

A.Qriqoryan onu da bildirib ki, 2021-ci ilin mayında Azərbaycan qoşunları, guya, Ermənistanın suveren ərazisini işğal edəndə KTMT ilə əlaqə saxlanılıb, amma qurum məsələyə etinasız yanaşıb. Eləcə də o, 2022-ci ilin sentyabr eskalasiyası zamanı da təşkilatın İrəvana kömək göstərmədiyini vurğulayıb. “Bizim KTMT-nin Kollektiv Təhlükəsizlik Şurasının sessiyasında iştirak etməməyimiz bununla bağlıdır”, – deyən Qriqoryanın gətirdiyi arqumentlərə qarşılıq sual olunur: Hazırda nə ola bilər ki, Ermənistan yenidən KTMT ilə yaxınlaşsın və Paşinyan onun mötəbər tədbirlərinə qatılsın? Ümumiyyətlə, bu, ola bilərmi? Sual ritorikdir. Çünki cavabı bəllidir – İrəvandakı iqtidar heç bir halda KTMT-yə münasibətdə yaxınlaşma xətti götürməyəcək. Ona görə ki, Qərbin direktivləri baxımından məsələ yolverilməzdir. Deməli, istər Qriqoryanın, istərsə də digərlərinin təşkilat müstəvisində səsləndirdikləri əks fikirlər yalnız bəhanədir.

***

Digər tərəfdən, hazırda Ermənistanla Azərbaycan arasında sərhədlər qeyri-müəyyəndir. Belə olan halda, Paşinyanın komandasındakı şəxslər necə iddia edə bilərlər ki, Azərbaycan Ermənistan ərazisini işğal edib? Yeri gəlmişkən, ölkəsinin düzəməlli ərazisinin, sərhəd zolağının olmadığını Nikol özü də diqqətə çatdırıb. Bir müddət əvvəlki məlum “kupça” qalmaqalını yada salaq. Paşinyan Ermənistan üçün ərazi şəhadətnaməsi almaqdan söz açmışdı. Bu faktın özü də təsdiqləyir ki, hazırda ölkənin qərarlaşdığı torpaqlar köklü şəkildə ona məxsus deyil. Yəni, bunu təsdiqləyən əsaslı sənəd yoxdur və erməni baş nazirin təbirincə desək, indiki ərazilərin gələcək nəsillərə miras qalması üçün iş aparılmalıdır. Deməli, bu halda da İrəvanın KTMT-ni nədəsə günahlandırması, yumşaq desək, düzgün deyil.

***

Başqa bir məqama diqqət yetirək. Bir daha vurğulayaq ki, Qarabağ məsələsi, bilavasitə olmasa da, dolayısı ilə Ermənistanın anti-KTMT köklənişində başlıca halqanı təşkil etməkdədir. N.Paşinyan Azərbaycanın bu il sentyabrın 19-20-də Qarabağda keçirdiyi lokal xarakterli uğurlu antiterror tədbirlərindən sonra Rusiya əleyhinə təbliğata güc verəndə, KTMT-nin ölkəsinin təhlükəsizlik maraqlarını təmin etmək baxımından zəif alət olduğunu vurğulamışdı. Ümumən, diqqət yetirsək, görərik ki, Nikol Azərbaycanla hər silahlı qarşıdurmadan sonra anti-Rusiya xəttini və onun tərkib hissəsi olan anti-KTMT ritorikasını bir qədər də zənginləşdirib. Bu arada Rusiya dəfələrlə Ermənistan–Azərbaycan sərhədinə KTMT missiyasını göndərməyə hazır olduğunu bəyan edib və göndərişin vaxtının Ermənistandan asılı olduğunu önə çəkib. Moskvada bildirildiyi kimi, “top İrəvanın meydançasındadır”.

Ancaq məlumdur ki, İrəvan, necə deyərlər, Qərbin topu ilə oynamağa üstünlük verməkdədir. Hazırda Azərbaycan–Ermənistan şərti sərhədinin Ermənistan tərəfində Avropa İttifaqının pensiyada olan alman polislərindən və fransız jandramlarından ibarət mülki müşahidə missiyasının üzvləri əllərində uzaqgörən durbinlərlə “ölkənin təhlükəsizliyini göz bəbəkləri kimi qoruyurlar”. Deməli, Paşinyan administrasiyasının Rusiyanın hakim rol oynadığı təşkilatın missiyasına ehtiyac duyması mümkünsüzdür. Hərçənd, Ermənistanın Xarici işlər naziri Ararat Mirzoyanın ölkənin sözügedən missiyadan əl çəkmədiyini və onun yerləşdirilməsi istiqamətində işin davam etdiyini bildirən açıqlamasının olduğunu da xatırlamaq mümkündür. Amma bu, çoxdanın söhbətidir. Böyük ehtimalla, erməni XİN rəhbəri vaxtilə söylədiklərini “xatırlamaz”.

***

Mətləbdən uzaqlaşmadan bildirək ki, KTMT-dən ayrılma kursu götürmüş Ermənistan iqtidarının davranışlarına münasibətdə Moskva, kifayət qədər, təmkinlidir. Əslində, Rusiya Prezidentinin mətbuat katibi Dmitri Peskovun mövcud xüsusda söylədikləri, müəyyən mənada, Belarus lideri A.Lukaşenkonun Paşinyana bildirdiklərinin davamıdır. Qeyd edək ki, Lukaşenko Nikolla telefon danışığı zamanı onu tələsik qərarlar verməməyə, “parçalanma” kursunu davam etdirməzdən əvvəl hər şeyi diqqətlə düşünməyə çağırıb. Peskov isə Ermənistan liderinin “saatları sinxronlaşdırmaq” imkanının olmayacağından təəssüfləndiyini vurğulayıb. Çox güman, onun subliminal mesajı aydındır.

***

Sonda İrəvanın KTMT əleyhinə ritorikası və Qarabağ mövzusunda ikincinin birinciyə dəstək gözləntisi ilə bağlı bir məqamın üzərində də dayanaq və bu zaman nəzərə alaq ki, Qarabağ Azərbaycanın suveren torpağıdır. Ermənistan başqa dövlətin suveren ərazisində qərarlaşmaq üçün KTMT-nin dəstəyinə ümid bəsləyirdisə, o zaman məntiqlə özü də üzərinə düşən öhdəlikləri yerinə yetirməlidir. Sual olunur: İrəvan nə vaxtsa Moskvanın tərəfində vuruşubmu? Yaxud ən azından Rusiyanın xeyrinə siyasi qiymət veribmi? Görəsən, Ermənistanda niyə elə düşünürlər ki, Moskva ilə İrəvan arasında qarşılıqlı yardım müqaviləsi təkcə birincinin üzərinə öhdəlik qoyur?

Təbii ki, Rusiyanın Ermənistandan Ukrayna ilə müharibə kontekstində heç bir gözləntisi yoxdur. Əslində, Kreml KTMT-yə üzv digər dövlətlərin də Kiyevə qarşı çıxmalarını istəmir. Ümumən, Moskva hazırkı məqamda açıq-aşkar qeyri-mümkün şeylər tələb etmir. Onun üçün əsas olan Qərblə mübarizədə neytrallıqdır. İrəvan isə davranışları ilə məhz həmin neytrallığı pozmaqdadır. Özünü Qərbin tərəfində göstərməkdə, Roma papasından daha artıq katolikliyə can atmaqdadır. Ermənistan üçün ən acınacaqlı durum vəd edən də elə budur.

***Ə.RÜSTƏMOV***
***XQ***

# İrəvanın güvəndiyi dağlar deyil, onların maketidir

## Qərbin Cənubi Qafqazda, MDB məkanında “dəstək” verdiklərinin aqibəti nə tez unuduldu?

(əvvəli 1-ci səhifədə)

Bu müqayisəni Qərbin iki fakt-hadisəyə açıq-aşkar ikili standartla və xristian təəssübkeşliyi ilə yanaşmasının əyani sübutu kimi aparırıq. Məsələnin digər tərəfinə gəldikdə isə Bakı Qarabağ ermənilərinin başına bomba tökmədi, əksinə, imkansızlara yardım göstərdi, suyunu, çörəyini verdi, nəqliyyatla təmin etdi. Üstəlik, geri qayıtmağı arzulayanların müraciət etmələri üçün Xankəndidə miqrasiya xidmətinin şöbəsini qurdu, rahatlıq üçün onlara onlayn qeydiyyatdan keçmək imkanı yaratdı. Məgər Azərbaycanın müvafiq qurumlarının təmsilçiləri köçənlərin geriyə – Qarabağa qayıtmaları üçün onların ayağına, yerləşdikləri İrəvan ətrafındakı ünvanlara getməlidirlər?

**

“Dağlıq Qarabağı (?) tərk etmiş insanlar öz evlərinə qayıtmaq hüququna malikdirlər. Biz əvvəlki kimi hesab edirik ki, əgər Dağlıq Qarabağdan (?) çıxmış ermənilər arzu edərlərsə, geri qayıda bilərlər və onların bu hüququna riayət olunmalıdır”. ABŞ Dövlət Departamentinin mətbuat xidmətinin rəhbəri Metyu Miller bu sözləri media təmsilçiləri üçün keçirdiyi ənənəvi brifinqdə səsləndirib. Eyni siyasi ritorika, artıq Ermənistandan xaricə köçməyə başlamış Qarabağ ermənilərinin hüquqlarının qorunması ilə bağlı Bakıya ünvanlanan “məsləhət və tövsiyələr”. Son vaxtlar anti-Azərbaycan koalisiyasının fəal aktorlarından birinə çevrilmiş ABŞ Ermənistanla hərbi-texniki sahədə əməkdaşlığı genişləndirməsi bir tərəfə, Konqresdə, Senatda ölkəmizin ünvanına ultimatumlar səsləndirir, sanksiyalarla hədələyir. “Demokratiyanın beşiyi” sayılan supergüc Ermənistanla sülh danışıqlarının Brüssel, Vaşinqton platformalarına meyil göstərməyən Bakını məhz bu üsullarla cəzalandırmağa çalışır. Əlbəttə, Avropada Fransa, Almaniya kimi müttəfiqləri ilə “vahid cəbhədən” çıxış etmək şərti ilə. Öz ölkələrində irqi, dini, etnik ayrı-seçkiliyin tüğyan etdiyini görməzdən gələn bu supergüclər ağıllarından Cənubi Qafqazın ən sivil, tolerant cəmiyyətinə sahib Azərbaycana insan hüquqlarından dərs deməyi keçirir. Hələ biz həmin ermənipərəst dairələrin zorakılıq və zülm hesabına Asiyanın, Afrikanın məzlum xalqlarını yüzillərlə əsarətdə saxladıqları ilə bağlı tarixi həqiqətləri xırdalamırıq.

“ATƏT rəsmiləri Azərbaycan tərəfinin etnik ermənilərin geri qaytarılmasına kömək göstərilməsi ilə bağlı təşəbbüsünü alqışlayırlar”. Bu münasibət ATƏT Parlament Assambleyasının prezidenti Pia Kaumanın (Finlandiya) və qurumun Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi Kari Henriksenin (Norveç) Azərbaycana səfəri ilə bağlı təşkilat tərəfindən yayılmış bəyanatda əksini tapıb. Görünür, Skandinaviya əsilli rəhbərlər ədalət hissini və soyuq məntiqi hələ itirməyiblər.



Yeri gəlmişkən, ATƏT Parlament Assambleyasının payız sessiyasının noyabrın 18-20-də İrəvanda keçirilməsi Qərbin Bakıya siyasi təzyiq kampaniyasının komponenti kimi başa düşülməlidir. Cari ilin fevralında Səmərqənd variantı alınmayanda Ermənistanın ATƏT-dəki nümayəndə heyətinin rəhbəri Sarkis Xandanyan sessiyanı İrəvanda keçirməyi təklif etmişdi. Rəsmi məlumata görə, toplantıya 50-yə yaxın ölkədən 300 nümayəndə gələcək. İqtidar bu tədbirin Ermənistanın ciddi uğuru kimi qələmə verməyə çalışsa da, çoxluq belə düşünmür. Yerli media yazır ki, ATƏT PA təmsilçi bir qurumdur, qərarlarının hüququ kəsəri yoxdur və əməli baxımdan heç nəyi həll etmir. Müxalifət isə hesab edir ki, sessiyanın İrəvanda keçirilməsi anti-Rusiya mövqeyini gücləndirən Paşinyan hakimiyyətinə avropalı tərəfdaşlarının “mükafat və iltifatıdır”.

Avropanın ali qurumu bununla beynəlxalq ictimaiyyətin nəzərini Cənubi Qafqaza yönəltməyə çalışır. Məqsəd isə Ermənistanın məzlum obrazını canlandırmaq, onun Cənubi Qafqazda, guya, demokratiya qalası olduğunu nümayiş etdirməkdir. Yəni, əgər dünya Ermənistanı dəstəkləməsə, bu “qala” yad qüvvələr tərəfindən uçurulacaq. Bu sessiya oyunu həm də İrəvanın anti-Rusiya siyasətinin yeni təzahür formasıdır.

**Ekspert rəyi**



**Tofiq ABBASOV,**
**siyasi şərhçi**

Kollektiv Qərb Azərbaycanın müharibədəki qələbəsi ilə hələ də barışa bilmir. İstəkləri bölgəyə yenidən qarşıdurma gətirmək, müharibə şəraitini formalaşdırmaqdır. Düzdür, Ermənistanın Azərbaycana qarşı hansısa cəbhədə uğur əldə edə biləcəyinə inanmırlar. Amma məsələ burasındadır ki, onlar Azərbaycana təzyiqi artırıblar. Cənubi Qafqazda gərginlik ocağının itməməsi Qərbin marağındadır. Bundan dividend əldə edirlər. Birincisi, Rusiyanı bölgədən sıxışdırmaq, ikincisi, İranın sərhədlərinə yaxınlaşmaq, üçüncüsü, Türkiyəyə təzyiq məqsədi güdürlər. Yəni, Ermənistan platformasında möhkəmlənmək son dərəcə vacibdir.

Qarşılarına qoyduqları başlıca məqsəd Qərbin hərbi kontingentini bölgəyə gətirməkdir. Həm Ermənistanda, həm də Azərbaycanda Rusiyanın hərbi kontingentinin olmasına baxmayaraq, Cənubi Qafqaza yerləşməyə çalışırlar. Digər tərəfdən, ortada Rusiya, Türkiyə, İran amilləri var. Tehranda “3+3” formatlı görüşdə tərəflər bölgənin problemlərinin kənar qüvvələrin iştirakı olmadan həlli variantını dəstəklədi və bununla bağlı vahid mövqe bildirdilər.

Azərbaycanın Türkiyə və Rusiya ilə müttəfiqliyi var, İranla da münasibətlərimiz normallaşmağa doğru gedir. Qərb regiondakı mövcudluğunu məhz bütün bunları nəzərə alaraq təmin etmək istəyir. Xatırladım ki, həmin “3+3” formatına ilk etiraz edən ABŞ oldu. Ağ Ev Gürcüstana təzyiq göstərdi. Ümumən, Qərb yenə öz mənfur rolunu oynayır, Ermənistanı qızışdırır, o biri tərəfdən də Azərbaycana təzyiqini artırır. Əgər Ağ Evin rəsmisi ermənilərin Qarabağa qayıtmalarının vacibliyini bəyan edirsə, niyə üç yüz minə yaxın azərbaycanlının Qərbi Zəngəzura qayıdışını gündəmə gətirmir? Bu, ikili standartdır. Ermənistan yenə alətdir və bu, Bakıya yaxşı məlumdur.

*

Tamamilə aydındır ki, Ermənistan hakimiyyəti bütün bu addımları, guya, Kremlə göz dağı göstərməkdən ötrü edir. Fəqət Nikol Paşinyan bunun hansı fəsadlar doğuracağını təsəvvürünə gətirə bilmir. O, hələlik Makrona, Mişelə, okeanın o tayındakı Coliyə, əlbəttə ki, Baydenə sidq-ürəkdən inanır. İntəhası, son iyirmi ildə onlara güvənən bəzilərinin acınacaqlı aqibətləri hər kəsə yaxşı məlumdur. Bunun üçün uzağa getməyə ehtiyac yoxdur. Gürcüstanın eks-prezidenti Mixail Saakaşvilinin düşdüyü vəziyyəti, Ukraynanın iki ilə yaxındır müharibə alovundan qurtula bilməməsini xatırlatmaq kifayətdir. Deməli, indi İrəvanın etdiyi kimi, onların da vaxtilə inanıb güvəndikləri, arxalandıqları həqiqi və sağlam dağlar deyil, sadəcə “maketlər” imiş.

Hazırda İrəvan rəhbərliyindəkilər papaqlarını qabaqlarına qoyub yaxşı-yaxşı fikirləşsinlər. Həm də son iki yüz ildə onlara “qucaq açan”, yağlı vədlər verən, sonra isə arxasından çəkilən güclərin əsl niyyətlərini unutmadan düşünsünlər. Əgər haylar növbəti dəfə də həmin güclərin əlində alət olmağı özlərinə rəva görürlərsə, onda son aqibətlərinə görə özgələrini günahlandırmasınlar.

***İmran BƏDİRXANLI***
***XQ***

**Ekspert rəyi**



**Elxan ŞAHİNOĞLU,**
**Atlas Araşdırmalar**
**Mərkəzinin rəhbəri,**
**siyasi analitik**

Azərbaycan bu ilin 19 sentyabrında ərazisində separatizmə son qoyandan sonra Qarabağ ermənilərinə seçim imkanı verdi. Ya qalın yaşayın və bizim ölkənin vətəndaşlığını qəbul edin, ya da yolunuz açıq olsun. İkinci variantı seçdilər və çıxıb getdilər. Onlara qarşı Azərbaycan tərəfindən heç bir təzyiq edilmədi. Bizi zor tətbiqində ittiham edənlər Qəzzanın bombalanmasını dəstəkləyirlər. Halbuki, Azərbaycan heç bir mülki obyekti bombalamadı, əksinə, bölgəni tərk edənlərin hər cür ehtiyaclarını ödədi ki, narazılıqları qalmasın. Bir erməninin belə burnu qanamadı. Üstündən iki ay keçəndən sonra sanki Bakıya təzyiq etməyə çalışırlar: ermənilər geri qayıtmalıdır! Axı, biz onların qayıtmasının əleyhinə deyilik. Şərtimiz əvvəldən bəllidir. Qayıtmaq istəyənlər Azərbaycan vətəndaşlığını qəbul etməlidirlər. İndi onların hamısının cibində Ermənistan pasportu var, amma bizim ölkədə ikili vətəndaşlıq haqqında qanun yoxdur. Yəni, gəlib bizim qanunlarımıza uyğun şəkildə yaşamalıdırlar. Bunu qəbul etməyənin geri qayıtması mümkün deyil. Bunu həmin Amerikanın özü də qəbul etməz. ABŞ-a köçən birisi desə ki, mən Amerika qanunları ilə yaşamaq istəmirəm, buna imkan verərlərmi? Yaxud, o adam Fransada yaşaya bilərmi? İndi Ağ Ev Azərbaycan əleyhinə müəyyən müddəalar səsləndirsə də, ABŞ-ın milli və təhlükəsizlik maraqları ikitərəfli əməkdaşlığı diktə edir. Heç kim Azərbaycana təzyiq edə bilməz. Bu, əks nəticə verə bilər. Konkret indiki halda isə təzyiq dilində danışmaq Amerikanın maraqlarına da qətiyyən cavab vermir.

# Qır o zəncirləri, Paşinyan!

## Deyəsən, ermənipərəst dairələr sülh müqaviləsinin özündən də dividend götürməyə çalışır

**İrəvan özü də etiraf edirdi ki, iki ölkə arasında sülh müqaviləsinin imzalanması yolunda əsas maneələrdən biri Xankəndidəki separatçı daşnak rejimi idi. Ona görə ki, 2020-ci il 10 noyabr tarixli üçtərəfli Bəyanatın tələbinə uyğun şəkildə ərazimizi tərk etməyə tələsməyən Ermənistan ordusunun tör-töküntüsü və yerli silahlı quldur dəstələri davamlı olaraq təxribatlar törətməklə qarşılıqlı etimad mühitinin yaranmasını əngəlləyir, sülh danışıqlarını məntiqi sonluğa daşıyacaq sağlam məcraya yönəlməsinin qarşısını alırdılar. Nəhayət, səbri tükənən Azərbaycan bir sutka ərzində həyata keçirdiyi lokal antiterror tədbirləri ilə separatçı xunta rejiminə son qoydu. Bundan sonra sülhün perspektivi daha aydın və yaxında görünür. Çünki məhz rəsmi Bakı İrəvanın boynuna götürdüyü öhdəliyi özü icra etməklə, səddi aradan qaldırdı.**

* * *

Azərbaycan Respublikası Prezidentinin köməkçisi – Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev “X” sosial şəbəkəsində yazıb ki, Ermənistan sülh sazişi ilə bağlı sənədin variantını iki aydan artıqdır gecikdirir. Prezidentin köməkçisi qeyd edib ki, 2023-cü il sentyabrın 11-də Azərbaycan Ermənistanın cavabının yaxın vaxtlarda təqdim olunacağına ümid edərək ikitərəfli kanallarla sülh sazişinin 5-ci düzəliş edilmiş variantını müvafiq izahatlarla birlikdə qarşı tərəfə təqdim edib: “Bu ilin sonunadək sülh müqaviləsini imzalamağa hazır olduqları barədə ictimaiyyətin bəyanatlarına baxmayaraq, Ermənistan tərəfi sənədin öz variantının təqdim olunmasını iki aydan artıq gecikdirir. Azərbaycan tərəfi dəfələrlə bəyan edib ki, indi bu, tarixi fürsətdir. Xüsusilə Azərbaycanın suverenliyini bərpa etdikdən sonra sülh müqaviləsinin imzalanmasına heç bir maneə yoxdur. Ermənistanın buna nə dərəcədə hazır olması indi ciddi suallar doğurur”.

H.Hacıyev paylaşımında daha sonra qeyd edib ki, sülh müqaviləsinin mətni nüvə fizikası deyil: “Azərbaycanın təklif etdiyi beynəlxalq hüququn əsas prinsiplərinə uyğun olaraq, intensiv ikitərəfli danışıqlar yolu ilə sülh sazişinin mətni daha əvvəl bağlana bilər. Top Ermənistanın meydanındadır!”.



Bəli, ötürmə var və indi növbə İrəvanındır. Amma masaya əyləşib sülh sazişini imzalamasından ötrü Ermənistanın baş naziri Nikol Paşinyandan siyasi iradə tələb olunur. Zarafat deyil, hazırda o, iki milyon doqquz yüz min erməninin deyil, dünyaya səpələnmiş on milyona yaxın soydaşının tam diqqət mərkəzindədir. Bu prizmadan yanaşdıqda, fikrimizcə, 45 yaşlı Paşinyanın vəziyyətinə siz də qibtə etməzsiniz. Amma ortada Azərbaycanın yaratdığı reallıq və ədalət var. Hayastan lideri, nə qədər çətin olsa da, bu reallığın qarşısında daxildən və xaricdən boynundan sallanmış zəncirlərdən mütləq azad olmalıdır. O, təkcə, lobbili, diasporlu zəngin hayların deyil, həm də onu alətə çevirməyə çalışan Qərbin təsirindən yaxasını qurtarmalıdır. Onu da anlamalı və qəbul etməlidir ki, qarşıdakı sülh müqaviləsi Qərbin siyasi oyunları və saxta “dəstəkçi” səyləri nəticəsində deyil, Bakının hərbi və diplomatik addımları, İrəvanın isə komplekslərdən uzaq siyasi iradəsi nəticəsində mümkün olacaq.

* * *

Azərbaycan və Ermənistan arasında sülh sazişinin imzalanmasında maraqlı olmayan qüvvələrin əsl niyyətləri barədə yazmışdıq. Qısaca onu xatırladaq ki, həmin güclərin məqsədi bölgəyə sabitliyi və inkişafı gətirəcək sülh deyil, qarşıdurmanın, münaqişənin yenidən alovlanması və nəticədə buraya geosiyasi və hərbi nüfuzunu yeritməkdir. Bu mənada, həmin qaraguruha qarşılıq verən Azərbaycan həm də sabitliyə hamıdan çox ehtyac duyan Ermənistanın mənafeyinə xidmət etmiş olur. Bundan ötrü Bakı həmin Qərbin sağlam institutları ilə əməkdaşlıqdan imtina eləmir. Elə ATƏT-in Parlament Assambleyasının Prezidenti Pia Kaumanın (Finlandiya) və qurumun Cənubi Qafqaz üzrə xüsusi nümayəndə Kari Henriksenin (Norveç) ölkəmizə səfərinə də bu kontekstdə yanaşmaq mümkündür. ATƏT nümayəndələri səfər çərçivəsində Azərbaycan rəsmiləri ilə görüşlərdə Bakının bu qurumda fəal iştirakının regionda çoxtərəfli diplomatiya və dialoq üçün müsbət əlamət olduğunu qeyd ediblər. Bildirilib ki, indi Azərbaycan və Ermənistan arasında tam nizamlanmaya nail olmaq üçün sürət qazanmağın vaxtıdır. Rəsmi Bakının hazırda davamlı sülhün bərqərar olması naminə əsl liderlik nümayiş etdirmək imkanına malik olduğu deyilən açıqlamada ATƏT rəsmiləri Azərbaycan tərəfinin etnik ermənilərin geri qaytarılmasına kömək göstərilməsi ilə bağlı təşəbbüsünü alqışladıqlarını vurğulayıblar. Nümayəndə heyətinin üzvləri, həmçinin, ərazilərin mina təhlükəsizliyini təmin etmək, yenidənqurma və reinteqrasiya sahəsində irəliləmək üçün əhəmiyyətli səyləri yüksək qiymətləndiriblər.

Sonda sülhə tərəddüd edən rəsmi İrəvanın diqqətinə Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın dünən Böyük Millət Məclisində hakim Ədalət və İnkişaf Partiyasının parlamentdəki fraksiyasının genişləndirilmiş toplantısındakı çıxışından bir sitatı çatdırmağı münasib sayırıq: “Ermənistan illərlə Türkiyənin torpaqları ilə bağlı xəyallar qurub, İkinci Qarabağ müharibəsində dərsini alıb, yerində oturub”.

Hesab edirik ki, Türkiyə Prezidentinin bu fikirlərindən nəinki İrəvan, eyni zamanda, onu yerində dinc oturmağa qoymayanlar da nəticə çıxarmalıdırlar.

***İ.HƏSƏNQALA***
***XQ***

**Ekspert rəyi**



**Toğrul İSMAYIL,**
**siyasi elmlər üzrə**
**fəlsəfə doktoru, professor**

Azərbaycan–Ermənistan münasibətləri məsələsində yenə də köhnə düşüncə və mövqe özünü büruzə verir. Azərbaycanın həyata keçirdiyi lokal xarakterli antiterror tədbirlərindən sonra dünyanın ən önəmli təşkilatı BMT-nin iki dəfə bölgəyə göndərdiyi missiyasının gəlib heç bir zorakılıq faktı tapmamasına və bununla bağlı hazırlanmış hesabatı heçə sayan Avropa Parlamentinin əleyhimizə qətnamə qəbul etməsi də eyni zehniyyətin təzahürüdür. Açıq şəkildə bildirmək lazımdır ki, beynəlxalq hüquqa görə, Ermənistan torpaqlarımızı işğal etdiyi zaman bütün razılaşmaların üzərindən xətt çəkib. Əgər Ermənistan sərhədlərin delimitasiya və demarkasiyasına razı olmasa, sülh müqaviləsini imzalamasa, Azərbaycanın istənilən qədər irəliləmək və əraziləri nəzarətə götürmək haqqı var. Çünki bütün razılaşmaları pozan biz yox, onlardır. Avropa İttifaqı da bunu çox yaxşı bilir. Qurumun təmsilçiləri sülh müqaviləsinin imzalanmayacağı təqdirdə bölgədə nələrin baş verə biləcəyini yaxşı dərk edirlər. Ona görə Jozef Borrell, habelə Aİ-nin başqa rəsmiləri belə açıqlamalar verirlər. Həmin Aİ-dən otuz ilə yaxın davam edən işğal dövründə niyə Ermənistana qarşı bu formada kəskin mövqe sərgiləmədiyini soruşmaq lazımdır. Fransanın forpostuna çevrilmiş Aİ-nin baş diplomatı Borrelin son təhrikedici açıqlaması da sülh prosesinə, münasibətlərin normallaşmasına ciddi şəkildə zərbə vurur. Eyni zamanda, beynəlxalq hüququn təməl fəlsəfəsini birbaşa pozur.

# Heydər Əliyevin Qafqaz xalqları arasında da çox böyük nüfuzu var idi



**Görkəmli şair, dramaturq, nasir və publisist, ictimai və dövlət xadimi, Azərbaycan Respublikasının birinci dərəcəli dövlət müşaviri, fövqəladə və səlahiyyətli səfir, Əməkdar incəsənət xadimi Hidayət Orucovla müsahibə.**

**(əvvəli qəzetimizin 14 noyabr 2023-cü il tarixli sayında)**

**– Elə bilirəm, sələflərindən fərqli olaraq, Ulu öndərin Qafqaz siyasəti, xüsusilə şimal qonşumuzla, onun böyük ərazi vahidləri ilə münasibətlərə yeni, sıx və isti bir yanaşma nümayiş etdirməsi yəqin ki, daha vacib hədəflərə hesablanmışdı. Bu barədə nə deyə bilərsiniz?**

– Ermənistanın işğalçı hücumlarının davam etməsinin, bir neçə rayonumuzu zəbt etməsinin fonunda, təbii ki, şimal cinahımızı etibarlı qorumaq üçün yeganə vasitə uğurlu siyasət və diplomatik gedişlər ola bilərdi. Axı, bizim nə mükəmməl və müasir silahlı qüvvələrimiz, nə yetərincə güclü sərhəd xidmətimiz, nə də ölkəni tam idarə etmək iqtidarında olan dövlətimiz var idi. Bütün bunlar Heydər Əliyev hakimiyyətə qayıdandan sonra təməldən başlayaraq qurulurdu. Həm də Ermənistanla müharibə apardığımız, daxildə çəkişmələrin davam etdiyi bir şəraitdə.

Həmin illərdə mən Heydər Əliyevin tapşırığı ilə demək olar hər ay Dağıstanda olurdum. Dağıstan Respublikasının milli siyasət naziri Məhəmmədsaleh Qusayev bir gün ora gedəndə mənə dedi: “Siz bura gələndə mənə deyirlər Hidayət Orucov görəsən yenə niyə gəlib bura? Sizin bir filminiz var e, almanlar deyir Mixaylo şəhərdədir, eynən onun kimi”. Eyni sözləri Gürcüstan Prezidenti Eduard Şevardnadzenin milli məsələlər üzrə köməkçisi də mənə deyirdi.

Ulu öndər Dağıstanda keçirilən mədəni tədbirlərə çox böyük diqqət yetirirdi. Xüsusilə orada Azərbaycanla bağlı tədbirlərin keçirilməsinə. Məsələn, Dağıstanda Şeyx Şamilin 200 illik yubileyi keçiriləndə Heydər Əliyev öz adından ora məktub ünvanladı və gedib həmin zirvə tədbirində iştirak edib həmin məktubu oxudum. Bu, respublika ictimaiyyətinə çox xoş təsir bağışladı. Sonra Bakıda Opera və Balet Teatrında Şeyx Şamilin təntənəli yubileyi keçirildi. Həmin illərdə Dağıstan Parlamentinin sədri, sonralar Dağıstanın prezidenti olan Muxu Əliyevin rəhbərliyi ilə nümayəndə heyəti gəlib həmin tədbirdə iştirak etdilər. Dağıstanın Dövlət Şurasının sədri Məhəmmədəli Məhəmmədovun Azərbaycana səfəri təşkil edildi. Bakıda Dağıstan mədəniyyəti günləri keçirildi.

Heydər Əliyev təkcə Dağıstanda deyil, bütün Qafqaz regionunda çox böyük və faydalı işlər görürdü. Onun Qafqaz siyasəti ayrıca bir tədqiqat mövzusudur. Bu regionda Ulu öndərin sözünün ağır çəkisi vardı. Qısqanclıq, paxıllıq azarından qurtara bilməyən ermənilər istisna olmaqla bütün Qafqaz xalqları arasında Heydər Əliyev çox böyük nüfuza malik idi. Bu ondan irəli gəlirdi ki, Ulu öndər bu xalqların milli dəyərlərini yüksək qiymətləndirirdi.

Yəqin bilirsiniz ki, Şeyx Şamilin İmaməti Çeçenistanın Vedeno yaşayış məntəqəsində olub. O zaman orada da Şeyx Şamilin yubileyini keçirirdilər. Həmin ərazi isə Çeçenistan hökumətinə müxalifətdə olan Şamil Basayev və onun silahlılarının nəzarətində idi. Bizi də dəvət etmişdilər. Ulu öndər mənə sual verdi ki, “necə bilirsən, getmək lazımdırmı ora?” Dedim: “Cənab prezident, getməyin hər halda müsbət təsiri olar”. Dedi: “Onda get, amma ehtiyatlı ol”.

Həmin illərdə o ərazilərə yola çıxmaq həqiqətən çox təhlükəli idi. Yola düşdüm. Axşam Dərbəndə çatdım və elə burada Qusayev bildi ki, mən Vedenoya gedirəm, qəti etiraz etdi və bildirdi ki, yollar çox qorxuludur. Səid Qurbanov məni qonaq evində qalmağa qoymadı, öz evinə apardı. Sonra Məhəmmədəli Məhəmmədov mənə zəng elədi ki, “ora getmə, yollar təhlükəlidir, vəziyyət çox çətindir”. Onu sakitləşdirdim. Hətta Seyid Camaloğlu mənə: “Əgər sizə Vedenoya tədbirə getməməyi Heydər Əliyevə məruzə etmək çətindirsə, mən telefon açım deyim”. Dedim: “Yox, mən getməliyəm”. Çünki getmək vacib idi və bu bizim milli xarakterimizi nümayiş etdirəcək bir addım idi.

Səhəri gün yola çıxdım, Çeçenistan sərhəddində çeçen hökumətinin nümayəndələri məni qarşıladılar. Tədbir açıq havada idi. Orada, həqiqətən, nə desən baş verə bilərdi. Bəlkə 10 min insan toplaşmışdı. Mən tədbirdə çıxış etdim və Heydər Əliyevin təbriklərini, xoş sözlərini çatdırdım. Çox yaxşı qarşıladılar. O zaman Çeçenistanın prezidenti Məshədov mənə dedi: “Biz sizi Qroznıda gözləyirdik. Amma siz birbaşa bura gəlmisiniz”. Sonra məni Qroznıya dəvət etdi. Təhlükəsizlik məsələlərilə bağlı olduğu üçün mən Qroznıya gedə bilməzdim. Çünki hər dəqiqə nə desən, baş verə bilərdi...

...Qayıdanbaş Dağıstanla sərhəddə çatanda sərhədçilər dedilər ki, Məhəmmədəli Məhəmmədovun köməkçisi və Dağıstan Dövlət Şurasının üzvü Səid Qurbanov iki dəfə zəng edib mənim Vedenodan qayıdıb-qayıtmadığımla maraqlanıblar...

Bilirsiniz, belə tədbirlərdə məqsəd təkcə Dağıstanla deyil, Çeçenistanla da münasibətləri yaxşılaşdırmaq idi və Heydər Əliyevin uzaqgörən diplomatik gedişləri ilə buna da nail olduq. İnquşetiya ilə də sıx münasibətlər və əlaqələr qura bildik. Mən ora da tez-tez səfərə gedirdim. Hətta Ulu öndərin tapşırığı ilə yeni prezident seçilən Ruslan Auşevin andiçmə mərasimində iştirak etdim və Prezidentimizin ona ünvanlanan təbrik məktubunu oxudum. Sonra Ruslan Auşev Bakıya Ulu öndərin 75 illiyinə gələndə elə onun yanında məni göstərib dedi: “Siz mənim xaç atamsınız”.

Heydər Əliyev hakimiyyətə qayıdandan sonra Azərbaycan həqiqətlərinin dünyaya çatdırılmasına xüsusi önəm verirdi. Çünki erməni təbliğat maşını çox güclü işləyirdi. Onların bütün dünyada güclü və mütəşəkkil lobbiləri, diaspor təşkilatları var idi. Ulu öndər gələnə qədər biz bu sahədə çox geridə idik. Dünyada informasiya, təbliğat çox mühüm rol oynayırdı və Heydər Əliyev bunu çox yaxşı bilirdi.

İlk olaraq Azərbaycan həqiqətlərini yaxın xarici ölkələrə çatdırmaq lazım idi. Keçmiş sovet respublikalarına səfərlər, onların rəhbərlərinin ölkəmizə dəvət olunması bu yolda əsas vasitələrdən biri idi. Məsələn, Heydər Əliyev Tatarıstanın Prezidenti Mintemir Şaymiyevi Azərbaycana səfərə dəvət etdi. Bakıda onu mən müşayiət edirdim. Şaymiyev Azərbaycana səfərindən çox məmnun qaldı. Yəqin xatırlayırsınız ki, o zaman keçmiş sovet respublikalarının hamısında gərginlik var idi və milli münasibətlər kəskin xarakter almışdı. Mintemir Şaymiyev Prezident Heydər Əliyevə mənim də iştirak etdiyim şam yeməyi zamanı belə bir fikir söylədi: “Heydər Əliyeviç, bir çox respublikalardan, ölkələrdən Tatarıstana tatar qaçqınları köçüb gəlir. Bircə Azərbaycandan qaçqınlarımız yoxdur. Mən əminəm ki, bu sizin xidmətinizdir”.

Ulu öndər yalnız ölkəmizə coğrafi baxımdan yaxın olan ölkələrlə deyil, Rusiyanın ayrı-ayrı subyektləri ilə, məsələn Çuvaşıstan, Kalmıkiyailə, Moldovanın Qaqauziya vilayəti ilə və sair ölkələrlə əlaqələr qururdu.

Heydər Əliyev bütün vasitələrdən istifadə edirdi ki, Ermənistanın hərbi təcavüzünə məruz qalan, amma özünün tarixi tolerantlıq, multikultural ənənələrinə sadiq olan Azərbaycan reallıqlarını dünyaya göstərsin, bu yolla ölkəni informasiya blokadasından çıxarsın, Vətənimiz haqqında formalaşan mənfi rəyi dəyişsin.

Məsələn, dini liderləri Azərbaycana tez-tez dəvət edirdi. Rus Provaslav Kilsəsinin başçısı, Moskva Ümumrusiya Patriarxı, mərhum II Alekseyi Bakıya səfərə dəvət etmişdi. Maraqlıdır ki, II Aleksey Azərbaycana səfərə gələn Rusiyanın ilk patriarxı idi. Ona qədər Rusiyanın heç bir patriarxı nə sovet dönəmində, nə də ondan əvvəl Azərbaycana gəlməmişdi. Onu da əvvəldən axıradək Bakıda mən müşayiət edirdim. Təbii ki, onun Azərbaycanda yaşayan rusların, ümumiyyətlə provoslavların vəziyyəti ilə yaxından tanış olması və rəy bildirməsi Rusiyanın ictimai fikrində həlledici amillərdən biri oldu. Bundan az bir müddət sonra Rus Pravoslav Kilsəsinin Müqəddəs Sinodunun qərarı ilə mərkəzi Bakıda olan müstəqil Xəzər yeparxiyası yaradıldı. Bütün bunlar Rusiya ilə Azərbaycan arasında əlaqələrə yeni impuls verirdi və Azərbaycanda yaşayan ruslara münasibət yaxşılaşdıqca, Rusiyada yaşayan həmvətənlərimizə də münasibət dəyişir və yaxşılaşırdı.

**– Hidayət müəllim, təbii ki, bunlar Rusiya Federasiyasının subyektləri idi və onlarla münasibətlərə həm də Rusiya ilə əlaqələr kontekstindən yanaşmaq lazım idi. O dövrdə rəsmi mətbuat orqanında çalışdığım üçün Azərbaycanın düşdüyü vəziyyəti yaxşı xatırlayıram. Həmin dövrdə, xüsusilə AXC–Müsavat hakimiyyəti illərində Azərbaycan–Rusiya münasibətləri çox gərgin vəziyyətdə idi. Etiraf etmək lazımdır ki, Ermənistanın ölkəmizə təcavüzünün genişləndiyi bir vaxtda bu amil Azərbaycanın xeyrinə deyildi, mən deyərdim, hətta çox təhlükəli idi. Heydər Əliyev Azərbaycan–Rusiya münasibətlərinin mehriban qonşuluq və əməkdaşlıq axarına düşməsində hansı rolu oynadı?**

– Təbii ki, Heydər Əliyev Rusiya ilə münasibətlərə çox böyük əhəmiyyət verirdi. Baxın, hakimiyyətə qayıdışının ilk günü, yəni 1993-cü il iyunun 15-də Azərbaycan Respublikası Ali Sovetinin sədri seçilən Heydər Əliyev Milli Məclisdəki ilk çıxışında nə deyir: “Rusiya çox böyük dövlətdir, o bizim şimal qonşumuzdur. Şübhəsiz, Rusiya ilə Azərbaycan arasında müstəqil prinsiplərə əsaslanan münasibətlər yaxşı, geniş və səmərəli olmalıdır”. Bu fikri ilə Ulu öndər təkcə Azərbaycan siyasi elitasına deyil, Rusiyanın isteblişmentinə də öz xarici siyasət kursunu, Rusiyaya münasibətini bəyan etdi.

Onu da deyim ki, Heydər Əliyev Azərbaycana hakimiyyətə qayıdan gündən ölkəmizə münasibət dəyişdi. Təkcə Rusiyada deyil, bütün dünyada artıq Azərbaycana daha hörmətlə yanaşmağa başladılar. Amma Rusiya təbii ki, xarici siyasət prioritetlərdən sayılırdı, çünki bu dövlət, regionun əsas söz sahiblərindən biri idi.

Heydər Əliyevin ictimai-siyasi tədbirləri Milli Məclisdəki bəyanatla bitmədi və bu münasibətlər də dərhal qurulmadı. Müstəqil Azərbaycanla Rusiya arasında münasibətlər bu bəyanatdan 4 il sonra–1997-ci il iyulun 3-də iki dövlət arasında imzalanmış “Dostluq, əməkdaşlıq və qarşılıqlı təhlükəsizlik müqaviləsi” ilə rəsmiləşdi. Müqavilə də məhz həmin günlərdə – 1997-ci il 2-4 iyulda Azərbaycan Prezidenti Heydər Əliyevin Rusiya Federasiyasına ilk rəsmi səfəri çərçivəsində imzalandı. Sənədin imzalanmasından sonra Azərbaycan–Rusiya münasibətləri sürətlə genişlənməyə başladı. Buna qədər isə ulu öndər bir çox tədbirlər həyata keçirməli oldu.

Bu mənada, əlbəttə, Prezident Heydər Əliyev Azərbaycan–Rusiya münasibətlərinin iki qonşu, müstəqil dövlətin qarşılıqlı hörmət və ehtiram əsasında, o cümlədən, bütün sahələrdə əməkdaşlıq münasibətlərinin yeni dövrün tələbləri səviyyəsində qurulmasının əsasını qoydu. Lakin bu, addımlar, ilk növbədə, Heydər Əliyevin daxili milli siyasətindən başladı. Mən söhbətimizin əvvəlində qeyd etdim ki, Azərbaycanda yaşayan ruslar 1990-cı ildən sonra ölkəni tərk etməyə başlamışdılar. Sonralar axın bir qədər də güclənmişdi və bu hal Rusiyanın siyasi hakimiyyətini, Rusiya siyasi elitasını son dərəcə qıcıqlandırırdı. Nəticədə nəhəng qonşu dövlətdə Azərbaycana və azərbaycanlılara qarşı mənfi münasibət formalaşırdı. Həmin illərdə Rusiyanın özündə də separatizm meyilləri güclü idi, çünki hakimiyyətdə bir zəiflik, daxili qarşıdurma vardı, ölkə idarə edilmirdi. Bu da bizə yaxşı bir şey vəd etmirdi.

Heydər Əliyev bəlkə də heç kimin dərk edə bilmədiyi dərəcədə, təkcə ölkədə yaşayan ruslarla deyil, ümumiyyətlə, bütün millətlərarası və konfessiyalararası münasibətlərin qorunmasının və inkişafının vacibliyini dərk edirdi. Çıxışlarının birində Ulu öndər bunun Azərbaycan üçün nə qədər böyük dəyər olduğunu qeyd edərək dedi: “Azərbaycan Respublikasının çoxmillətli dövlət olmasını, biz öz ölkəmiz üçün böyük üstünlük hesab edirik... Bizdə həmçinin xristianlığa iman edənlərə də böyük ehtiramla yanaşırlar və onlar da qalan vətəndaşlarımız kimi hüquq və azadlıqlardan bərabər şəkildə istifadə edirlər”.

Yaxşı xatırlayıram, mənim də iştirak etdiyim rus icması ilə görüşdə Ulu öndər ruslara üz tutaraq dedi: “Ruslar, heç bir yerə getməyin, mən Prezident kimi sizin bütün hüquqlarınızın qarantıyam!” Şübhəsiz, ki, ölkəmizdə gedən bütün bu prosesləri şimal qonşularımız diqqətlə izləyirdilər.

Yadımdadır, Azərbaycanda siyasi ab-hava öz axarına düşəndən, ölkədə əmin-amanlıq yaradılandan sonra Rusiyanın tanınmış jurnalistlərindən biri Heydər Əliyevdən müsahibə alanda onu “hakimiyyət ustası” adlandırdı. Ulu öndər də gülərək dedi: “Mən belə bir ifadəni ilk dəfə eşidirəm”. Mən isə deyərdim ki, Heydər Əliyev “hakimiyyət ustası” yox, “hakimiyyət ustadı” idi. Hələ çox-çox əvvəllər bunu demişəm də, yazmışam da: Azərbaycanda belə dövlət başçısı ənənəsi olmayıb. Xüsusilə son iki əsrdə. Azərbaycan dövlətçiliyinin qədim tarixində necə olub, o bizə elə dəqiqliklə gəlib çatmayıb. Amma XX əsrdə dövlət idarəçiliyində belə ənənə olmayıb. Heydər Əliyevin dahiliyi ondadır ki, o belə bir ənənəni yaratdı və ondan sonra Prezident İlham Əliyev bu ənənəni yüksək ustalıqla, əzmlə, dəyanətlə davam etdirir. Bu çox böyük hadisədir və Azərbaycan üçün çox böyük dəyərdir.

Mən o zaman artıq Rusiyanın müvafiq qurumları, Dövlət Duması, Prezident Aparatının milli münasibətlər şöbəsi, hökuməti ilə işləyirdim və görürdüm ki, Heydər Əliyevdən sonra Azərbaycana yanaşma yaxşı mənada necə sürətlə dəyişir. Harada olur-olsun bizimlə söhbətə məhz Heydər Əliyev haqqında qürur doğuracaq fikirlər söyləməklə başlayırdılar.

Onu da deyim ki, 2000-ci ildə Vladimir Putin Rusiya Federasiyasının Prezidenti seçiləndən sonra iki olkə arasında münasibətlər daha sıx xarakter aldı. Çünki Rusiyanın yeni Prezidenti Azərbaycanla münasibətlərdə qarşıya praqmatik vəzifələr və prioritetlər qoyurdu.

**– Həmin illərdə Azərbaycan üçün həssas məsələlərdən biri də qonşu Gürcüstanla münasibətlər idi, çünki bu ölkədə yüz minlərlə soydaşımız yaşayırdı. Onlara qarşı da, hələ qatı millətçi Zviad Qamsaxurdiyanın prezidentliyi dövründə deportasiya təhlükəsi yarandı. Onun hakimiyyəti devrildikdən sonra belə bu təhlükə qalmaqda idi. Heydər Əliyev bu problemin aradan qaldırılması üçün qarşınızda hansı məsələləri qoyurdu və hakimiyyət ustadı özü bu problemin həllinə necə nail oldu?**

– Əslində deportasiya başlamışdı. Həmin vaxt artıq Gürcüstanı 80 min azərbaycanlı tərk etmişdi. Qalanların da əksəriyyətinin, demək olar ki, çamadanları əllərində idi. Gürcüstan hələ müstəqilliyimizin ilk illərində çox şeyə iddialı idi. Zviad Qamsaxurdiyanın vaxtında əvvəl azərbaycanlıların Gürcüstandan köçürülməsi, sonra isə Azərbaycanın müəyyən ərazilərinə sahib olmaq çağırışları mövcud idi. O zaman Gürcüstanda bu prosesləri sürətləndirmək üçün Qamsaxurdiyanı qızışdıran müəyyən qüvvələr var idi. Bu qüvvələr də Ermənistan tərəfindən idarə olunurdu.

1993-cü ilin noyabrında Heydər Əliyevin tapşırığı ilə mən Tiflisə getməli oldum. “Qırmızı körpü”də məni Gürcüstan baş nazirinin müavni, eyni zamanda millətlərarası münasibətlər üzrə Dövlət Komitəsinin sədri Aleksandr Kavsadze qarşıladı. Oradan birbaşa Marneuliyə getdik. Qaçağanın Mədəniyyət Mərkəzində burada yaşayan soydaşlarımızla görüş oldu. Hamı paltoda, istilik yox, vəziyyət çox acınacaqlı idi. Görüşdən sonra birbaşa Tiflisə yola düşdük.

Gürcüstanda bir həftə işləməli olduq. Çünki Qamsaxurdiyadan miras qalan millətçilik hələ özünü göstərirdi. Azərbaycanlıları sıxışdırır və erməni kartından ustalıqla istifadə edirdilər. Həmçinin ölkənin vəziyyətinin son dərəcə ağır olması da azərbaycanlıların Gürcüstanı tərk etməsinə güclü təsir göstərirdi. Məsələn, biz gəlib Bolnisidə, Marneulidə, Dmanisidə işləyir, axşam Tiflisə qayıdırdıq. Marneulidən çıxanda təpənin üstündən Tiflis görünürdü. Hər geri qayıdanda məni müşayiət edən Aleksandr Kavsadze təpədən çox diqqətlə Tiflisdə bir nöqtəyə baxırdı. Bir dəfə özümü saxlaya bilməyib soruşdum: “Nəyə belə diqqətlə baxırsınız?” Dedi: “Baxıram görüm Prezidentin iqamətgahında, bizim də qaldığımız yerdə işıq var, ya yox”. Bundan aydın bəlli olurdu ki, ölkədə vəziyyət necədir.

Məsələn, Gürcüstan Parlamentinin sədri məni qəbul edəndə çay təklif edə bilmədilər, meyvə şirəsini bir az isidib verdilər. Çünki çay qoymağa istilik yox idi. Bir həftəlik görüşlərdən, danışıqlardan sonra Prezident Şevardnadze məni qəbul etdi. Gürcüstana gedəndə əynimə bir qalın, isti yun köynək geyinmişdim. Eduard Ambrosoviçin qəbuluna gedəndə, düşündüm bu köynəkdə getmək yaxşı olmaz. Onu çıxarıb qonaq evində qoydum. Qəbuluna girəndə baxdım ki, Şevardnadze qırmızı yun köynəkdə kabinetdə oturub. Kabinet də çox soyuq idi.

Bolnisidə olanda, öyrənmişdim ki, oranın icra başçısı ermənidir və soydaşlarımıza qarşı açıq diskriminasiya siyasəti aparırdı. Şevardnadze ilə görüşəndə dedim: “Eduard Amvrosieviç, bir gürcü yoxdur Bolnisiyə rəhbər təyin edəsiniz? Mən demirəm azərbaycanlı qoyun, amma erməni yox da...” Dedi: “Mən bunu mütləq nəzərə alacağam”. Bir ay sonra məlumat verdilər ki, həmin icra başçısını dəyişiblər. Bir dəfə də gedəndə yolumu Laqodexidən saldım. Oradan gəldim Telaviyə, gecə burada qaldıq. Telavidə “Pankisi dərəsi” deyilən təhlükəli bir yer var. Səhər gedib o ərazidə azərbaycanlılara görüşdüm, toplantı keçirdim. Sonra Laqodexiyə qayıdıb burda da görüş keçirdik. Yerli adamlar dedilər ki, buranın rəhbəri ermənidir və azərbaycanlılara qan uddurur. Azərbaycanlıları qorxudub torpaqlarını əllərindən alıb satır, yüz fırıldaqdan çıxır.

Qayıdan günün səhəri Telavinin qubernatoru mənə zəng vurdu. Rayon rəhbəri ilə bağlı ona kəskin etirazımı bildirdim. Bir aydan sonra onu da dəyişdilər. Belə faktlar kifayət qədərdir. Təbii ki, bütün bunlar Heydər Əliyevin nüfuzu, regiondakı hörməti sayəsində həyata keçirilirdi.

Bir gün də Tiflisdəki “9 Aprel” şəhidlərinin məzarına əklil qoymağa gəlmişdik. Ətrafdakı insanlar yol polislərinin müşayiəti ilə nümayəndə heyətinin gəldiyini görüb burada dövlət adamlarının da olduğunu anlayırlar. Bir neçə dəqiqəyə ora xeyli adam toplaşdı və Kavsadzeni dövrəyə aldılar. Bir qadın ona nəsə deyirdi, hamı da hay-küysüz, təmkinlə qulaq asırdı. İmir Məmmədli onun dediklərini mənə tərcümə edirdi. Qadın deyirdi: “Mən tək qadınam, ötən il şəxsi vəsaitimdən dövlətə 100 min dollar kömək etdim. Lazım olsa, yenə kömək edərəm. İstədiyim öz puluma rahat istilik, elektrik enerjisi və çörək almaqdır. Başqa bir iddiam yoxdur”. Doğrusu, qadının sözləri məni çox mütəəssir etdi. O da çox xoşuma gəldi ki, bu qədər adamın içində o qadından başqa kimsə danışmadı.

Bakıya qayıdanda gördüyümüz işlər haqqında Ulu öndərə məruzə etdim və qarşılaşdığım bu səhnəni də ona danışdım. Dedi: “Bu çox ibrətamiz bir hadisədir. Bunu sən Azərbaycan Televiziyasında ictimaiyyətə çatdır”. Bizdə vəziyyət bu qədər dözülməz deyildi, amma bəzi adamlar narazılıq edirdilər. Heydər Əliyevin tapşırdığı kimi çıxıb bu hadsələri, Tiflisdə gördüklərimi televiziyada canlı yayımda danışdım.

Tiflisə bu səfərdən 6 ay sonra yenidən Gürcüstana getdim. Orada Azərbaycan ədəbiyyatı günləri keçirirdik. Bakıdan böyük bir nümayəndə heyəti aparmışdıq. Amma artıq vəziyyət müsbətə doğru dəyişirdi. Prezident Eduard Şevardnadze bizim nümayəndə heyətini qəbul etdi.

Ümumiyyətlə, Şevardnadze prezident olduğu vaxtlarda dövlət müşaviri kimi Gürcüstana 14 dəfə səfərə getmişəm. Bir dəfə o xaricdə olub, bir dəfə Ulu öndəri Gürcüstana rəsmi səfərində müşayiət etmişəm, bir dəfə də Azərbaycan Xalq Cümhuriyyətinin 80 illiyində Milli Məclisin sədri Murtuz Ələsgərovla birgə getmişəm. 11 dəfə Şevardnadze məni tək qəbul edib. Onunla çox məsələləri müzakirə etmişəm. O, əvvəllər tərcüməçi ilə danışırdı, sonralar mənə dedi, vaxta qənaət naminə gəl rus dilində danışaq. Bizim söhbətlərimizdə iki məsələ daimi müzakirə mövzusu idi. Birinci, Gürcüstanda yaşayan soydaşlarımızın hüquqlarının qorunması idi. Şevardnadze mənə dedi: “Eto bılo diskriminaçionnıy vopros”. İkincisi də, Axıska türklərinin öz vətənlərinə qayıtması məsələsi idi. İlk dəfə bunu müzakirə edəndə Şevardnadze dedi: “Doroqoy Qidayat! Ya ne pokinu kreslo prezidenta do tex por, poka ne reşu etix voprosov...”

Bir gün də Aleksandr Kavsadze Bakıya gəldi. Həyat yoldaşını da gətirmişdi. Heydər Əliyev onları birgə qəbul etdi. Kavsadze dedi: “Heydər Əliyeviç, mən prezidentin bir tapşırığını yerinə yetirmək istəyirəm. Cənab Hidayətə deyə bilməmişəm. Eduard Ambroseviç tapşırıb ki, dostum Hidayətə mənim salamlarımı yetirərsən...” Doğrudur, o mənə dost deyirdi, amma mən heç vaxt prezidentə dost deməərəm. Mən ona çox hörmət edirəm, amma dost deyə bilmərəm. Axı Prezident Prezidentdir, ölkənin rəhbəridir, ali şəxsdir... Sonralar çox məmnun oldum ki, Eduard Şevardnadze öz memuarında mənim haqqımda xoş sözlər yazmışdı...

Ümumiyyətlə, mənim əvvəllər də Gürcüstanla çox sıx əlaqələrim olub. Hələ İrəvanda olanda çalışırdım ki, bizim ölkələr arasında əlaqələr yaxşı olsun. Elə o vaxtlarda Tiflisə açıq məktub yazdım, mətbuatda çap olundu. Orada çoxlu dostlarım var idi. Yəni həmişə bu ölkəyə xüsusi münasibətdə olmuşam. Məsələn, Tiflisə elə ilk səfərimdə, Yazıçılar İttifaqının sədri Quram Pançiksi ilə görüşüb xeyli söhbət etdik. Dostlarını toplamışdı məclisə. Ona dedim: “Bəzi gürcülər deyirlər ki, azərbaycanlılar bura gəlmədir”. Dedi: “Onlar gürcü xalqının düşmənləridirlər”. Dedim: “Çıxış elə, bunu açıq de də”. Dedi: “Edəcəyəm”. Çıxış etdi də.

Bir sözlə, 14 il milli siyasət məsələləri üzrə Dövlət müşaviri, 6 il Dini Məsələlər Komitəsinin rəhbəri olmuşam və bu 20 il ərzində nəzərlərim həmişə Gürcüstanda və orada yaşayan azərbaycanlıların üstündə olub.

**– Şevardnadze ilə görüşləriniz zamanı o, Heydər Əliyev haqqında söhbət açırdımı?**

– Söhbət açmaya bilərdimi?! Heydər Əliyev Gürcüstana çox böyük dəstək verib və Şevardnadze bunu itirmirdi, daim minnətdarlıqla yada salırdı. Ulu öndər haqqında çox yüksək fikirlər söyləyirdi. Onu da qeyd etməyə bilmərəm ki, Gürcüstanda yaşayan soydaşlarımızın problemlərinin həllində Şevardnadzenin xidmətləri danılmazdır. Məhz onun Heydər Əliyevlə yaxın münasibətləri, səyləri sayəsində vəziyyət sabitləşdi. Qamsaxurdiya xaosunda ölkəni tərk etmək məcburiyyətində qalmış soydaşlarımızın çoxu sonralar öz yurdlarına geri qayıtdılar.

***Söhbəti qələmə aldı:***

***İlqar RÜSTƏMOV,***
***Əməkdar jurnalist,***
***XQ***

# Əli Əsədovun Türkiyənin nümayəndə heyəti ilə görüşü



**Noyabrın 15-də Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov Türkiyə Respublikasının Ətraf Mühit, Şəhərsalma və İqlim Dəyişikliyi naziri Mehmet Özhasekinin rəhbərlik etdiyi və Türkiyənin Ədalət və İnkişaf Partiyası sədrinin müavinlərinin daxil olduğu nümayəndə heyəti ilə görüşüb.**

Nazirlər Kabinetinin mətbuat xidmətindən bildiriblər ki, görüşdə Bakıda keçirilən Türk Dünyası II Meteorologiya Forumunun önəmi vurğulanıb. Forumun meteorologiya sahəsində türkdilli dövlətlər arasında əməkdaşlıq əlaqələrinin daha da inkişaf etdirilməsinə geniş imkanlar yaradacağına əminlik ifadə olunub.

2021-ci ildə Ankarada keçirilmiş I Meteorologiya Forumu çərçivəsində Türk Dünyası Meteorologiya Birliyinin yaradılması haqqında qəbul edilmiş qərarın önəmi diqqətə çatdırılıb. Birliyin yaradılmasının bölgədə iqlim dəyişmələrinə qarşı kollektiv mübarizənin əlaqələndirilməsi baxımından böyük əhəmiyyət daşıdığı bildirilib.

Tərəflər qlobal iqlim dəyişmələri çağırışlarına cavab vermək üçün Türk dövlətləri meteorologiya xidmətlərinin fəaliyyətinin əlaqələndirilməsinin, bu istiqamətdə səylərin birləşdirilməsinin önəmini qeyd ediblər.

Azərbaycanda meteorologiya sahəsinin modernləşdirilməsi üçün dövlətimiz tərəfindən həyata keçirilən işlər barədə məlumat verilib. Azərbaycanda Milli Hidrometeorologiya Xidmətinin fəaliyyətinin Ümumdünya Meteorologiya Təşkilatının standartlarına uyğun təkmilləşdirilməsi sahəsində davamlı tədbirlərin görüldüyü diqqətə çatdırılıb.

Hidrometeoroloji hadisələrin proqnozlaşdırılması ilə bağlı müasir standartlara cavab verən yeni erkən xəbərdarlıq sisteminin yaradılması istiqamətində hazırlıq işlərinin davam etdirildiyi vurğulanıb.

Eyni zamanda, Ekologiya və Təbii Sərvətlər Nazirliyi yanında Milli Hidrometeorologiya Xidməti ilə Türkiyənin Baş Meteorologiya İdarəsi arasında əməkdaşlığın inkişafından məmnunluq ifadə edilib. İki qurum arasında mütəmadi qaydada təcrübə mübadiləsinin həyata keçirildiyi bildirilib.

Həmçinin Türkiyənin iqlim dəyişikliyi ilə mübarizədə səyləri yüksək qiymətləndirilib. Vurğulanıb ki, 2020-ci ildən Azərbaycan Türkiyənin "Gələcəyə nəfəs!" şüarı altında keçirilən kütləvi ağacəkmə aksiyasına qoşulub, ötən dövr ərzində layihə çərçivəsində ölkə ərazisində yüz minlərlə ağac əkilib.

Türkiyə nümayəndə heyətinə Ermənistanın 30 illik işğalı dövründə Azərbaycan torpaqlarına dəymiş ekoloji ziyan barədə məlumat verilib.

Hazırda həmin ərazilərdə aparılan bərpa-quruculuq işləri çərçivəsində ekologiyanın, bioloji müxtəlifliyin, su bioresurslarının, təbiət abidələrinin bərpası üzrə tədbirlər həyata keçirilir.

Bu istiqamətdə Türkiyə ilə əməkdaşlığın önəmini qeyd edən Ə.Əsədov Cəbrayıl rayonu ərazisində birgə həyata keçirilən "Azərbaycan–Türkiyə Beynəlxalq Meşə Təlim Mərkəzi", "Ağıllı Tingçilik" və "Dostluq Meşəsi" Kompleksinin yaradılması işlərinin davam etdirildiyini bildirib.

Eyni zamanda, su resurslarının idarə edilməsi məsələsinə toxunan Ə.Əsədov su ehtiyatlarının həm transsərhəd, həm də yerli miqyasda qorunmasının Azərbaycan üçün strateji əhəmiyyət kəsb etdiyini diqqətə çatdırıb.

Bu baxımdan Araz və Kür çayları hövzəsinin su ehtiyatlarının mühafizəsi və davamlı istifadəsi ilə bağlı iki ölkə arasında əməkdaşlığın möhkəmləndirilməsi gündəlikdə duran aktual məsələ kimi qiymətləndirilib.

*XQ*

# "Heydər Əliyev siyasəti: tolerantlıq" mövzusunda konfrans



**Noyabrın 15-də Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin təşkilatçılığı ilə "Heydər Əliyev siyasəti: tolerantlıq" mövzusunda konfrans keçirilib.**

Komitə sədrinin müavini Sahib Nağıyev ölkədə tolerantlığın möhkəmlənməsində ulu öndər Heydər Əliyevin tolerantlığa verdiyi önəmdən danışıb.

Qafqaz Müsəlmanları İdarəsi sədrinin müavini Fuad Nurullayev, Multikulturalizm Mərkəzinin icraçı direktoru Rəvan Həsənov, Dağ yəhudiləri dini icmasının sədri Milix Yevdayev, Azərbaycanda Katolik Kilsəsinin Apostol Prefekturasının yepiskopu Vladimir Fekete, Alban-Udi Xristian dini icmasının sədri Robert Mobili, Bibliya Cəmiyyəti Xristian dini icmasının sədri Rasim Xəlilov, Bəhailər Mərkəzinin katibi Ramazan Əsgərli çıxış edərək ulu öndər Heydər Əliyevin həyata keçirdiyi müdrik siyasət nəticəsində respublikamızda yaşayan dini icmalar arasında dostluğun və qardaşlığın daha da möhkəmlənməsindən, ölkəmizin nümunəvi tolerantlıq modelini formalaşdırmasından söhbət açıblar.

**Anar TURAN**
**XQ**

# Leyla Əliyevanın "Sevgi" kitabının təqdimatı




**Bakı Ekspo Mərkəzində keçirilən 9-cu Bakı Beynəlxalq Kitab Sərgisində Leyla Əliyevanın "Sevgi" kitabının təqdimat mərasimi olub.**



"Şərq-Qərb" nəşriyyat evinin baş redaktoru Nərgiz Cabbarlının moderatorluğu ilə keçirilən təqdimatda çıxış edən Xalq yazıçısı Elmira Axundova kitab haqqında ətraflı məlumat verib: "Leyla xanımın kitabları zövqlü, fəlsəfi və dərin mənalı kitablardır. Burada fərqli cəhət var. Kitabda Leyla xanımın şeirləri yer alıb. Leyla xanım öz üzərinə böyük məsuliyyət götürüb. O, dahi babası və atası kimi Azərbaycan üçün böyük işlər görür. Leyla xanım çox istedadlı və yaradıcı insandır".

Azərbaycanın Xalq rəssamı, professor Arif Hüseynov Leyla Əliyevanın çəkdiyi rəsmlər barədə danışıb. Bildirib ki, hər yaradıcı insanın rəsmlərində öz səsi var. "O səsi Leyla Əliyevanın əsərlərində hiss etmək olar. O, rəsmlərində iki minimal rənglərdən istifadə edir və onların vasitəsilə tamaşaçıya öz fikrini çatdırır", – deyə A.Hüseynov qeyd edib.

"Şərq–Qərb" nəşriyyat evinin direktoru Sevil İsmayılova qeyd edib ki, kitabın adının "Sevgi" olması heç də təsadüfi deyil: "Çünki Leyla Əliyeva yaratdığı hər bir şeyə öz sevgisini qatır. Nəşrdə, həmçinin Leyla xanımın şəxsən özü hazırladığı şirniyyatların reseptləri yer alıb".

Təqdimatda, eyni zamanda, Leyla Əliyevanın rəsm əsərlərindən ibarət olan kataloq təqdim olunub.

Qeyd edək ki, Leyla Əliyevanın "Sevgi" kitabında yer alan reseptlərin əsas xüsusiyyəti onların şəkərsiz olmasıdır. Reseptlərin hər biri kitabda Leyla Əliyevanın şeirlərindən parçalarla müşayiət olunub. Bu nəşr Bakı Kitab Mərkəzinin bilavasitə iştirakı ilə "Şərq-Qərb" nəşriyyatında çap olunub. "Sevgi" kitabı Azərbaycan, türk, ingilis və rus dillərindədir.

**XQ**

# Kahramanmaraşla bağlı saziş təsdiq edildi

**Dünən Sahibə Qafarovanın sədrliyi ilə Milli Məclisin payız sessiyasının növbəti plenar iclası keçirildi. Parlamentin Sədri ötən iclasdan qalmış məsələlərin müzakirəsinin davam etdirildiyini bildirdi.**




Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Tahir Mirkişili "Nağdsız hesablaşmalar haqqında", "Sığorta fəaliyyəti haqqında" və "Banklar haqqında" qanun layihələrini təqdim etdi. Komitə sədri Siyavuş Novruzov "Banklar haqqında" qanun layihəsinin müzakirəsi zamanı bank faiz dərəcələrinin yüksək olduğunu diqqətə çatdırdı. Dedi ki, kredit götürən şəxs ancaq kredit faizi ödəmək üçün çalışır. Bu da sonda bir sıra problemlərə gətirib çıxarır. Odur ki, bu məsələlər nəzərə alınmalı və bank kredit fazi dərəcələri aşağı endirilməlidir.

Deputat, həmçinin Bakı şəhərində valyutadəyişmə məntəqələrinin açılmasını təklif etdi. Bu gün valyutadəyişmə məntəqələrinin əsasən, banklar daxilində fəaliyyət göstərdiyini deyən S.Novruzov bazar və bayram günləri insanların və turistlərin valyuta dəyişməkdə çətinlik çəkdiklərini diqqətə çatdırdı. O, şəhərin müxtəlif yerlərində valyutadəyişmə məntəqlərinin açılmasını təklif etdi. Bunun həm də bank sektoru üçün faydalı olacağını bildirdi.

"Azərbaycan Respublikası Milli Məclisinin 2024-cü il üçün xərclər smetası haqqında" qərar layihəsi barədə parlamentin İşlər idarəsinin müdiri Firudin Hacıyev məlumat verdi. Qeyd etdi ki, Milli Məclisin 2024-cü il üçün xərclər smetası üçün 50 milyon 919 min manat vəsait ayrılması təklif olunur. Onun sözlərinə görə, sözügedən vəsait Milli Məclis aparatının saxlanılması, xarici və daxili ezamiyyələr, yeni avadanlıqların alınması, tədbirlərin keçirilməsinə və sair işlərin görülməsi üçün nəzərdə tutulur.

Prezident İlham Əliyevin məktubu ilə Milli Məclisə daxil olmuş "Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında Türkiyə Respublikasının Kahramanmaraş vilayətində yaşayış binaları, ibtidai məktəb, uşaq bağçası və mədəniyyət mərkəzinin tikilməsi haqqında Əməkdaşlıq Sazişi"nin təsdiq edilməsi barədə qanun layihəsini parlamentin Mədəniyyət komitəsi sədrinin müavini Fazil Mustafa təqdim etdi. Saziş Azərbaycan tərəfinin 100 milyon ABŞ dolları sərf edərək yenidənqurma işlərini həyata keçirilməsini nəzərdə tutur.

Əməkdaşlıq sazişi çərçivəsində Türkiyənin Ətraf, Şəhərsalma və İqlim dəyişikliyi Nazirliyinin Mənzil İnkişaf İdarəsi (TOKİ), Azərbaycandan isə Mənzil İnşaatı Dövlət Agentliyi (MİDA) icraçı qurum qismində iştirak edəcək. Saziş 2023-cü il sentyabrın 25-də Naxçıvan şəhərində imzalanıb.

Azərbaycan Respublikası Hesablama Palatasının 2024-cü il üçün xərclər smetası haqqında qərarı layihəsinin təqdimatından sonra Milli Məclis öz işini başa çatdırdı.

***Əliqismət BƏDƏLOV***
***XQ***

# Daxili İşlər naziri Gəncədə



**Daxili İşlər naziri general-polkovnik Vilayət Eyvazov noyabrın 14-də və 15-də Gəncə Şəhər Baş Polis İdarəsində vətəndaşlarla görüşüb.**

Gəncə, Kəlbəcər, Xocalı, Goranboy, Samux, Göygöl, Naftalan və digər rayonlardan görüşə gələn 120 vətəndaşın müraciətini dinləyən nazir onların problemlərinin həlli üçün nazirliyin aidiyyəti baş idarə və idarə rəislərinə tapşırıqlar verib. Qaldırılan məsələlərin əksəriyyətinin yerində həlli ilə bağlı tədbirlər görülüb.

Səfər çərçivəsində general-polkovnik V.Eyvazov DİN Daxili Qoşunlarının Gəncədəki hərbi hissəsinə gedib, hərbi qulluqçuların xidmət və sosial-məişət şəraiti ilə maraqlanıb.

Hərbi hissənin qərargahında komandir heyəti ilə keçirilən əməliyyat müşavirəsində nazir hərbi qulluqçulara konkret tapşırıq və tövsiyələrini verərək qanunvericiliklə müəyyənləşdirilmiş vəzifə və tapşırıqların öhdəsindən bundan sonra da layiqincə gələcəklərinə əminliyini ifadə edib.

Bundan sonra general-polkovnik Vilayət Eyvazov polis orqanlarında xidmət etmək arzusunda olan gənclərin sıra baxışını keçirib.

Qırx beş Vətən müharibəsi iştirakçısının da qatıldığı sıra baxışında xidmətə qəbulun şərtlərinə uyğun gələn 225 nəfər seçim turunun növbəti mərhələsinə buraxılıb.

Sonda Daxili İşlər naziri general-polkovnik V.Eyvazov qeyd olunan rayonların polis rəislərinə ictimai asayişin qorunmasında, cinayətkarlığa qarşı mübarizədə daha səmərəli tədbirlərin tətbiqi, vətəndaşların müraciətlərinə operativ və obyektiv baxılmasına dair tapşırıqlarını verib.

***XQ***

# Növbəti abad həyət istifadəyə verilib

**Heydər Əliyev Fondunun vitse-prezidenti, "IDEA" İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyevanın təşəbbüsü ilə təmirə ehtiyacı olan həyətlərin abadlaşdırılmasına yönəlmiş "Bizim həyət" layihəsi çərçivəsində yenilənən növbəti həyət noyabrın 15-də sakinlərin istifadəsinə verilib.**





Yenilənmiş həyət Nəsimi rayonu, Hüseyn Bala Əliyev küçəsi 3, 5 və 7 ünvanında 700 nəfər sakinin yaşadığı çoxmərtəbəli binaları əhatə edir.

"Bizim həyət" layihəsinin əsas məqsədi ölkə ərazisində həyətlərin ekoloji cəhətdən təmizlənməsi və abadlaşdırılması, yaşıllıqların bərpası, sakinlər üçün təhlükəsiz və rahat yaşam şəraitinin yaradılmasıdır.

Həyətdə əlil və sağlamlıq imkanları məhdud insanların rahat hərəkəti nəzərə alınıb, bütün yaş qrupları üzrə uşaqların inkişafı üçün əlverişli şəraitin təmin olunması, gənclərin asudə vaxtlarının səmərəli keçirmələri məqsədilə ərazidə süni örtüklü mini futbol stadionu, müxtəlif idman qurğuları, uşaq meydançaları salınıb. Həmçinin 950 ədəd müxtəlif növ ağaclar, 8300 ədəd kol və 3000 ədəd mövsümi güllər əkilib, 3000 kvadratmetr ərazidə yaşıllıq zolağı salınıb.

**XQ**

# Böyük qayıdışın Laçın qaranquşu

(əvvəli 1-ci səhifədə)

Nə köçkünlükdən qabaq, nə də uzun didərginlik dövründə belə şəraitimiz olub. 31 il əvvəl qoyub getdiyimiz evimizin təkcə daşı-divarı yerində imiş. Bu gözəlliyi, rahatlığı qısa müddətdə təmir-bərpa işi görən Bakı və Laçın abadlıq xidmətinin əməkdaşları yaradıblar. Əlləri-qolları var olsun!

Gördüyünüz kimi, ölkə rəhbərliyi bizi hərtərəfli qayğı ilə əhatə eləyib. Mənfur işğalçıların izi-tozu da qalmayıb buralarda. Atalar düz deyiblər ki, haqq nazilər, amma üzülməz. Budur, doğma yurdda, öz yuvamızda şad-xürrəm yaşayırıq. Özüm də, həyat yoldaşım da işlə təmin olunmuşuq. Uşaqlarımız yenidən qurulan məktəbdə oxuyurlar. Onları dərsə xüsusi xidmət avtobusu aparıb-gətirir. Bu günlərdə qazımızı da qoşublar. Havalar da hələ soyumayıb, bəxtimizdən, elə bil, yaz qayıdıb.



Elə bu vaxt yaşlı bir qadın bayıra çıxır. Gündüz deyir ki, anamdır. Zarafata salıb bildirir ki, adı da İpəkdir. Köçkünlükdə cod bezə dönmüşdü, indi yenidən ipək kimi yumşalıb. Anam cənnəti bu dünyada qazandı, çox yaşlılarımıza isə bu günü görmək qismət olmadı:

– Gəl ana, sevincini-razılığını bildirməyə, Prezidentimizə ürək sözlərini çatdırmağa adam axtarırdın. Müxbirlər öz ayaqları ilə gəlib çıxıblar.

– Xoş gəlmisiniz, ay balalarım. Gedin deyin, yazın ki, laçınlılar gecə-gündüz yurdumuzu bizə qaytaran qeyrətli, qəhrəman Prezidentimiz İlham Əliyevə duaçıdırlar. Televiziya ilə baxıb dünyandan xəbər tuturuq. Heç bir ölkədə belə ağıllı rəhbər, bu qədər xalq qayğısı çəkən başçı yoxdur. Deyərdi ki, torpağı almışıq gedin necə istəyirsiniz tikin, yaşayın. Amma Prezidentimiz bilirdi ki, bizim o imkanımız yoxdur. Odur ki, Laçını başdan-başa abadlaşdırdıb, sonra bizi rahat maşınlara əyləşdirib, çal-çağırla yola saldırırıb, keçmişdə bəy-xanların belə görmədiyi mülklərə gətirdib.

Bu il mayın 28-dən doğma ocağımızın başındayıq. Şükür ki, 31 illik ayrılığa son qoyuldu. Neçə ildə üzümüz gülməmişdi. Yurda qovuşmaq bir ayrı aləmdir, ay bala. Allah kömək olsun bizə bu sevinci bəxş edənlərə! İnanıram ki, başqa köçkünlər də bax beləcə yurdlarına qayıdıb xoş günlər görəcək, yurd həsrətinin ağrı-acısından birdəfəlik qurtaracaqlar. Bunun üçün Prezidentimizə möhkəm can sağlığı, uzundan-uzun ömür arzulayıram.

76 yaşlı İpək nənədən və oğlu Gündüzdən ayrılmaq istəyəndə evin yan tərəfindəki köşkdə ılıq payız günəşi altında dərslərini hazırlayan 3 balaca qızı gördük. Həyətdəki gül-çiçəklərin yaratdığı gözəlliyi bir az artıran bu gül balalarla söhbətə arxa tərəfdəki iri fotokompozisiyanı göstərməklə başladıq:

**– Uşaqlar, arxada gördüyünüz o böyük kub nədir?**

Qızlardan dilli-dilavər olan böyüyü dilləndi:

– Dünya uşaqlarının şəkilləridir. Reza dayı çəkib, bizim şəkillərimiz də oradadır. Reza dayı bizə dedi ki, bu şəkilləri bir yerə yığıb bütün dünyaya demək istəyir ki, bir də uşaqlar müharibə görməsinlər, evlərindən uzaq düşməsinlər, ağlamasınlar.



**– Siz əvvəl Laçını görməmisiniz, başqa yerlərdə dünyaya göz açmızsınız, burada darıxmırsınız ki?**

– İpək nənə, ata-anamız bizə Laçın barədə o qədər danışmışdı ki, bu yeri görmək bizim də ən böyük arzumuz olmuşdu. Azərbaycan bizim böyük, Laçın isə kiçik Vətənimizdir. Buradakı məktəbimiz də çox gözəldir. Müəllimlərimizin də bir neçəsi bizimlə gəlib. Şəhər yaraşıqlı, sevimlidir. Hər gün çoxlu qonaq gəlir. Heç Bakıda bu qədər xarici, tanınmış adam görməmişdik. Tez-tez bayramlar keçirilir. Zəfər bayramında mən də şəhidlər barədə şeir söylədim. Belə yerdə darıxmaq olarmı?

**"Böyüyəndə hansı sənəti seçəcəksiniz?"** sualımıza cavablarında qızlar dedilər ki, artıq kim olacaqlarını yəqin ediblər. İkisi söylədi ki, həkim olub şəhərdəki xəstəxanada işləmək arzusundadırlar. Biri isə bildirdi ki, memar olacaq, gəlib Laçını daha da gözəlləşdirəcək, genişləndirəcək, yeni müəssisələr tikəcək.

– "Uğur olsun, uşaqlar!" – deyib Təhməzovlar ailəsindən ayrıldıq.

## Vətənə gəldim – imana gəldim

**Laçına isti nəfəsləri ilə yeni həyat verənlərdən biri də Natiq Abbasovdur. Onunla qonşusu Zülfüqar kişigilin həyətində görüşdük. Sevincindən hədsiz həyəcanlanmışdı, bilmirdi nədən başlasın. Soruşduq ki, Laçından çıxanda neçə yaşı var idi:**

– Mən Laçından od-alov içində, yük maşınına yığılmış yorğan-döşəyin üstündə çıxanda 14 yaşım var idi. Ötən 31 ildə hər yuxudan duranda, hər gözümü yumub yatanda o mənzərəni görürdüm. Birdən elə bilirdim ki, bu dəqiqə düşmən gülləsi mənə dəyəcək... Laçın geri alınandan sonra o əzablı hissiyatım bitib. Şəhərə qayıdıb burada məskunlaşandan sonra isə az qalıram ki, çıxam Hoçazdağın başına, üzüaşağı uçam. Yaxşı deyiblər ki, Vətənə gəldim – imana gəldim.



Şəhərdə düşmən bizim evi də yararsız hala salıbmış. Şəklini görəndə inana bilmədik ki, onun yerində belə bir gözəl ev yaratmaq olar. Amma bu gerçəkdir, özü də bu evlərin hamısı Prezidentimizin göstərişi ilə tikilib, təmir olunub. Dövlət başçısından mənzil hədiyyə almaq xoşbəxtlikdir.

Bu ətrafdakı qonşuların kimisi yeni yaradılan mebel fabrikində, kimi balıqçılıq təsərrüfatında, kimi də aqroparkda işlə təmin olunub. Mən özüm "Bakı Abadlıq Xidməti" MMC-nin nəzdindəki "Laçın Abadlıq Xidməti" İdarəsində elektrik peşəsində çalışıram. Suyumuz var, işığımız daimidir, noyabrın 9-dan qaz xəttinin çəkilişi başa çatıb. Ölkə başçısının tapşırığı ilə burada bütün istiqamətlərdə işlər aparılır, insanların rahatlığı üçün hər cür şərait yaradılır.

**Ağsaqqal Zülfüqar Babayev də söhbətə qoşularaq 31 ildən sonra yenidən Laçına qayıtmağın sözlə ifadə edilə bilməyəcək dərin duyğular oyatdığını dedi:**

– Laçın unudula bilməyən xatirə idi. İndi isə inanılmaz bir gerçəyə çevrilib. Həkəri çayı, sahil parkı, abad küçələr, dağ ətəkləri, məktəb, xəstəxana və sair göz-könül oxşayır. Avqustda Laçın Günü Prezidentimizin və ailəsinin iştirakı ilə qeyd edildi. Bu, artıq ikiqat bayram oldu. Xoşbəxtəm ki, uzun illərdən sonra doğma yurduma qovuşdum. Buna görə Prezident İlham Əliyevə və onun rəşadətli Ordusuna ailəlikcə minnətdarıq. Bizə bu sevinci yaşadan şəhidlərimizə, qazilərimizə borcluyuq.

Sakinlərin yüksəksürətli internetlə təminatını öz öhdəsinə götürən "Aztelekom" MMC qısa müddətdə bu işin öhdəsindən gəlməkdədir. Artıq, demək olar ki, bütün evlərdə yüksək texnologiyalı şəbəkə quraşdırılıb. Bütün bu gözəlliklərdən Bakıdakı dostlarımızın da zövq alması üçün Laçının əsrarəngiz mənzərələrinin şəkil və videolarını çəkib onlara göndəririk. Xoşbəxtəm ki, doğma Laçının havası ilə nəfəs alıram.



**Həyətlərin birində söhbətləşdiyimiz Yaşar Fətəliyev və anası Nərgiz xalanın da sonsuz sevincinin, hədsiz şükranlığının şahidi olduq.**

Nərgiz xala dedi ki, Prezident İlham Əliyev nəinki onlara belə bir şərait yaradıb, həm də gəlib şəraitləri, güzəranları ilə yerində yaxından tanış olur, hər şeyin daha yaxşı olması üçün yeni tapşırıqlar verir. O, torpaqlarımızı geri qaytarmış şəhidlərimizin ruhuna dualar, onların analarına təsəlli dilədi. Yaşar isə dedi ki, işğaldan əvvəl Laçın yarışəhər, yarıkənd olub. Həyətlərdə heyvan, toyuq-cücə də saxlanıb. Daha o həyata qayıtmaq mümkün deyil. Belə bir müasir şəhəri qorumaq, gözəlləşdirmək üçün yalnız irəli baxmaq lazımdır.

Laçınla tanışlıq zamanı söhbətləşdiyimiz hər kəs və hamı yenidən qurulan və abadlaşan Laçın şəhəri ilə fəxr etdiklərini, bu işlərdə yaxından iştirakçı olmaqdan qürur duyduqlarını söylədilər. Xüsusi vurğuladılar ki, müasir üslubda bərpa olunmuş evlərdə və həyətlərdə hər şey onların rahatlığına xidmət edir. Onlar hələ də avqustun son həftəsində Laçın Şəhər Günü ilə əlaqədar keçirilən zəngin proqramlı bayram təntənələrinin təəssüratı altında olduqlarını qeyd etdilər. Prezident İlham Əliyevin oradakı çıxışının və xoş arzularının təsiri altında olduqlarını fərəhlə bildirdilər.

## Şəhərin baş qərargahında

**Hava qaraldığından şəhərlə tanışlığı dayandırıb Laçının baş qərargahı sayılan Şərqi Zəngəzur İqtisadi Zonası 2 saylı Bərpa-Tikinti və İdarəetmə Xidmətinin ofisini soraqlayıb ikimərtəbəli bir binanın qarşısına gəldik.**

Qarşımızda dayanan mikroavtobusdan düşən firma geyimlilərin inşaatçılar olduğunu zənn edib onlara yaxınlaşdıq. Məlum oldu ki, bu gənclər ölkənin müxtəlif bölgələrindən gəlmiş ayrı-ayrı peşə sahibləridir. Dedilər ki, buraya məhz Laçının bərpasına öz köməklərini vermək üçün gəliblər. Vətən müharibəsində döyüşmək onlara nəsib olmasa da, indi düşməndən azad edilmiş ərazidə quruculuq cəbhəsində çalışmaqdan çox məmnundurlar.

İdarənin I mərtəbəsində yerləşən camaşırxanaya səhər yataq dəstlərini yumağa vermiş qrup rəhbəri iri bağlamanı geri alandan sonra onlar məskunlaşdıqları ünvana getdilər. Arxa tərəfdən ikinci mərtəbəyə qalxıb böyük bir otağa daxil olduq. Konfrans salonuna bənzəyən bu ümumi otaqda, təxminən, bir saat əvvəl müsahibimiz olmuş idarə rəisi müavini Elnur Abdullayev bizi səmimi qarşılayıb digər 3 memar-inşaatçı həmkarı ilə tanış etdi. 2 saylı Bərpa-Tikinti ərazisində məşləhətçi olan Fariz İsmayılov, Qalib Abasov və İlqar Abdullayevlə ilk dəqiqələrdən söhbətimiz elə tutdu ki, çay süfrəsi arxasında illərin dostları kimi axşamdan xeyli keçənədək söhbətləşdik. Əsas mövzumuz Laçının belə görünməmiş sürətlə dirçəldilməsi oldu.



Müsahiblərimiz özləri də etiraf etdilər ki, əvvəl çalışdıqları müxtəlif yerlərdə belə intizam, yüksək təchizat və yurd sevgisi ilə rastlaşmayıblar. Prezident İlham Əliyev Vətən müharibəsini hansı mütəşəkkillik və qətiyyətlə aparmışdısa, Laçının, eləcə də digər bölgələrin bərpasını da eyni intizam və ruh yüksəkliyi ilə təşkil edib.

**Bərpa-tikinti işlərinin keyfiyyəti ilə bağlı sualımızın cavabında təzə dostlarımız bildirdilər ki,** indiyədək sakinlərdən elə bir narazılıq eşitməyiblər. Amma nəyisə öz arzusunca qurdurmaq, dəyişdirmək istəyən olanda onlara dərhal kömək göstərilir.



**"Şəhəri tərk edən, ölkənin daha qaynar həyatı üçün darıxanlar olurmu?"** sualımızın cavabında isə bildirildi ki, elə Laçının özündə də həyat kifayət qədər qaynardır. Hər cür xidmət qurulub, digər şəhərlərdəki rahatlıqlar burada da var. Bir neçə supermarket açılıb. Piştaxtalar doludur, qiymətlər kənar yerlərdəki kimidir. Köçkünlük dövründə kənar bölgələrlə qohum olanlar, hansısa ehtiyacını ödəmək istəyənlər bir neçə günlüyə şəhəri tərk edə bilər. Amma kimsə buranı bəyənməsin – bu, mümkün deyil.

Laçınlılar yurda iməkləyib dönməyə də, yıxılmış evinin yerində çadırda yaşamağa da razı idilər. İndi necə ola bilər onlar geri dönmək fikrinə düşsünlər. Bugünlərdə şəhərdə keçmiş kinoteatr müasir konsert, toplantı salonu kimi təmir edilib istifadəyə verilib. Laçının öz teatrı da yaradılır. İncəsənət kollektivləri tez-tez qonaq gəlir. Əyləncə və istirahət sarıdan narazılıq yoxdur. Şəhər tam məskunlaşandan sonra isə mədəni həyat daha da canlanacaq.

Qeyd edildi ki, sakinlərin arzu-istəkləri, rəy-təklifləri diqqətdə saxlanılır, xırda-para problem olanda tez yoluna qoyulur. Hələlik, adamlar ölkənin başqa yerlərinə getmək üçün yol sarıdan müəyyən əziyyət çəkirlər. Yeni müasir yolların çəkilişi tamamlanmaq üzrədir. Ondan sonra səhər Laçından çıxıb hansısa uzaq bölgəyə gedənlər axşam öz evlərinə dönə biləcəklər.

## Ünvanına qayıdan məktəb

Gecələdiyimiz istirahət zonasındakı kottecdən ayrılıb Bakıya dönməyə hazırlaşanda uşaqları məktəbə aparan avtobus yanımızdan ötüb keçdi. Dərhal maşının arxasına düşüb şəhərin yuxarı məhəlləsindəki 2 saylı Laçın şəhət tam orta məktəbinə gəldik.

Burada dünən uşaqların söylədiklərinin şahidi olduq. İşğaldan əvvəl tikilmiş bu təhsil ocağı nəinki Bakıdakı ən müasir orta məktəblərdən, qocaman ali təhsil ocaqlarından da abad və yaraşıqlıdır.

**Direktor Sevinc Cabbarova bu təəssüratımıza cavab olaraq bildirdi:**

– Laçın düşmən qapısıdır. Onu alınmaz qalaya çevirmək üçün insanlar bu yerə möhkəm və birdəfəlik bağlanmalıdırlar. Ona görə də Prezident İlham Əliyev göstəriş verib ki, şəhərdə hər şey ölkənin başqa yerlərindəkindən də üstün olsun. Laçın belə yüksək tələblə də qurulur.

Mən bu məktəbin məzunu olmuşam. İşğaldan sonra dövlətimizin himayəsi ilə məktəbimizi Bakıda yaşatdıq. 2 müəllim yoldaşım da mənimlə bərabər şəhərə qayıdıb. Digər yerlərdəki həmkarlarımız da artıq sıramızdadırlar. Bizim borcumuz Prezidentimiz İlham Əliyevə layiqli əsgər olacaq, Laçını bu dağlar qədər yüksək mərtəbəyə yüksəldəcək, eləcə də Azərbaycanı dünyada tanıdacaq nəsil yetişdirməkdir.

Biz isə xatırlatdıq ki, Ulu öndər Heydər Əliyev təhsili millətin gələcəyini formalaşdıran ən yüksək fəaliyyət sahəsi kimi dəyərləndirmişdi. Laçından da bu həqiqətə dərin inamla ayrıldıq. Arzu edirik ki, Laçın məktəbləri elə zəkalı və qeyrətli nəsil yetişdirsin ki, düşmən bir də bu insanların üstünə yeriməyə, onların torpaqlarını tapdalayıb murdarlamağa cəsarət etməsin.

Son olaraq deyirik: laçınlılar, sizin yurd sevginiz, bu yerdə möhkəm, əbədi məskunlaşmağınız şəhidlərimizin ruhuna ən yüksək rəhmətdir. Laçını xalqımıza qaytarmış Prezident İlham Əliyev də düşmənlərimizə bu mesajı verdi: Biz bu torpağı şəhidlərimizin qanı bahasına özümüzə qaytarmışıq. Biz burada əbədi və alnıaçıq yaşayacağıq.

**Tahir AYDINOĞLU,**
**ƏLİ NƏCƏFXANLI,**
**Səbuhi MƏMMƏDOV**
**XQ**

**Bakı–Laçın–Bakı**

# Qərbin “öz yaramaz oğlumuz” siyasəti davam edir

## Paşinyan iqtidarının zorakılıqlarına yanaşma Samosa rejiminə münasibətdən heç nə ilə fərqlənmir




**Siyasi leksikonda özünə geniş yer tapmış belə bir məşhur ifadə var: “Bəli, Samosa yaramaz oğludur, amma öz yaramaz oğlumuzdur”. Həmin ifadənin kobud səslənən forması daha yayğındır və onun ABŞ-ın 32-ci prezidenti Franklin Ruzveltə məxsus olduğu bildirilir. Ruzvelt Vaşinqtonun 1930-cu illərin sonlarında fəal şəkildə dəstəklədiyi Nikaraqua diktatoru Anastasio Somosanı belə xarakterizə edib. Hər iki lider 1939-cu ildə görüşsələr də, haqqında söz açdığımız deyim barədə ilk qeyd yalnız 10 il sonra ortaya çıxıb. “Time” jurnalında dərc olunmuş imzasız məqalədə müəllif birbaşa ABŞ Prezidentindən “yaramaz oğlu” barədə sitat gətirib.**

Yazımızı belə başlamağımız heç də təsadüfi deyil. Üzərindən az qala bir əsrə yaxın zaman ötsə də, ABŞ-ın, bütövlükdə Qərbin yanaşması, dəst-xətti dəyişməyib. Dünyanın müxtəlif dövlətlərindəki hakimiyyətləri “özlərininkinə və özgələrə” bölmək siyasəti bu gün də tam axarındadır. Lokal maraqları təmin edən, deyilənlərlə oturub-duran, Qərbin timsalında özünə hami axtaran rejimlərə “gözün üstündə qaşın var” deyilmir. Müstəqil siyasət yürüdən, özünün milli maraqlarını hər şeydən üstün tutan, yalnız öz xalqına arxalanan hakimiyyətləri isə necə deyərlər, gözümçıxdıya salmağa çalışırlar. Qərbin məlum siyasəti haqlı olaraq ikili standartlar siyasəti adlanır. Bu siyasətdə marionet rejimlərdə yaşanan və son nəticədə bəlli mənafeləri təmin edən istənilən konfliktə, qalmaqallı hadisəyə göz yummaq, müstəqil dövlətlərdə baş verən ən kiçik insidentləri şişirtmək xətti başlıca yer tutur. Necə deyərlər, qarışqadan fil düzəldilir. Birinci epizoda ən bariz nümunə Ermənistandakı hazırkı Nikol Paşinyan rejimidir.

2018-ci ilin mayında Qərbin hərtərəfli dəstəyi ilə baş verən “rəngli inqilab” nəticəsində hakimiyyətə yiyələnmiş Paşinyan ölkəni sərt üsullarla idarə edir. Avropa paytaxtlarında “demokrat” imici ilə bəh-bəhlə qarşılanan, özü vaxtilə jurnalist olan Paşinyan istənilən əks fikri boğmağa çalışır. Bunu Ermənistanın müstəqil mediasına azacıq nəzər salanda da görmək mümkündür. Amma Qərb ölkələrinin hökumətləri və təzyiq aləti funksiyası daşıyan müxtəlif institutları özlərini görməzliyə vururlar. Nə “Amnesty International”ın, nə “Human Rights Watch”ın, nə də “Freedom House”un səsi-sorağı çıxmır. Halbuki, müxtəlif məlumatlara görə, hazırda Ermənistanda siyasi motivlərlə 50-dən çox şəxs həbsdədir. Paşinyan siyasi rəqibləri olan keçmiş hakimiyyətin bir çox nümayəndələrini dəmir barmaqlıqlar arxasında, necə deyərlər, çürüdür. Qərbdəki təşkilatların səslərinin eşidilməməsinə baxmayaraq, Ermənistan daxilindəki əksər hüquq müdafiəçiləri onları siyasi məhbus adlandırırlar.

Ermənistanda hökumət əleyhinə vaxtaşırı baş qaldıran etiraz aksiyaları müxtəlif zorakı üsullarla dağıdılır. Sonuncu zorakılıq və kütləvi həbslər sentyabrın sonlarında baş verib. Məlumdur ki, Azərbaycan Ordusunun sentyabrın 19–20-də ölkəmizin Qarabağ iqtisadi rayonunun separatçı xunta rejiminin nəzarətində olan ərazilərində keçirdiyi lokal xarakterli antiterror tədbirləri İrəvanda etiraz aksiyalarının keçirilməsi ilə müşayiət olunmuşdu. Həmin etiraz aksiyaları zamanı həbs olunanlar hələ də azadlığa buraxılmayıblar. Söhbət 18–25 yaş arasında olan 44 gəncdən gedir. Bu yaxınlarda “Qolos Armenii” qəzetində dərc olunmuş yazıda qeyd edilirdi ki, onların əksəriyyəti son ay yarım ərzində tədris prosesindən xeyli geri qalan tələbələrdir. Vəkil Ovanes Xudoyan bildirmişdi ki, əgər bu həbslər 5 il əvvəl baş versəydi, “vətəndaş cəmiyyəti” adlanan təbəqənin nümayəndələri bütün dünyada hay-küy salardılar. Bu gün isə erməni cəmiyyəti susur: “Yüzlərlə həmyaşıdları arasında bu 44 fəal sentyabrın 19-da hökumət binası yaxınlığında keçirilən mitinqdə, eləcə də sonrakı günlərdə küçələrin blokadaya alınmasında iştirak etdiklərinə görə saxlanılıblar. Saxlanıldıqdan sonra barələrində həbs-qətimkan tədbiri seçilib və onlar hələ də həbsdədirlər”.

Ermənistanın İrəvan və Gümridən sonra üçüncü böyük şəhəri olan Vanadzorun (əvvəlki adı Qarakilsə – red.) meri seçilmiş Mamikon Aslanyan, generallar Qriqori Xaçaturov və Mikael Arzumanyan, sabiq müdafiə naziri David Tonoyan, sabiq elm və təhsil naziri, Respublika Partiyası sədrinin müavini Armen Aşotyan, “Facebook”da paylaşım etdiyinə görə həbsdə olan 34 yaşlı iki uşaq anası, Qarabağdan getmiş Tatev Virabyan hazırda İrəvanda siyasi motivlərlə həbs olunmuş şəxslərin siyahısına başçılıq edirlər. Ermənistanın ikinci prezidenti, Azərbaycana qarşı etnik təmizləmənin ən fəal iştirakçılarından olan Robert Koçaryanın oğlu da sentyabrın 22-dən həbsdə idi. Həmin gün hökumət əleyhinə keçirilən aksiyada saxlanılan və dörd polis əməkdaşı tərəfindən maşında döyülən və beyin silkələnməsi diaqnozu ilə xəstəxanaya yerləşdirilən Levon yalnız noyabrın 14-də müxalifətçi “Hayastan” fraksiyasının siyahısı üzrə parlamentin deputatı olması səbəbindən istintaq təcridxanasından qurtula bilib.

Bəli, Qərbin müxtəlif təsisatları Ermənistanda insan hüquqlarının pozulmasına göz yumsalar da, sıralarında “qoca qitə”nin 27 ölkəsindən 49 siyasi partiyanı birləşdirən, hazırda Avropa Parlamentində 178 deputat yerinə malik olmaqla, ən böyük və aparıcı partiya olan Avropa Xalq Partiyası (EPP) baş verənlərə səssiz qalmır. EPP noyabrın 14-də Ermənistan hakimiyyətini Respublika Partiyasının sədr müavini Armen Aşotyanı azad etməyə çağırıb. Respublika Partiyasının nümayəndəsi Ayk Mamicanyan “Facebook” səhifəsində yazıb ki, EPP Siyasi Assmbleyası Brüsseldə “Avropada artan avtokratiya kontekstində siyasi məhbuslara dəstək” adlı təcili qətnamə qəbul edib. Qətnamədə deyilir: “Biz kifayət qədər sübut olmadığı halda Ermənistan Respublika Partiyasının sədr müavini Armen Aşotyanın həbsdə saxlanılmasından çox narahatıq. O, iki aydan çoxdur ki, ailəsi ilə ünsiyyət qurmaq imkanından məhrumdur. Bundan əlavə, məhkəmə onun vəkillərinin zaminə, ev dustaqlığına və Beynəlxalq Mərkəzçi Demokratlar İttifaqının (CDI) tanınmış üzvlərinin zəmanəti ilə azadlığa buraxılması tələbini rədd edib”.

EPP həmin qətnamədə Ermənistan hakimiyyətini Armen Aşotyanı azad etməyə, ədalətli və şəffaf məhkəməyə zəmanət verməyə və hakimiyyətin əleyhdarlarına qarşı siyasi təqibləri dayandırmağa çağırıb.

Ermənistanda Paşinyana qarşı çıxan siyasi fəallar və vətəndaş cəmiyyəti nümayəndələri məhkəmə-hüquq sistemindən də narazılıq bildirirlər. General Qriqori Xaçaturovun vəkili Mihran Poqosyanın sosial şəbəkə hesabında “Məhkəmə sisteminin parlaqlığı və dəyərsizliyi...” sərlövhəsi ilə yazdıqları bu baxımdan maraq doğurur. Vəkil yazıb: “İki gün əvvəl Qriqori Xaçaturovun həbsi ilə bağlı 15 may 2023-cü il tarixli qərardan verilən şikayət üzrə Ermənistanın Korrupsiyaya Qarşı Mübarizə üzrə Apellyasiya Məhkəməsinin 20 sentyabr 2023-cü il tarixli qərarını aldıq. Bəli, bəli, düz oxudunuz, şikayət may ayında verilib, qərar sentyabrın 20-də çıxarılıb və noyabrda müdafiə tərəfinə verilib. Bu, Xaçaturovun hüquqlarının səmərəli məhkəmə müdafiəsi hüququnu bir daha pozub. Apellyasiya Məhkəməsi qeyd edib ki, Xaçaturov ədalətsiz olaraq “çirkli pulların yuyulmasında” ittiham edilib, lakin o, həbsdə qalmalıdır, çünki “belə də olmalıdır”.

Vəkilin yazdığı bu cümlələr “demokratik” Ermənistanda insan haqlarının gerçək vəziyyətinin necə olduğunu əyani əks etdirir. Ancaq Qərb ölkələri Paşinyan rejiminə “müqəddəs” kimi yanaşmaqdan əl çəkmirlər. Bu isə yazımızın girişində qeyd etdiyimiz kimi, “öz yaramazımız” siyasətindən irəli gəlir.

***Səxavət HƏMİD***
***XQ***

### Ekspert rəyi



**Yeganə HACIYEVA, politoloq**

– Ermənistan hər il müxtəlif ölkələrdən və beynəlxalq təşkilatlardan demokratik dəyərlərin təbliği üçün külli miqdarda pul alır. Məsələn, hər il ABŞ Konqresi Ermənistana “demokratik tərəqqi yolunda irəliləməsi və demokratik institutların qurulması” məqsədilə çoxmilyonluq yardım ayırır. İrəvanın bu məqsədlə yardım aldığı qurumların siyahısına Avropa İttifaqı da daxildir. Paşınyanın baş nazirliyi dövründə həmin yardımlar astronomik həddə çatıb. Paşinyan və onun komandası haqqında demokrat və ya demokratik dəyərlərə sadiq komanda fikrinin özü gülüncdür. Küçə iğtişaşları ilə hakimiyyətə gəlmiş Paşinyan hüquqi dövlətin idarəetmə prinsipinin nüvəsi olan siyasi plüralizmə zidd olaraq parlament fraksiyalarını seçkidə öz namizədini irəli sürməmək haqqında iltizam verməyə məcbur edib. Hakimiyyətinin ilk günlərindən həbslər və təzyiqlər vasitəsilə siyasi opponentlərini zərərsizləşdirmək siyasəti yürüdüb, onları həbs etməklə seçki marafonundan kənarlaşdırıb. Ölkədə korrupsiyaya qarşı mübarizə, yeni vergi islahatları adı altında rəqib siyasi qrupların iqtisadi dayaqlarını sıradan çıxardıb. Eyni zamanda, islahatlar adı altında ölkədə iqtisadi resursların və mülkiyyətin yeni və qanunsuz bölüşdürülməsi istiqamətində sistemli fəaliyyət qurub. Bütün bunlar keçmiş hakim klanın nüfuzlu iqtisadi və siyasi simalarını zərərsizləşdirməyə hesablanıb. Hər zaman ikili standartlar siyasəti yürüdən Qərbin yalnız onun maraqlarına cavab verdiyi üçün belə bir şəxsi dəstəkləməsi təəssüf doğursa da, təəccüblü deyil.

# Lindsi Snell Azərbaycandan niyə əl çəkmir?



(əvvəli 1-ci səhifədə)

Gah bizim bu və ya digər addımımıza özünəməxsus, qərəzli şərh verir, gah da bu və ya digər Qərb KİV-ində Azərbaycanla bağlı verilmiş yazıları, bəzən hətta reklamları lağa qoyur. Yəqin ki, bu, heç də təkcə yorulmaz-ərinməz xanımın erməni sevgisindən irəli gəlmir. Hesab edirik ki, onu və onun kimi bir çox qərbli media mənsublarını (və təkcə onlarımı) danışdıran erməni diasporunun gizli ianələridir.

Qəzetimizdə bu xanımın bəzi əməlləri haqqında əvvəllər də yazmışıq. Amma görürük ki, o, hələ də Azərbaycana düşmənçilik etməkdən usanmır. Sentyabrın 19-da ölkəmizin Qarabağda həyata keçirdiyi lokal xarakterli antiterror tədbirlərindən sonra bu xanım daha da fəallaşıb. Hər gün bir mesaj ataraq, Azərbaycana qara yaxmağa, ləkə vurmağa çalışır. Xanım Snell hətta ölkəmizin özünəməxsus təbii gözəlliklərini belə lağ obyektinə çevirməkdən çəkinməyərək, daxili aləminin nə qədər dərin çirkaba bulaşdığını büruzə verir. Məsələn, antiterror tədbirlərindən sonrakı günləri təsvir edərkən o, “nağılvari ağacları və aylı gecələri olan Azərbaycan”ın 100 min erməni “deportasiya etməsindən”, “soyqırıma məruz qoymasından” söz açır.

Amma son 30 illik dünya tarixi şahidlik edir ki, əsl deportasiyanı da, soyqırımı da həmnin illər ərzində məhz azərbaycanlılar yaşayıb. Onlar təkcə Ermənistandakı tarixi vətənlərindən deportasiya olunmayıblar. Həm də keçmiş Dağlıq Qarabağ ərazisindən və ətrafdakı 7 Azərbaycan rayonundan da qovularaq etnik təmizləməyə, Xocalıda, Qaradağlıda, Meşəlidə, Baçlıbeldə və digər ərazilərimizdə böyük soyqırım aktlarına məruz qalıblar. Bundan əlavə, 30 ilə qədər Ermənistanın işğalı altında qalmış aranlı-dağlı Qarabağ ərazilərində 1 milyona qədər azərbaycanlının yaşadığı evlər, kəndlər, şəhərlər daşına qədər sökülüb dağıdılaraq yer üzündən silinib.

Əlbəttə, bütün bunları xanım Snell də, bu gün erməni təəssübü altında çiyinləri əyilən Fransa da, digər qərbli “dostlarımız” da yaxşı bilirlər. Sadəcə, bu barədə danışmağı özlərinə rəva görmürlər. Niyə? İkili standartlara görə! Azərbaycanlıların xristian olmamasına görə. Vandal, vəhşi, qəddar, müsəlman düşməni, türk düşməni erməni isə qurban kimi göstərilir. Ermənistanın törətdiyi vandallıq, vəhşilik xanım Snellin və onun kimi ermənipərəstlərin ürəyindən olub. Çünki dağıdılan müsəlman irsi, evi, kəndi, şəhəri olub. Bu 30 ildə bir dəfə də olsun Ermənistana “dayan”, “dur” deyən olmayıb. Amma aranlı-dağlı Qarabağı viranəyə, Xirosimaya çevirərək Xankəndidən könüllü şəkildə köçən ermənilər “deportasiya, soyqırımı” qurbanı adlandırılır. Halbuki, onlar separatizm yuvasına çevirdikləri Azərbaycandan gül-çiçəklə yola salınıblar.

Xanım Snell “Euronews” və bəzi digər qəzetləri Azərbaycan haqqında yazılarına, hətta reklamlarına görə tənqid edir, lağa qoyur, Böyük Britaniyanın Azərbaycanla əməkdaşlığına kinayə edir. Bununla ürəyini soyuda bilməyən xanım Azərbaycanın xəritəsini qara, Ermənistanın xəritəsini isə qırmızı rəngdə özünün “X” hesabında yerləşdirir. Yəni, ucundan tutub ucuzluğa gedənə qədər Azərbaycanı təqib edir.

Bu xanımın tərcümeyi-halı da ziddiyyətlidir. O, gah Suriyada görünür, gah Türkiyə sərhədini qanunsuz keçərək casus kimi həbsə düşür, gah Azərbaycanda peyda olaraq məxfi hərbi məlumatlar toplamaqda şübhəli bilinir, gah da hicaba bürünərək özünü məsum müsəlman kimi təqdim etməyə çalışır. Əslində isə o, Ermənistanla sıx əməkdaşlıq edərək Azərbaycan və Türkiyə əleyhinə çoxşaxəli fəaliyyət göstərir. Sonuncu paylayımları da bunu sübut edir.

Təbii ki, biz bu cür atmacalara, hətta bundan da ağır təzyiqlərə, hədə-qorxulara rast gəlmişik. Bütün bunlara baxmayaraq, biz XXI əsrin müharibə nümunəsini yaradaraq dünyaya təqdim etmiş millətik. Biz nə 44 günlük müharibədə, nə də antiterror tədbirləri zamanı bir mülki şəxsin burnunun qanamasına yol verməmişik. Biz ədalətli müharibə aparmış, BMT TŞ-nin Azərbaycan ərazilərinin qeyd-şərtsiz boşaldılması ilə bağlı 4 qətnaməsini döyüş meydanında icra etmişik. Amma təəssüf, çox təəssüf ki, Lindse Snell kimi insan haqları, ədalət, həqiqət barədə yanlış təsəvvürə malik diletantların qınağı ilə üzləşmişik. Odur ki, belələrinə fikir veməmək kimi immunitetimiz yaranıb. Biz sabaha ümid və inamla addımlamaq istəyirik. Snell kimilər isə içlərinin çirkabını tökürlər. Qoy olsun!..

***Paşa ƏMİRCANOV***
***XQ***

# Avropa Şurası Konqresinin qərəzli mövqeyinə cavab

**Ədliyyə naziri Fikrət Məmmədov nazirliyin yerli özünüidarəetmə sahəsində əməkdaşlıq etdiyi Avropa Yerli və Regional Hakimiyyətlər Konqresinin yeni prezidenti Mark Kulsa müraciət ünvanlayıb.**

Qurumun Azərbaycanın Qarabağ bölgəsi ilə bağlı qəbul etdiyi bəyannamədə ölkəmizə qarşı əsassız ittihamlarından və qərəzli münasibətindən dərin təəssüf və kəskin etiraz ifadə olunub.

Bildirilib ki, Konqresin bu addımı onun nüfuzuna və etibarına xələl gətirməklə regionda davam edən sülh səylərinə ciddi ziyan vurur. Qəbul olunan bəyannamədə qanunsuz erməni silahlı birləşmələrinin təxribatlarına qarşı Azərbaycanın öz ərazilərində həyata keçirdiyi lokal xarakterli antiterror tədbirlərinin mahiyyəti və konteksti ciddi şəkildə təhrif edilib.

Eyni zamanda, birtərəfli şəkildə qəbul edilmiş sənəddə Azərbaycan hökumətinin yerli erməni sakinlərinin ehtiyaclarının tez bir zamanda ödənilməsi, dialoqun davam etdirilməsi və reinteqrasiya ilə bağlı gördüyü tədbirlər barədə heç nə deyilmir.

Ədliyyə naziri Azərbaycan tərəfinin Konqresdən obyektiv yanaşma gözlədiyini, belə bir mötəbər qurumun əsassız manipulyasiya xarakterli ittihamları təkrarlamaqdansa, öz səlahiyyətləri çərçivəsində bu məsələlərə lazımi diqqət yetirəcəyinə ümidvar olduğunu söyləyib. Qurumun yeni prezidentinin Konqresin siyasi məqsədlər üçün istifadə olunmasına imkan verməyəcəyinə inamını ifadə edib.

**XQ**

Günün mövzusu

# "Yadlar" gəlir, doğma olur...

## Söhbət övladlığa götürmənin ümummilli önəmindən gedir

**Valideyn olmaq – övlad dünyaya gətirmək, onun qayğısını çəkib böyütmək, cəmiyyətə layiq yetişdirmək həyat tələbatı olmaqla yanaşı, həm də cəmiyyət qarşısında müqəddəs bir borcdur. Bu xoşbəxtlik heç də hamıya nəsib olmur. İllərlə ana olmaq istəyilə müalicə, məsləhət alanlar, "qismət Allahdan"– deyib taleyilə barışan atalar da olur, ata-ana qayğısına möhtac "atılmış" uşaqları doğma övladı kimi qəbul edib böyüdənlər də. Yaşlandıqları vaxt onlara "1 stəkan su verən" axtaranlar bax beləcə uşaq evlərinə "atılmış" körpələri ailə tərbiyəsi, sevgi və mərhəmətlə böyüdür, ata-ana xoşbəxtliyinə qoşulurlar. Təəssüf ki, bu şərəfli zəhməti çəkməyib "yurdu boş qalanlar" da olur.**

Səməd Vurğun uşaqlarla bağlı yazırdı: "Dünya bir evdirsə, övlad işıqdır, Oğul arxadırsa, qız yaraşıqdır". Rus yazıçısı Fyodor Dostoyevski isə deyib ki, uşaqlar istənilən insanın ruhunu sağalda bilər. Bu mənada, ruhu sağlam olmaq üçün hər kəsin, ən azı, bir uşağa ehtiyacı var. Yəqin ki, imkanı olan hər kəs övladlığa bir uşaq götürüb ətrafı və özünü ruhən sağaltsa, cəmiyyət də sağlam olar. Azərbaycan dövləti bu məsələyə ümummilli önəm verərək övladlığa götürmənin sivil hüquqi bazasını formalaşdırıb.

Prezident İlham Əliyevin müvafiq fərmanı əsasında ölkəmizdə 1 noyabr 2019-cu ildən etibarən övladlığagötürmə sahəsində idarəetmə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə həvalə olunub. Bundan sonra "Valideyn-himayəsindən məhrum olmuş uşaqlar və övladlığagötürmə" altsistemi – bu sahədə yeni idarəetmə mexanizmi yaradılıb. Övladlığa uşaq götürmək istəyən valideyn–namizəddən onunla birgə yaşayan 18 yaşdan yuxarı şəxslərlə birlikdə notariat orqanında övladlığagötürmə ilə bağlı ərizə alınır. Təsdiq edilən ərizə Ədliyyə Nazirliyinin "Elektron notariat" informasiya sistemi vasitəsilə



altsistemə ötürülür, övladlığagötürmə ilə bağlı müraciət üçün "e-sosial.az" internet portalında qeydiyyatdan keçməklə şəxsi kabinet yaradılır. Xəstəliklərə dair (psixiatrın rəyi də daxil olmaqla) valideyn-namizədin əyani tibbi müayinəsi əsasında əldə edilən sənədləri altsistemə daxil edilir.

**Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Sosial Xidmətlər Agentliyinin sədri Vüqar Behbudov "Hansı ailələr övladlıga uşaq götürə bilər, kimlərin bu hüququ yoxdur?"– sualımızı belə cavablandırdı:**

– Hər iki cinsdən olan və qanunvericiliklə müəyyən edilən tələblərə cavab verən şəxs (şəxslər) övladlığa uşaq götürə bilər. Bir şərtlə ki, o, məhkəmə tərəfindən fəaliyyət qabiliyyəti olmayan və ya məhdud fəaliyyət qabiliyyətli hesab edilməsin. Bundan əlavə, valideynlik hüquqlarından məhrum olunmasın və ya bu hüquqları məhdudlaşdırılmasın. Qanunla üzərinə qoyulan vəzifəni yerinə yetirmədiyinə görə qəyyum və ya himayəçi vəzifələrindən kənarlaşdırılmış şəxslərə, əvvəllər məhkəmə tərəfindən təqsirkar bilinərək bu hüququ ləğv edilənlərə, səhhətinə görə valideyn vəzifələrini həyata keçirə bilməyənlərə də övladlığa uşaq verilmir.

Bundan başqa, məhkumluğun götürülməsi və ödənilməsi nəzərə alınmadan, sülh və insanlıq, ictimai təhlükəsizlik və mənəviyyat əleyhinə; həyat və sağlamlıq, şəxsiyyətin azadlığı və ləyaqəti, cinsi toxunulmazlığı və cinsi azadlığı əleyhinə; yetkinlik yaşına çatmayanlar və ailə münasibətləri əleyhinə qəsdən törədilən ağır və ya xüsusilə ağır cinayətlərə görə məhkum olunmuşlar və bu cinayətləri törətdiyinə görə cinayət təqibinə bəraətverici əsaslar olmadan xitam verilmiş şəxslər barəsində cinayət təqibi üzrə icraat aparılan şəxslər həmin müddətdə uşaq götürə bilməzlər.

Adambaşına düşən orta aylıq gəliri ailə üzvlərinin hər biri üçün (övladlığa götürüləcək uşaq da nəzərə alınmaqla) ölkə üzrə müəyyən olunmuş yaşayış minimumunun məbləğindən (Azərbaycan vətəndaşı olan uşaqları övladlığa götürmək istəyən əcnəbilər və vətəndaşlığı olmayan şəxslər üçün yaşadıqları ölkə üzrə orta aylıq əməkhaqqının 2 (iki) mislindən) az olan şəxslərə (ögey ata-ana və qohumları – bacı-qardaş, nənə-baba, valideynlərinin bacı - qardaşları, onların övladları istisna olmaqla) övladlığa uşaq verilməsi qadağandır.

Qeyd edək ki, aralarında nikah olmayan şəxslər də övladlığa uşaq götürə bilməzlər. Nikahda olmayan əcnəbilər və vətəndaşlığı olmayan şəxslərin də (qohumları – bacı-qardaş, nənə-baba, valideynlərinin bacı-qardaşları, onların övladları tərəfindən uşağın övladlığa götürülməsi istisna olmaqla) övladlığa uşaq götürməsinə yol verilmir. Azərbaycan Respublikası vətəndaşı olan uşağı övladlığa götürmək istəyən əcnəbilər və vətəndaşlığı olmayan şəxslərin mülkiyyətində, orada yaşayan hər bir şəxs nəzərə alınmaqla yerləşdiyi ölkənin müvafiq qanunvericiliyinə əsasən, minimum normadan az olmayan yaşayış sahəsi olmalıdır. Siyahısı müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən olunan övladlığagötürməyə, himayədar ailə olmağa, qəyyumluğa və himayəyə qəbul etməyə imkan verməyən xəstəlikləri olan şəxslər övladlığa uşaq götürə bilməzlər.

**– Uşaqlar hansı yaşdan övladlığa verilir?**

– Qanunvericiliyə əsasən, yalnız yetkinlik yaşına çatmayan uşaqlar övladlığa verilə bilər. Övladlığa verilən uşaqlar üçün minimum yaş həddi müəyyən olunmayıb. Bununla yanaşı, ögey ata və ana, habelə qohumları (bacı-qardaş, nənə-baba, valideynlərinin bacı-qardaşları, onların övladları) istisna olmaqla, övladlığa götürmək istəyən nikahda olmayan şəxslə (şəxslərlə) övladlığa götürülən uşağın yaş fərqi 18-dən az olmamalıdır.

**– Ötən illərdə uşaq götürəndən sonra peşman olub geri qaytaran olubmu? Nazirlik övladlığa uşaq götürən ailələrə necə nəzarət edir?**

– Səlahiyyət nazirliyə veriləndən – 2019-cu il noyabrın 1-dən etibarən övladlığa verilmiş uşaqlarla bağlı "övladlığa götürmənin ləğvi" üçün müraciət edən olmayıb. Agentlik tərəfindən övladlığa götürülən uşaq 18 yaşına çatanadək ailədəki vəziyyəti, əqli, fiziki və psixi sağlamlıq vəziyyətinin öyrənilməsi məqsədilə birinci ildə rübdə bir dəfə, növbəti illərdə, ən azı, ildə bir dəfə monitorinq aparılır.

**– İl ərzində, təxminən, neçə ailə övladlığa uşaq götürür?**

– Övladlığagötürmə zamanı uşaqların sayına məhdudiyyət qoyulmur. Ötən dövrdə 242 nəfəri oğlan, 236 nəfəri qız olmaqla 478, 2023-cü ildə isə 115 uşaq övladlığa verilib. İndiyədək övladlığa götürülən uşaqların 50,6 faizi qız, 49,4 faizi isə oğlan olub.

**– Uşaq götürən ailələrin məqsədi nədir? Düşünürlər ki, uşaq onların həyatına yeni bir məna gətirəcək, yoxsa biz yaşlananda qulluq edənimiz olsun?**



– Övladlığa götürmənin uşağın mənafeyinə uyğunluğunun müəyyən edilməsi məqsədilə müsahibə vasitəsilə valideyn – namizədlərin qiymətləndirilməsi həyata keçirilir. Bu zaman əsas tələblərdən biri onların maraqlarının müəyyənləşdirilməsidir. Həyata keçirilmiş müsahibələrə əsasən deyə bilərik ki, ailələrin aparıcı motivasiyaları uşaqsız ailənin natamam olmasını düşünmələri, gələcəkdə uşağın onlara dayaq və dəstək olması, qayğı göstərməsi, uşağın gəlməsi ilə ailə üzvlərinin ümumi emosional vəziyyətinin daha da yaxşılaşması, eyni zamanda valideyn himayəsindən məhrum olmuş bir uşağın ailədə böyüməsini təmin etməkdir.

**– Qəyyum ailələrə hər uşağa görə dövlət tərəfindən vəsait ödənilirmi?**

– Belə bir müavinət 2021-ci il yanvarın 1-dən sonra övladlığa götürülən uşaqlar üçün təyin edilib. Vəsait yalnız uşağın övladlığa götürülməsi haqqında 2021-ci il yanvarın 1-dən sonra məhkəmənin qətnaməsi təqdim edildikdə verilir. Övladlığa götürülən 3–18 yaş arası uşağa görə dövlət tərəfindən 200 manat, sağlamlıq imkanları məhdud 0–18 yaş arası uşağa görə isə 600 manat məbləğində müavinət müəyyən edilib.

Vüqar Behbudovun fikirlərinə onu da əlavə edək ki, Azərbaycanda sonsuzluqla bağlı problemlərin çoxalması səbəbindən övladlığa uşaq götürmək istəyən gənc ailələrin sayı artır. Təəssüf ki, əksər hallarda ailələr bu addıma "özgə uşağından övlad olmaz" düşüncəsi ilə yanaşır, daha çox dogma– yaxınlarının uşaqlarına üstünlük verirlər. Bundan əlavə, ailələr uşaq evlərində azyaşlıları götürməyə çalışırlar. Onlar uşağın yaddaşında keçmişi ilə bağlı heç bir xatirənin qalmamasını istəyirlər. Düşünmürlər ki, bəzən normal ailələrdə böyüyən uşaqlar belə, narkoman, cinayətkar ola bilir. Ona görə də onun neçə yaşda götürülməsinin, ya da qohum övladı olmasının uşağın gələcək həyatına o qədər də təsiri olmur.

Hər şey evə gələn "yad" uşağa veriləcək tərbiyədən, ona düzgün yanaşmadan, sevgi göstərib, ürəyini ələ almaqdan asılıdır. Uşağın evə bağlanması, ya da özünü "özgə" kimi hiss etməsi məhz bu münasibətə bağlıdır.

Dövlətin bütün uşaqlara eyni dərəcədə diqqət göstərməsi bəzən mümkün olmur. İsti yuvada, ata-ana qayğısı görmək isə dövlətin bütün qayğılarından daha önəmlidir. Uşağa isti münasibət göstərən, mərhəmətlə yanaşan, təbii ki, zaman-zaman bunun qarşılığını alır. Bunun üçün böyük auditoriyalarda maarifləndirmə həyata keçirilməlidir. Xüsusilə televiziya, radio, internet, sosial şəbəkələrdə bu mövzu müzakirə olunmalıdır. Psixoloq, sosioloq, hüquqşünas və pedaqoqlar övladlığa uşaq götürmək istəyən valideynlər üçün faydalı, asan yollar göstərməlidirlər.

***Redaksiyadan: XQ bu ümummilli önəm daşıyan mövzunu müxtəlif səpkili yazılarla davam etdirəcək. Ayrı-ayrı peşə sahiblərini, ictimai fəalları məsələnin daha dərindən araşdırılması üçün mülahizə və təkliflərini bildirməyə dəvət edirik.***

***Zərifə BƏŞİRQIZI***
***XQ***

16 Noyabr Beynəlxalq Tolerantlıq Günüdür

**Məqsədi dünyada hamını bir-birinə dözümlülük nümayiş etdirərək mehriban qonşular kimi yaşamağa çağırış olan bu gün 1995-ci ildə YUNESKO-nun 50 illiyi münasibətilə təsis edilib. Azərbaycanda isə ta qədimdən birgə yaşayan bütün millətlər, xalqlar, dinlərin nümayəndələrinin canına, qanına hopmuş tolerantlıq hamını mehriban bir ailə kimi birləşdirib.**

Dini və milli dözümlülüyün yüksək səviyyədə olduğu ölkəmizin dünyaya həm də tolerantlıq örnəyi olması qürur mənbəyimizdir. Ölkəmizin ağır günlərində xalqımızın dostluq və qardaşlığı bizi çətin sınaqlardan üzüağ çıxarıb. Ümummilli liderimiz Heydər Əliyevin ölkəmizdə tolerantlığın qorunub saxlanılması istiqamətində həyata keçirdiyi tədbirlər müxtəlif milli və mədəni dəyərlərin qovuşma müstəvisinə çevrilib, bu birlik və

# Tolerantlıq – Azərbaycanın böyük mənəvi sərvəti



qardaşlığı əbədi edib.

Tarixdə ən böyük Zəfərimizin qazanılmasında xalqımıza məxsus bu ali keyfiyyətlərin misilsiz rolu oldu. Azərbaycan Prezidenti, Ali Baş Komandanımız İlham Əliyev ölkəmizdə yaşayan bütün millətlərin, dini konfessiyaların nümayəndələrinin cəsarət göstərib, düşmənə qarşı vuruşaraq Azərbaycanın ərazi bütövlüyünü bərpa etdiklərini vurğulayıb. Dövlətimizin başçısı qeyd edib ki, bu, bizim böyük sərvətimizdir, böyük dəyərimizdir.

Bu həmrəylik dəmir yumruq kimi xalqın birlik simvoluna çevrildi. Monoetnik dövlət olan Ermənistanın mürtəce düşmən və işğalçılıq siyasəti nəticəsində ötən on illər xalqımızın olmazın işgəncə və soyqırımına məruz qalmasına baxmayaraq, düşmənə qarşı ləyaqətlə mübarizə aparıldı. Suverenliyimizin tam təmin edilməsi ilə nəticələnən 2023-cü ilin sentyabr ayının lokal antiterror tədbirləri zamanı Qarabağ bölgəsində yaşayan erməni əhali heç bir əziyyət çəkmədi, hətta dinc əhali müdafiə olundu. Bütün dünya niyyətimizin sülh, qarşılıqlı anlaşma və hörmət əsasında birgə həyat qurmaq olduğunu anlayır, təqdir edir. Təbii ki, erməni xalqı da ölkəmizdəki tolerant mühitdən bəhrələnib xoşbəxt həyat sürə bilər. Azərbaycanda bununla bağlı çoxlu nümunələr var.

**Raisa Salmanova isti ocağını Azərbaycanda – Bakıda tapanlardandır. Ölkəmizdə həmrəyliyin əsl birliyə çevrilməsinin gözəl nümunəsindən saatlarca bəhs etsə, yorulmaz. Atası rus, anası ukraynalı olan bu xanım özünü əsl azərbaycanlı sayır:**

– Körpəliyim İkinci Dünya müharibəsinin baş verdiyi ağır dövrə təsadüf edib. Atam və anam gənc yaşlarında işləməyə Azərbaycana gəlsələr də, burada həmişəlik qalmağa qərar veriblər. Ailədə 11 qardaş və 1 bacı olmuşuq. Yay tətilində 2 yaşda ikən anamla Ukraynaya istirahətə getdiyimiz zaman alman təyyarəsindən atılan bomba ailəmizə böyük facià yaşadıb. Oradan yalnız mən və böyük qardaşım sağ çıxa bilmişik. Böyük qardaşım isə 17 yaşında könüllü müharibəyə gedib və qara kağızı gəlib. İllər sonra atam məni körpələr evlərinin birindən tapıb. Müharibədən sonra ağır günlərimiz çox olsa da, bütün çətinliklərə birgə sinə gərmişik. Burada həmişə özümə qarşı xüsusi rəğbət hiss etmişəm. Rəfiqələrim məni çox əzizləyiblər. Heç kim xətrimə dəyməyib. Mən bu keyfiyyətlərin hər bir azərbaycanlıya məxsus olduğu qənaətindəyəm.

**İllər öncə şəmkirli gənclə ailə quran Raisa xanım 2 oğul, 1 qız, 6 nəvə sahibidir. Vətəni canından çox sevdiyini deyir:**

– Xalqımıza xor baxan düşmənin gözünü oymağa hazıram. Azərbaycanda heç bir ayrı-seçkilikdən söhbət gedə bilməz. Ayrı-ayrı millətlərin, dinlərin nümayəndələrinin hər birindən soruşun. Mənim kimi canına, qanına, iliyinə qədər azərbaycanlı olan bir insandan yox, elə yaxın aylarda Vətənimizə gəlmiş digər millətlərin nümayəndələrindən soruşun. Hamı bunu təsdiq edər. 82 yaşım var. Anam da, atam da müqəddəs Azərbaycan torpağında uyuyurlar. Ömür-gün yoldaşımla 62 ildir ki, həyatın acısını da, şirinini də birgə dadırıq. Azərbaycanda yaşadığım üçün xoşbəxtəm.

**Dünyanın hər üzünü görmüş daha bir xanımla həmsöhbət olduq. "Novruz" qadın qrupunun rəhbəri, ictimai fəal, Balakənin Qaysa kənd sakini Meysarat Qaysayeva milliyyətcə avardır, ixtisasca rus dili müəllimidir, 73 yaşı var. Övladlarından 2 oğlu rus, qızı Azərbaycan dilində təhsil alıb. Meysarat Qaysayeva deyir:**

–Elimizə, obamıza, torpağımıza çox bağlıyıq. 8 nəvəm böyüyür, hər biri Vətənə, yurda böyük sevgi ilə yetişir. Müxtəlif millətlərin, etnosların, fərqli dinlərin nümayəndələrinin həmrəyliyinin Azərbaycan nümunəsi dünya üçün gözəl örnəkdir. Ölkəmizdə bütün xalqlara məxsus olan adət-ənənələrin yaşaması, inkişaf etdirilməsi üçün gözəl mühit var. 2014-cü ildə avar folkloru, rəqsləri və musiqisini yaşadan, onu inkişaf etdirən "Xalq kollektivi" yaratmışıq. Bu kollektiv Şuşada "Xarı bülbül" festivalında və digər tədbirlərdə uğurla təmsil olunub, mədəniyyətimizi yaşadır.

Bəli, dünyanın qan çanağına dönməsinə, saysız-hesabsız müharibə ocaqlarının yaranmasına səbəb məhz milli və dini dözümsüzlük, ayrı-seçkilik hallarıdır. Biz isə, doğrudan da şanslıyıq ki, dünyaya birlik örnəyi olan Azərbaycanda yaşayırıq.

***Leyla QURBANOVA***
***XQ***

## Sosial xəbərlər

### Əmək müqavilələrinin sayı 1 milyon 791 minə çatıb

**Məşğulluq imkanlarının artırılması, qeyri-rəsmi məşğulluğun leqallaşdırılması istiqamətində görülən kompleks tədbirlər bu il də əmək müqavilələrinin sayında artıma imkan verib.**




2023-cü ilin yanvar – oktyabr aylarında ölkəmizdə əmək müqavilələrinin sayı ilin əvvəlinə nisbətən 44,5 min müqavilə artaraq 1 milyon 791 minə çatıb.

Əməkhaqqı islahatları, əmək müqavilələrinin sayında artım əməkhaqqı fondunda da davamlı artımla nəticələnir. Otən 10 ayda əməkhaqqı fondunda daha 13 faiz artım qeydə alınıb. Ümumilikdə, son 5 ildə əmək müqavilələrinin sayında 35 faiz, əməkhaqqı fondunda isə 2,6 dəfə artım baş verib.

### Elektron xidmətlərə 15,5 milyon müraciət

**Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin fəaliyyət sahələri üzrə əhaliyə təqdim olunan e - xidmətlərə bu ilin 10 ayında 15,5 milyon müraciət qeydə alınıb.**

Ölkənin sosial reyestri olan e-sosial.az portalından həmin dövrdə 6,7 milyon dəfə istifadə olunub. Sosial ödənişlər üzrə 198 min təyinat e-infrastruktur üzərindən, proaktiv qaydada həyata keçirilib, nazirliyin fəaliyyət sahələrinə dair 319 min e-arayış verilib.

Hazırda nazirliyin e-sistemlərinin 80-dək qurumun informasiya bazaları ilə inteqrasiyası həyata keçirilir. Yanvar – oktyabr aylarında informasiya bazalarına 322,3 milyon e-sorğu və müraciət edilib.

### DSMF-nin gəlirləri 472 milyon manat artıb

**Dövlət Sosial Müdafiə Fondunun gəlirləri bu ilin 10 ayında proqnozla müqayisədə 9 faiz və ya 472 milyon manat çox olmaqla 5 milyard 577 milyon manat təşkil edib.**




Fondun gəlirlərinin tərkibində məcburi dövlət sosial sığorta daxilolmaları yanvar – oktyabr aylarında proqnozla müqayisədə 9 faiz və ya 350 milyon manat artaraq 4 milyard 221 milyon manat olub.

Ötən müddətdə DSMF-nin xərcləri 5 milyard 51 milyon manat təşkil edib ki, bu da əvvəlki ilin müvafiq dövrünə nisbətən 16 faiz və ya 688 milyon manat çoxdur.

### DOST-dan məmnunluq səviyyəsi 97,7 faizdir

**Bu ilin ötən dövründə DOST mərkəzlərində 578 min vətəndaşa xidmət göstərilib.**

DOST xidmətlərindən vətəndaşların məmnunluq səviyyəsi 97,7 faiz təşkil edib.

DOST mərkəzləri şəbəkəsinin genişləndirilməsi istiqamətində növbəti addım olaraq avqustda Bərdədə Qarabağ Regional DOST Mərkəzi istifadəyə verilib. Bununla da, ölkədə DOST mərkəzlərinin sayı 7-yə çatıb.




Qeyd edək ki, DOST konsepsiyası əsasında 159 sosial xidmət "bir pəncərə"dən, müasir və çevik, şəffaf mexanizmlərlə, vətəndaş rahatlığı və məmnunluğuna uyğun təqdim olunur. "Könüllü DOST" proqramına isə bu ilin 10 ayında 22,4 minə yaxın müraciət olub və proqrama daha 1211 nəfər cəlb edilib.

***Z.HÜSEYNOVA***
***XQ***

Reportaj

# “İçərişəhərim” – soy-kökə ehtiram

**Xəbər verdiyimiz kimi, “İçərişəhər” Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsi Şirvanşahlar Sarayı Kompleksində “İçərişəhərim” adlı sərgi təşkil olunub.**



İncəsənətə olan marağım məni Şirvanşahlar Sarayına gətirdi. Sərgiyə baxmağa gələn yerli sakinlər və əcnəbi qonaqlarla rastlaşdım. Onlar buradakı əşyalar, şəkillər, dəyərli sənət nümunələri ilə maraqlanırdılar.

Sərgiyə baxdıqdan sonra, “İçərişəhər” Muzey Mərkəzinin direktor müavini Fidan Seyidova ilə bu barədə danışdım. O bildirdi ki, sərgidə içərişəhərli olan sakinlərin soykökündən gələn dəyərləri tarixi ictimaiyyətə təqdim olunur. Burada nümayiş edilən 100-dən artıq eksponat arasında yaşı üç əsri ötənlər də var. Sərginin məqsədi əsli-kökü qədim şəhərdən olan və hazırda burada yaşayan yerli sakinlərin nənə-babalarından yadigar qalmış dəyərli mirası İçərişəhəri ziyarət edən yerli və xarici turistlərə layiqincə tanıtmaqdır.

Sərginin bələdçisi Seyid Tağıyev burada nümayiş olunan eksponatlar haqqında gələn qonaqları məlumatlandırırdı. Qonaqlar onu diqqətlə dinləyir, eşitdiklərinə heyran olurdular. S. Tağıyev sərginin - “Din”, “Musiqi dünyası”, “Ticari və mədəni əlaqələr”, “Sənəd və fotolar”, “Tətbiqi sənət”, Hədiyyə” bölmələrindən ibarət olduğunu dedi:

– “Musiqi dünyası” adlı salonda Azərbaycan musiqisinin qədimliyini və zənginliyini özündə ehtiva edən qiymətli əşyalar toplanıb. Sanki onlara əl vurulmasını gözləyirlər ki, muğam üçlüyünün həzin melodiyalarını, xanəndələrin zəngulələrini səsləndirsinlər. Burada, həmçinin İçərişəhərdə yaşamış, tanınmış balaban ustası Məmməd Naib Hacıyevin fotosu, düzəltdiyi balaban və tütək sərgilənir. Ekspozisiyanın bir hissəsində isə miniatür güzgü və qadın geyim dəsti var. Palıd və armud ağacından hazırlanmış güzgü XVIII əsr Qacarlar dövrünə aiddir. Miniatürləri yumurta sarısı ilə işlənmiş bu nəfis əşya Təbriz sənətkarları tərəfindən gümüşü tozla hazırlanıb.



Digər eksponatlar haqqında da dolğun məlumat verən Fidan xanım sərgidəki digər bölmələrdə də maraqlı və qədim dövrlərə aid əşyaların sərgiləndiyini dedi:

– “Tətbiqi sənət” bölməsində XIII-XIV əsrlərdə Şirvan, Qarabağ, Naxçıvan və digər bölgələrdən olan sənətkarların hazırladıqları zinət əşyaları, geyimlər, tikmələr, silahlar və s. görə bilərsiniz.

“Ticari və mədəni əlaqələr” bölməsində mexanizmində 15 rubin daş olan cib saatı da diqqət çəkir. Bu, Azərbaycanın ilk kimyaçı alimi Möhsün bəy Xanlarovun şəxsi əşyasıdır. İpəkdən və məxmərdən hazırlanmış tütün və pul kisələri, dövrünün məktub yazanı – küçə mirzələrinə məxsus çantalar, misqal tərəziləri və s. maraqla baxılır.

“Hədiyyə” zalında türk qardaşlarımızın bizə tarixi hədiyyəsi olan qəmə nümayiş olunur. Əziz yadigar kimi nəsildən-nəslə ötürülmüş bu əşya Qafqaz İslam Ordusunun sərkərdəsi Nuru Paşadan xatirədir. Üzərində Sultan II Əbdülhəmid Sədrəzəmin tuğrası, dövlət nişanı, ay-ulduz və hicri 1312-ci il tarixi həkk edilmişdir.

Sərginin “Sənəd və fotolar” hissəsində keçmiş dövrlərin şəhadətnamələri, Mansurovlar, Ramazanovlar, Kərimovlar, Məlikovlar və digər ailələrə məxsus torpaq alqı-satqı sənədləri və şəxsi fotoları toplanıb. Əksər eksponatlar yüz illər öncə baş vermiş hadisələr haqqında bilmədiklərimizi öyrənmək üçün böyük əhəmiyyət daşıyır.

“Din” zalında isə İslami mövzuya aid eksponatlar sərgilənir. Bu bölmədə Qurani-Kərim, təfsiri kitabları, ibadət zamanı istifadə edilən canamaz, möhür və möhür qabı, təsbeh və tolerantlığın sübutu olan boyunbağı üçün qatlanmış formada ikona nümayiş olunur. Quranlardan biri çox kiçik ölçüdədir və tirmə parçadan olan kiçik quranqabında saxlanılır. Təfsiri kitabları XIX əsrin ikinci yarısında çap edilmişdir. Möhür qabları, canamazlar isə XIX əsrin sonu-XX əsrin əvvəllərində İçərişəhərdə yaşamış xanımların əl işləridir.

Qeyd edək ki, sərgi noyabrın 30-dək muzey ziyarətçiləri üçün açıq olacaq.

***Fidan SALMANOVA***
***XQ***

**Azərbaycan Respublikasının suverenliyinin tam bərpa edildiyi, Dövlət bayrağının ölkənin bütün ərazisində dalğalandığı bir vaxtda “Təhsil” nəşriyyatı yazıçı, publisist, Əməkdar mədəniyyət işçisi Mustafa Çəmənlinin tərtib etdiyi “Bir daha yüksələn bayraq” adlı albom-kitabı nəfis şəkildə çap edib. Fundamental nəşrin layihə rəhbəri və naşiri Tural Axundovdur.**

# Bayrağım – kimliyim, məsləkim, qürurum!

Milli istiqlalımıza gedən yolda məfkurəvi məşələ çevrilmiş bu azadlıq və müstəqillik rəmzinin xalqımız üçün daşıdığı mənəvi önəmə, onun tarixinə, yeni nəsillərin vətənpərvərlik ruhunda tərbiyəsində roluna həsr olunan bu albom-kitab soydaşlarımızın bayraq bilgisini genişləndirməklə yanaşı, onların suverenlik anlayışını da zənginləşdirməkdə dəyərli mənbədir. Məfkurəvi nəşrin girişində tərtibçi-müəllif bildirir:

– Dövlət bayrağımız milli kimliyimizi, amal-məsləkimizi, qələbələrimizdən duyduğumuz ümumi qürurumuzu təcəssüm etdirir. Bütün bunlardan çıxış edərək bu albom-kitaba həm Azərbaycan Xalq Cümhuriyyəti, həm də çağdaş müstəqilliyimiz dövründə vətənimizi və üçrəngli bayrağımızı vəsf edən poeziya nümunələri toplanıb. Müasir oxucularımıza bayrağın tarixən necə müqəddəs bir dəyər olduğunu aşılamaq üçün kitaba Albaniya, Şirvanşahlar, Eldənizlər, Qaraqoyunlu, Ağqoyunlu, Səfəvilər dövlətləri, Qarabağ, Şəki, Gəncə, İrəvan, Naxçıvan, Bakı, Təbriz və Xoy xanlıqları haqqında ensiklopedik bilgi verməklə yanaşı, bu dövlətlərin günümüzə gəlib çıxan bayraqlarının fotoları da təqdim olunub. Bununla yanaşı, bayraqların da əks olunduğu miniatürlərdən də istifadə edilib.




Kitabı ərsəyə gətirənlərin bir məqsədi də 44 günlük Vətən müharibəsi zamanı milli bayrağımıza, Ali Baş Komandana, müzəffər Ordumuza, qəhrəman şəhidlərimizə xalqımızın sonsuz sevgi göstərdiyini tarixiləşdirmək, milli rəmzlərə diqqət, hörmət və ehtiram duyğularının vətəndaşlıq borcunun gerçəkləşdirilməsinə təsirini yüksəltməkdir.

***T.RÜSTƏMLİ***
***XQ***

# “Mən sabun bişirməyəcəm”

**Ötən əsrin yetmişinci illəri idi. Bakıda, indiki Bülbül prospekti ilə Xaqani küçəsinin kəsişməsində Xəzər dənizçilərinin Mədəniyyət evinin tədbirlərində mən də iştirak edirdim. Gah bəzi tədbirlərə ssenari yazır, gah da aparıcılıq edirdim. Əsas məqsəd dənizçilərin asudə vaxtının səmərəli keçirilməsinə imkan yaratmaq idi.**



Bakı – Krasnovodsk (indiki Türkmənbaşı) marşrutu ilə yük daşıyan “Sovet Özbəkistanı” gəmi-bərəsi ilə Türkmənistanın bu şəhərinə gedib-gələndən, daha doğrusu, həm gedəndə, həm də gələndə dənizçilər üçün yüksək səviyyəli mədəni tədbir təşkil edəndən sonra bizdən razılıq edənlərin sayı çoxalmışdı. Mədəniyyət evinin bədii rəhbəri Azər Şahgəldiyev bu münasibətlə keçirilən tədbirdə dedi ki, indi sizin çıxış etdiyiniz səhnədə vaxtilə tanınmış aktyorlar Əliağa Ağayev də çıxış edib, Süleyman Ələsgərov da. Məşqlərə məsuliyyətlə yanaşsanız, gələcəkdə siz də tanınmış sənət adamlarına çevrilə bilərsiniz.

Bu, o vaxtlar idi ki, milyonlarla televiziya tamaşaçısı “Bizim Cəbiş müəllim” filmini məhz Süleyman Ələsgərovun misilsiz ifasına görə sevirdi. İş elə gətirdi ki, çox keçmədən orada Süleyman Ələsgərovla görüş keçirildi. O, həmin tədbirdə uzun illər ifa etdiyi “poçtalyon əmi”dən tamamilə uzaqlaşmış kimi görünsə də, Cəbiş müəllimin ab-havasından çıxa bilməmişdi. İlk dəfə idi ki, mədəniyyət evində o qədər tamaşaçı görürdüm.

Doxsanıncı illərin əvvəllərində – mən radioda işləyəndə televiziyanın Uşaq Verilişləri Redaksiyasında çalışan şair-publisist Kamran Mehdi ilə tez-tez görüşür, söhbətləşirdik. Bir gün Kamran dedi ki, bəstəkar Şəfiqə Axundova səni görmək istəyir. O vaxtlar Şəfiqə xanıma maaş vermək üçün onu həmin redaksiyaya işə götürmüşdülər. Xatırladım ki, Şəfiqə Axundova mənim “Anama məktub” şeirimə musiqi yazmışdı.

Şəfiqə xanımın oturduğu otağa gedəndə gördüm ki, Süleyman Ələsgərov da oradadır. Süleyman müəllim o redaksiyada uzun illər çalışmışdı. Bəstəkar məni aktyora təqdim edərək dedi ki, İttifaq operativ işləməyi bacaran jurnalist olsa da, arada yaxşı şeirlər də yazır: “Amma bu yaxınlarda eşitmişəm ki, onun aktyorluğu da var”. Mən etiraz etdim ki, aktyorluq yox, aparıcılıq etmişəm. Süleyman müəllim gülümsündü: “Burada ayıblı nə var ki, etiraz etmə, boynuna götür”. Onun filmdə dediyi bir ifadəni eynilə həmin şəkildə təkrar elədim: “Mən saabun ( o, sabun sözünü iki a hərfi ilə deyirdi) bişirməyəcəm!” Gülüşdülər və sənətkarın “yol çəkən” gözlərində bir məmnunluq ifadəsi yarandı: “Çox sağ ol! Deməli, mən kimlərinsə yaddaşında yaşayıram”.

Soruşdu ki, harada məşğul olmusan? Dedim Süleyman Ələsgərovu Azərbaycan teatr sənətinə bəxş etmiş Mədəniyyət evində. “Orada indi vəziyyət necədir, fəaliyyət göstərirlərmi?” – deyə soruşdu. Onda da mənim gözlərim yol çəkdi.

1994, ya da 95-ci il idi. Müşfiqabad qəsəbəsində yaşayırdım. Yaxın qohumlarımızdan biri rayondan qonaq gəlmişdi. Xeyli söhbətdən sonra qohum məni məzəmmət eləməyə başladı: “ Sənin səsin bütün dünyanı başına götürüb (radiodakı verilişlərimi nəzərdə tuturdu), hər gün televiziyada dövlət rəsmilərinin tədbirlərində görünürsən, bu qədər dostun-tanışın var. Axı, sən iş yerindən 35 kilometr uzaqda yaşamamalısan, evin bu qədər kasıbyana, uşaqlarının əyin-başı bu gündə olmamalıdır. Sənin soyuducun niyə belə qalmalıdır? Niyə bu barədə fikirləşmirsən? Nə vaxta qədər belə olacaq?”

Qohumun sualları çoxalanda eynilə Süleyman Ələsgərovun səsiylə dedim: “Mən saabun bişirməyəcəm!”

... Sonralar eşitdim ki, kənddə mənim haqqımda danışanda gah gizli, gah da açıq səslə bizim Cəbiş müəllim deyirlərmiş.

***İttifaq MİRZƏBƏYLİ***
***XQ***

Gənc istedadlar

# “Bayatı–Şiraz”dan qanadlanan səs

**Azərbaycan istedadlar ölkəsidir. Xüsusən də musiqi, muğam ifaçılığı sahəsində nəsilbənəsil yeni ifaçılar bir-birini əvəz edir. Haqqında söhbət açdığım gənc ifaçının redaksiyamızın qonağı olarkən oxuduğu “Bayatı-Şiraz” muğamı və “Dəşti” təsnifi bütün əməkdaşlarımızı valeh etmişdi. Ədilə Əliyeva Azərbaycan Milli Konservatoriyasının nəzdindəki İncəsənət Gimnaziyasının 11-ci sinif şagirdidir. O, Bakının Zirə kəndindədir, cəmi 16 yaşı var. VII Muğam Müsabiqəsinin iştirakçısıdır. Söhbətimiz zamanı gənc ifaçı dedi:**

– Rəqsə gedə-gedə dərnəyin tədbirlərində həm oynayır, həm də oxuyurdum. 123 nömrəli məktəbdə təhsil alırdım, atam məni həm də 24 nömrəli musiqi məktəbinə yazdırdı. Müəllimim Arif İsmayılov olub. Tədbirlərdən birində Gimnaziyadan gələn nümayəndələr səsimi bəyənib məni orada oxumağa dəvət etdilər. Hazırda Aytən Məhərrəmovadan dərs alıram. Arzum Milli Konservatoriyaya qəbul olunmaqdır. Azərbaycanın Gürcüstandakı səfirliyinin xətti ilə konsertə getmişdik. Gürcüstan–Azərbaycan dostluğu çərçivəsində Zəfər Günü ilə bağlı tədbir keçirilirdi. Rəhbərimiz gimnaziyanın direktoru Aytən Əhmədova idi. Dəyərli sənətkarımız Firuzə İbadova, müəllimimiz Aytən Məhərrəmova da bizimlə getmişdilər. Çox maraqlı konsertimiz oldu.

**– Başqa hansı ölkələrdə çıxış etmisiniz?**

– Bu yaxınlarda Türkiyədə – Antalyada olmuşam, Türklərin bizim muğama çox isti münasibətləri var, heyrətlə dinləyirlər. Yaxınlaşıb soruşurlar ki, siz bu boğazları necə edirsiniz? Bizim kimi oxumağa çalışırlar, amma alınmır, çünki onu zamanla, təhsil alaraq öyrənmək olar. Mən də onların mahnılarını oxuya bilmərəm, çünki mənim boğazım artıq xanəndə boğazıdır.

**– Sizin ifanızda “Bayatı-Şiraz”ı dinlədik. Fərqli səsiniz var...**

– “Bayatı-Şiraz”ı Tacir Şahmalıoğlundan öyrənmişəm. O, həmin muğamın möhürünü vurub. Ümumilikdə, daha çox dinlədiyim sənətkar Mənsum İbrahimovdur. Öyrənmək istədiyim bütün təsnif və muğamları onun ifasında dinləyirəm. Xan Şuşinskinin, Ağaxan Abdullayevin, Şövkət Ələkbərovanın ifalarını da çox dinləyirəm. Mələkxanım Əyyubovanı da çox sevirəm.

**– “Bayatı-Şiraz”ı oxuyanda, dinləyəndə hansı hissləri keçirirsiniz?**

– Bəmində kövrəlirəm, həzinləşirəm, zilə qalxanda qürurlanıram. Müxtəlif duyğular yaradır. Əvvəldən də bəmi ilə zili fərqli hisslər yaşadırdı, amma Qarabağ zəfərindən sonra zilin yaratdığı duyğular daha çox oldu. “Qarabağ şikəstəsi”nin özündə də qələbədən əvvəl məyusluq vardı, qələbədən sonra qürur daha çoxdur, fəxrlə oxuyursan, kövrəlmirsən, əksinə, sevinirsən.

**– Bəs, “Heyratı” nə aşılayır?**

– “Heyratı” zərb muğamıdır. Onu oxuyanda savaşa girirsən, səni döyüşə, mübarizəyə, qələbəyə səsləyir.



**– Sizcə, Azərbaycan musiqisi dünyada hansı yerdədir?**

– Onu bilirəm ki, mənim üçün 1-ci yerdədir, çünki qəlbimdədir.

**– Konservatoriyada təhsil alandan sonra operada işləsəniz, hansı obrazı oynamaq istəyərdiniz?**

– Mənim arzularımdan biri Prezidentimizin və birinci xanımın iştirak etdiyi tədbirdə, onların qarşısında çıxış etməkdir. Bir də istəyirəm operamızın səhnəsində “Leyli və Məcnun”da Leylini oynayım.

**– Uğurlar arzulayırıq!**

***R.QURBANLI***
***XQ***

# “The Man Booker”in mükafatçısı Nizami Muzeyində

**Ümummilli lider Heydər Əliyevin 100 illik yubileyinə həsr edilmiş IX Bakı Beynəlxalq Kitab Sərgisi çərçivəsində ölkəmizdə səfərdə olan “The Man Booker” beynəlxalq mükafatının 2019-cu il laureatı, Oman əsilli yazıçı, Edinburq Universitetində klassik ərəb şeiri üzrə fəlsəfə doktoru elmi dərəcəsi alan və hazırda Omanın Sultan Qabus Universitetinin dosenti olan Cuxa əl-Harsi Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyini ziyarət edib.**

Muzeyin elmi işçisi Rəhilə Sadıqova dünya şöhrətli yazıçıya klassik və müasir dövr Azərbaycan ədəbiyyatı, mədəniyyəti haqqında ərəb dilində geniş məlumat verib, qonağı muzeyin zəngin ekspozisiyası ilə tanış edib.

Qeyd edək ki, Cuxa əl-Harsiyə nüfuzlu “The Man Booker” mükafatını qazandıran “Ayın qızları” romanını Azərbaycan dilinə tərcümə edən Aytəkin Qocayeva, kitabın redaktoru Rəşad Həsənov və gənc yazıçı Ramil Əhmədov da qonağı müşayiət ediblər.

Muzeyin “Rəy kitabı”nda öz dərin təəssüratlarını bölüşən Cuxa əl-Harsi burada keçirdiyi vaxtdan məmnun qaldığını və zəngin Azərbaycan ədəbiyyatı ilə yaxından tanış olmaq imkanı əldə etdiyi üçün şad olduğunu bildirib.

***XQ***

# Bayden, yoxsa Tramp?!

## Səsvermə gününə bir ildən az vaxt qalır



**Birləşmiş Ştatlarda prezidentlik uğrunda seçki kampaniyası adətən seçkilər gününə bir il qalmış başlayır. Mövcud qanunvericiliyə görə, növbəti səsvermə gələn il, 2024-cü ilin ilk çərşənbə axşamı, 5 noyabrda keçiriləcək.**

Bu dəfə seçkiqabağı kampaniya daha erkən başlayıb. Belə ki, 45-ci prezident, milyarder Donald Tramp artıq bir neçə müddətdir ki, ölkənin ali postuna iddiasını ortaya qoyaraq, özünün seçki kampaniyasına start verib.

Hər bir şeyin səbəbi olur. Trampın "tələsməsi", təbii ki, səbəbsiz deyil. Belə ki, qarşıdakı seçkilərdə Respublikaçılar Partiyasının vahid namizədi olacağına ümid bəsləyən Tramp ona qarşı iki il əvvəl başlanılan məhkəmə prosedurunun təxirə salınmasına çalışır.

Məlum olduğu kimi, Trampın tərəfdarları 2021-ci il yanvarın 6-da seçkilərin nəticələrinə etiraz olaraq ABŞ Konqresinin binasına hücum ediblər. Bu zaman zorakılıqlar baş verib. Tramp həmin iğtişaşlardan öncə seçkinin nəticələrini ləğv etmək üçün qeyri-qanuni plan qurmaqda ittiham olunur.

Bu, ciddi ittihamdır və sabiq prezidentin Ağ evə sahib olmaq arzusunu gözündə qoya bilər. Bundan başqa, Tramp Casusluq Aktı çərçivəsində onlarla cinayət işi ilə üzləşib. O, heç bir məhkəmə işində özünü təqsirli hesab etmir.

Bəli, Tramp hər vəchlə Vaşinqtonda məhkəmə tarixini 2024-cü ildən sonrakı dönəmə qədər təxirə salmağa çalışır. Ancaq, görünür, sabiq demokrat prezident Barak Obama tərəfindən təyin olunan Kolumbiya mahalının hakimi Tanya Çatka ona göstərən təzyiqlərə sinə gərərək məhkəmənin keçirilmə tarixini dəyişmək niyyətində deyil.

Yeri gəlmişkən, çərşənbə günü Florida ştatının Mayami şəhərində prezidentliyə respublikaçı namizədlər arasında sayca üçüncü debat baş tutub. Seçki texnoloqları belə bir məqama diqqət yetiriblər ki, müzakirələrdə əvvəlki illərlə müqayisədə daha az namizəd iştirak edib. Bu, ilk növbədə ona dəlalət edir ki, prezidentliyə iddialı respublikaçıların çoxu Trampı üstələyəcəklərinə əmin deyillər.

Debat zamanı namizədlər bir neçə beynəlxalq məsələdə özlərini bir-birilərindən və partiyanın öndə gedən namizədi Trampdan fərqləndirməyə çalışıblar. Maraqlıdır ki, onların çoxu prezident seçiləcəkləri təqdirdə, İsraili birmənalı olaraq dəstəkləyəcəklərini, HƏMAS-ı isə "birdəfəlik bitirəcəklərini" bildiriblər.

Lakin respublikaçıların ən populyar namizədi Tramp digər debatlarda da olduğu kimi, Mayamidəki debatlarda iştirak etməyib. Keçmiş prezident oradan, təxminən, 16 kilometr uzaqda yerləşən, əhalisinin əksəriyyətinin ispandilli olması ilə seçilən Floridanın Hialeah şəhərində tərəfdarları qarşısında mitinq keçirib.

Reallıq budur ki, Trampın respublikaçıların vahid namizədi olmaq şansı kifayət qədər yüksəkdir. Viriciniya Universitetinin siyasət fakültəsinin dekanı Cennifer Loules deyib ki, hazırkı namizədlərin bu günlərdə tez-tez keçirilən rəy sorğularında Trampdan daha yaxşı nəticə əldə edəcəkləri mümkünsüz görünür.

"Tramp əksər rəy sorğularında 50 faizdən çox, digər sorğularda isə 40 faizdən çox səs toplayır, digər namizədlər isə heç buna yaxın gəlmirlər. Amma nə isə baş versə, Tramp ya həbs olunsa, ya da müxtəlif hüquqi səbəblərdən namizədləyini geri çəkməyə məcbur qalsa, ikinci yerdə kimdirsə, onun əli güclənəcək,"–deyə C.Loules vurğulayıb.

Bu arada Tramp federal seçkiyə müdaxilə ittihamı ilə əlaqədar Vaşinqtonda keçiriləcək məhkəməsinin televiziyada yayımlanmasını tələb edib. Ondan başqa, bir neçə media orqanı da "Amerika xalqının tarixi məhkəməni izləmək imkanlarının olmalı olduğunu" tələb edir.

Xatırladaq ki, ABŞ-da mövcud federal məhkəmə qaydaları məhkəmə iclaslarından yayım etməyi qadağan edir, ancaq nüfuzlu "The Associated Press" və digər xəbər agentliklərinin rəhbərləri hesab edirlər ki, keçmiş prezidentin "seçicilərin iradəsini dəyişdirmək" ittihamı ilə mühakimə olunduğu misli görünməmiş məhkəmə işi istisna təşkil edə bilər.

Trampın vəkilləri yazıblar ki, "prezident Tramp istəyir ki, bu məhkəmələr tam şəkildə televiziyada yayımlansın ki, Amerika xalqı bu işin konstitusiyaya zidd, uydurma bir nömrə olduğunu birbaşa görsün". Yəni, Tramp demokratların onun əleyhinə təşkil etdikləri məhkəmə prosedurunu ictimai-siyasi şouya çevirib, bundan əlavə siyasi xal qazanmaq arzusundadır.

Məlum olduğu kimi, Birləşmiş Ştatların hazırkı prezidenti Co Bayden də gələn ilki seçkilərə qatılacağını bəyan edib və xeyli yaşlı olmasına baxmayaraq, daha dörd il vəzifəsində qalacağına ümid bəsləyir. Baydenin tərəfdarları onun lehinə qızğın təbliğat aparmağa başlayıblar.

Bir çox siyasi təhlilçilər isə demokratların arzu etdikləri hədəfin Rusiya–Ukrayna müharibəsinin nəticələrindən asılı olduğunu bildirirlər. Əgər Ukrayna cəbhədə nəzərəçarpan qələbə qazanarsa, Bayden "Ukrayna xalqına hərtərəfli dəstək verən güclü lider kimi" seçkiləri uda bilər.

Lakin son rəy sorğuları ölkə əhalisinin böyük bir qisminin hazırkı iqtidarın siyasətindən narazı olduğunu nümayiş etdirir. Vətəndaşlar Ağ evi Ukraynaya və digər ölkələrə "hədsiz səxavət" göstərməkdə suçlayırlar.

Yeri gəlmişkən, dünən gecə saatlarında bu yazı çapa hazırlanarkən, ABŞ prezidenti Co Bayden Asiya–Sakit Okean İqtisadi Əməkdaşlıq Təşkilatının (APEC) San-Fransiskoda keçirilən 30-cu zirvə toplantısında iştirak edən Çin lideri Si Cinpinlə görüşməli idi.

Qeyd edək ki, ekspertlərin maraqla gözlədiyi bu hadisə ötən ilin noyabrında "Böyük iyirmilik" (G20) qrupunun İndoneziyadakı Zirvə toplantısı çərçivəsində baş tutmuş Cinpin–Bayden görüşündən sonra ilk canlı ünsiyyəti olacaq.

Bakı Dövlət Universitetinin Xarici ölkələrin iqtisadi-siyasi coğrafiyası kafedrasının müdiri, professor Aydın İbrahimov bu məsələ ilə bağlı bildirdi ki, hazırda dünyanın yeni siyasi düzəni formalaşır və bugünkü çox mürəkkəb geosiyasi vəziyyət fonunda bu görüşün keçirilməsi, bütövlükdə, müsbət hadisədir.

San-Fransiskoda dünyanın iki böyük dövlətinin lideri arasında keçirilən müzakirələrdə hansı mühüm qərarların qəbul edilməsindən asılı olmayaraq, Ağ evin hazırkı sahibini böyük ehtimalla bir il sonra barışmaz siyasi rəqibi sayılan Trampla sərt "kim-kimi" sualının cavabı gözləyir. Ən doğru cavabı zaman verəcək.

***Məsaim ABDULLAYEV***
***XQ***

# Bakı Şəhər İcra Hakimiyyətinin "Bakı Şəhər Əsaslı Tikinti və Təmir" MMC

Beynəlxalq Avtomobil Federasiyasının Baş Assambleyasının iclası və mükafatlandırma mərasiminin təşkilinin satın alınması məqsədilə

## TƏKLİFLƏR SORĞUSU ELAN EDİR

Lot – 1. Beynəlxalq Avtomobil Federasiyasının Baş Assambleyasının iclası və mükafatlandırma mərasiminin təşkilinin satın alınması.

Təkliflər sorğusu iştirakçılarına təklif olunur ki, öz təkliflərini möhürlənib imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə, həmçinin elektron portal vasitəsi ilə təqdim etsinlər. Müqaviləni yerinə yetirmək üçün prosedur iştirakçıları lazımi texniki və maliyyə imkanlarına malik olmalıdırlar.Təkliflər sorğusunda iştirak etmək istəyən təşkilatlar müəyyən məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra müsabiqə üçün təkliflərini təqdim edə bilərlər (əlaqələndirici şəxs- Əhməd Məmmədov, telefon- 496-52-05) .

İştirak haqqı 500 manatdır.

İştirak haqqı heç bir halda qeri qaytarılmır.

İddiaçılar iştirak haqqını aşağıdakı hesaba köçürməlidirlər: Bakı Şəhər İcra Hakimiyyətinin "Bakı Şəhər Əsaslı Tikinti və Təmir" Məhdud Məsuliyyətli Cəmiyyəti

H/h- AZ22IBAZ38030019446253269215
VÖEN-1702563281
Kod- 805625
VÖEN- 9900001881
M/h- AZ03NABZ01350100000000002944
SWİFT-IBAZAZ2X

Malgöndərənlər (podratçılar) tenderdə iştirak üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

1. Malgöndərənin (podratçının) tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri.
2. Tender təklifinin qüvvədə olma müddəti zərflərin açılış tarixindən sonra azı 30 bank günü olmalıdır.
3. Tender təklifinin təminatı, tender təklifinin qüvvədə olma müddətindən sonra azı 30 bank günü olmalıdır.
4. Tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı.
5. Malgöndərənin (podratçının) son bir ildəki (əgər daha az müddət fəaliyyət göstərirsə, bütün fəaliyyəti dövründəki) maliyyə vəziyyəti barədə bank tərəfindən təqdim edilmiş arayış.
6. Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə aid yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin, habelə son bir il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) vergi ödəyicisinin Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrinin yerinə yetirilməməsi hallarının mövcud olmaması barədə arayış.
7. İddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq edilmiş maliyyə hesabatının surəti.
8. İddaiaçının mikro, kiçik və orta sahibkarlıq meyarlarına uyğun olması haqqında sənəd (Statistika Komitəsindən).
9. Satınalma prosedurlarının başlanmasından əvvəlki 5 il ərzində özlərinin, habelə işlərini idarə edənlərin, qulluqçularının peşəkar fəaliyyətləri, yaxud satınalma müqaviləsinin bağlanması üçün ixtisas göstəricilərini yanlış göstərmələri ilə əlaqədar cinayətə görə məhkum olunmaması, yaxud onların müvafiq peşə fəaliyyətləri ilə məşğul olmasının məhkəmə qaydasında qadağan edilməməsi barədə sənəd.
10. Öz əmlakından sərbəst və məhdudiyyətsiz istifadə etmək imkanı, habelə ödəmə qabiliyyəti olması barədə sənəd.
11. İşin icrası üçün müqavilə imzalayacağı subpodratçı barədə məlumatlar (subpodratçı cəlb edəcəyi təqdirdə).

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildəki təkliflər sorğusu sənədləri Azərbaycan dilinə tərcümə edilməlidir). İddiaçılar təkliflər sorğusu ilə bağlı sualları satınalan təşkilata ünvanlaya bilərlər. Təkliflər sorğusu proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir.İddiaçılar öz təkliflərini əsas şərtlər toplusunda göstərilən müddəalara uyğun hazırlamalı, təkliflər sorğusunda iştirak üçün sənədləri qapalı, ayrı-ayrı möhürlənib imzalanmış ikiqat zərflərdə 29 noyabr 2023-cü il saat 17.00-dək Bakı şəhəri, Xətai rayonu, Nəcəfqulu Rəfiyev küçəsi 17 nömrəli ünvana, həmçinin elektron portal vasitəsi ilə (əlaqələndirici şəxs – Əhməd Məmmədova, telefon- (012) 496-52-05) təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri 30 noyabr 2023-cü il saat 11.00-da açılacaqdır.

***Tender komissiyası***

# BİLDİRİŞ

"Bakı Şəhər Əsaslı Tikinti və Təmir" MMC tərəfindən Beynəlxalq Avtomobil Federasiyasının Baş Assambleyasının iclası və mükafatlandırma mərasiminin təşkilinin satın alınması üçün elektron satınalma portalında 2023-cü il noyabrın 14-də elan edilmiş təkliflər sorğusu iş həcmlərində və şərtlər toplusunda dəyişikliklər olması səbəbindən ləğv edilmişdir.

Prosedur yenidən keçiriləcəkdir.

# Ağcabədi: kəndlinin zəhməti, torpağın səxavəti

**Bu il Ağcabədi rayonunda 11 min 492,7 hektar sahədə pambıq yetişdirilib. Yüksək məhsul əldə etmək üçün əkin sahələrində aqrotexniki becərmə qaydalarına ardıcıl və düzgün əməl olunub, zərərvericilərə qarşı kimyəvi mübarizə tədbirləri vaxtında aparılıb. Bitkilər tələbata uyğun optimal müddətdə mineral gübrə və suvarma suyu ilə təmin edilib. Nəticədə tarlalarda bol məhsul yetişib.**

Pambığın maşınla yığılması üçün defolyasiya işləri aparılıb. Lakin yağıntılı hava şəraiti rayonda yığımda problemlər yaradıb. İntensiv yağışlar səbəbindən məhsulun yetişməsi gecikib. Bu, eyni zamanda, məhsuldarlığın azalmasına səbəb olub.

**Ağcabədi rayon Dövlət Aqrar İnkişaf Mərkəzinin (DAİM) direktoru Abbas Süleymanov bu barədə danışarkən dedi:**

– Bu il tarlalara vaxtında və səmərəli aqrotexniki qaydada qulluq göstərdik. Vaxtında görülən işlər səmərəsini vermişdi, pambıq kolları yüksək səviyyədə bar verməyə hazır idi. Hər şey öz axarında gedirdi, lakin avqust və sentyabrda yağan aramsız yağışlar vəziyyəti çətinləşdirdi, pambıq məhsulu üçün problemlər yaratdı. Məhsulun bir hissəsi itkiyə getdi, keyfiyyət isə aşağı düşdü. Bundan əlavə, yağıntılı hava şəraiti qozalarda çürümə yaratdı, pambıq tarlalarında texnikaların da hərəkəti çətinləşdi. Yağış səbəbindən yığıma gec başladıq. Bu il pambığın məhsuldarlığı keçən illə müqayisədə 10 faiz aşağı düşüb.

Rayonda hazırda 25 min tondan artıq məhsul yığılıb. Yığım davam edir. Hər hektar üzrə orta məhsuldarlıq 32,5 sentner təşkil edib. Bu, ötən ilin göstəricisindən 1,6 sentner azdır. Yığımın sonunadək məhsuldarlığı saxlamağa çalışacağıq. Rayonda pambıq yığımına 54 ədəd kombayn, 134 ədəd traktor, 306 ədəd qoşqu, 15 ədəd yükləyici, 35 ədəd çiləyici cəlb edilib.

Qeyd edək ki, ötən təsərrüfat ilində Ağcabədi rayonunda 11 min 838,6 hektar sahədə çiyid səpini aparılmış, sahələrdən 40 min 362,6 ton xam pambıq tədarük edilmişdi. Hər hektardan orta məhsuldarlıq 34,1 sentner təşkil etmiş, bununla da, Ağcabədi pambıqçıları respublika üzrə ən çox məhsul əldə edən rayonlardan biri olmuşdu.

Abbas Süleymanov sonra bildirdi ki, pambıqçılıq Ağcabədi iqtisadiyyatının əsasını təşkil edən sahələrdəndir. Əmək tutumlu sahə olan pambıqçılıq on minlərlə insanı işlə təmin edir. Rayonda işsizliyin aradan qaldırılmasında mühüm rol oynayır.



Fermerlərə verilən subsidiyalar da artırılıb. 2023-cü il üçün subsidiya əmsalları barədə qəbul olunmuş qərara əsasən, fermerlər tədarük məntəqələrinə təhvil verdikləri pambığın hər tonuna görə 180 manat məhsul subsidiyası alacaqlar.

Pambıqdan fərqli olaraq 2023-cü ildə taxıl sahələrindən yüksək məhsul əldə olunub. Rayonda, ümumilikdə, 26 min 664 hektar sahədə taxıl səpini aparılıb. Ağcabədi rayonunda biçin aparılmış 19 min 514 hektar buğda sahəsindən 74 min 211 ton, 7 min 150 hektar arpa sahəsindən isə 27 min 956 ton məhsul yığılıb. Buğdada orta məhsuldarlıq 47,5, arpada isə 39,1 sentner təşkil edib. Ümumilkdə, biçin aparılmış sahələrdən 120 min 714 ton məhsul əldə edilib. Məhsuldarlıq isə hektara 45,3 sentner olub. Bu, ötən ilin göstəricisindən 4,9 sentner çoxdur.

2022-ci ildə rayon üzrə cəmi 28 min 198,7 hektar sahədə taxıl əkilmiş, 113 min 814 ton taxıl yığılmışdI. Məhsulun 80 min 701 tonu buğda, 33 min 113 tonu arpa idi. Məhsuldarlıq hektara 40,4 sentner təşkil etmişdi. Qarğıdalı yığımı isə davam edir.

Abbas müəllimin sözlərinə görə, rayonda yüksək məhsuldarlığa sahələrə arotexniki qaydada xidmət göstərilməsi, sertifikatlı toxumun seçilməsi, taxılın vaxtında suvarılması və s. təsir edib. Artıq fermerlər əvvəlki illərdə olduğu kimi, əlinə keçən taxılı deyil, yüksək sertifikatlı toxum əkirlər.

Ağcabədililər baramaçılıq sahəsində də uğura imza atıblar. Ötən il təhvil verilən məhsula görə rayon respublikada ikinci yerdə olub. Hər qutudan 38,9 kiloqram olmaqla 33,53 ton barama məntəqələrə təhvil verilib. Bu mövsümdə də rayonda baramaçılığa xeyli maraq olub. İpəkqurdu toxumları yaş barama tədarük edəcək kümçülərin təsərrüfatlarında inkubasiya olunub, yem tədarükü, yaş baramanın təhvili, məhsulun qurudulması və saxlanılması prosesi qabaqcıl təcrübə əsasında təşkil edilib. Nəticədə, 275 nəfər kümçü 700 qutu ipəkqurdundan 34 min 450 kiloqram keyfiyyətli barama isehsal edib. Məhsul "AzSilk" MMC-ə təhvil verilib. Hər qutudan orta məhsuldarlıq 49,2 kiloqram təşkil edib.

DAİM sədri sonda dedi ki, Ağcabədi rayonunun kənd təsərrüfatı potensialı yüksəkdir. İnnovativ yeniliklərin tətbiq olunması rayonun intensiv inkişafına və sakinlərin həyat şəraitinin yaxşılaşmasına xidmət edəcək.

***Pünhan ƏFƏNDİYEV***
***XQ***

# "Azərbaycan Türkiyə İş Adamları Birliyi"

Azərbaycan Respublikasının Prezidenti, cənab İlham Əliyevin 2023-cü ili "Heydər Əliyev ili" elan etməsi ilə əlaqədar "Tədbirlər Planı"na uyğun olaraq "Heydər Əliyev 100 – Bir millət, iki dövlətin iş dünyası" mövzusunda konfrans təşkil edəcəkdir.

Konfransdan sonra ATİB-in idarə heyətinin 19 yanvar 2023-cü il tarixli protokolu ilə ümumi yığıncağın növbəti iclasının çağırılması barədə qərar qəbul edilmişdir. Bununla əlaqədar bildiririk ki, Türkiyə Respublikasının Səfiri cənab Doç. Dr. Cahit Bağçının himayədarlığı ilə 2023-cü il dekabrın 9-da "Landmark" otelinin Rotunda zalında (ünvan-Bakı, Nizami küçəsi 90A) saat 09.15-də qeydiyyatın başlanması şərtilə "AZƏRBAYCAN TÜRKİYƏ İŞ ADAMLARI BİRLİYİNİN" ümumi yığıncağının növbəti iclası keçiriləcəkdir.

***ATİB-in idarə heyəti***

# "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti

Tabeliyindəki idarələrə binoklların satın alınması məqsədilə

## MÜSABİQƏ ELAN EDİR

Müsabiqədə iştirak etmək istəyən şəxslər www.asco.az səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumat əldə edə bilərlər. Müraciət üçün son müddət 2023-cü il noyabrın 21-i saat 17.00-dəkdir. Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

Əlaqə telefonu: (012) 404-37-00, daxili: 1132.

Ünvan- Bakı, Mikayıl Useynov küçəsi 2.

# BİLDİRİŞ

"Azəristiliktəchizat" ASC-nin istehsalat zəruriyyəti ilə əlaqədar mətbəədə çap olunacaq 1 vərəqdən ibarət müqavilənin 370000 (üç yüz yetmiş min ədəd) çap olunmasının satın alınması məqsədilə 2023-cü il oktyabrın 17-də elektron portal vasitəsilə keçirilmiş açıq tenderinin nəticələrinə əsasən "NUR-E.A" MMC qalib elan edilmiş və həmin MMC ilə 2023-cü il noyabrın 13-də müvafiq satınalma müqaviləsi bağlanılmışdır.

***Tender komissiyası***

# BİLDİRİŞ

"Azəristiliktəchizat" ASC-nin müxtəlif nasoslar və işçi çarxlarının satın alınması məqsədilə 2023-cü il oktyabrın 19-da elektron portal vasitəsilə keçirilmiş açıq tenderinin nəticələrinə əsasən "Steel Materials" MMC qalib elan edilmiş və həmin MMC ilə 2023-cü il noyabrın 13-də müvafiq satınalma müqaviləsi bağlanılmışdır.

***Tender komissiyası***

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 249 (30365) 16 noyabr 2023-cü il, cümə axşamı

İdman xəbərləri

## "Sabah" "Bağçaşəhər"ə uduzub



**FIBA Avropa Kubokunun müntəzəm mövsümündə "Sabah" basketbol klubu növbəti oyununu keçirib.**

Azərbaycan təmsilçisi İstanbulda yerləşən Ülkər İdman Zalında təşkil olunan 5-ci matçda Türkiyə klubu "Bağçaşəhər"lə üz-üzə gəlib. Görüş rəqibin 99:80 hesablı qələbəsi ilə yekunlaşıb.

Qeyd edək ki, Azərbaycan çempionu "Bağçaşəhər"lə Bakıda keçirdiyi matçda 65:83 hesabı ilə uduzub. "Sabah" qrupda keçirdiyi 4 oyunun yalnız 1-də qələbə qazanıb, 3-də məğlub olub. "Sabah" hazırda 5 xalla D qrupunda üçüncü pillədə qərarlaşıb.

## Erməni böhtanı cavablandırılıb

**Azərbaycan Sambo Federasiyası (ASF) Ermənistanın təhsil, elm, mədəniyyət və idman nazirinin müavini Karen Qiloyanın səsləndirdiyi təxribatçı fikirlərə cavab verib.**

Bu barədə qurumun bəyanatında bildirilib:

"Azərbaycan və Türkiyə millilərinin noyabrın 10–12-də Ermənistanın paytaxtı İrəvanda keçirilmiş sambo üzrə dünya çempionatında iştirak etməməsinin səbəbi KİV-ə yalan məlumat ötürülməklə çatdırılıb. Ermənistanın təhsil, elm, mədəniyyət və idman nazirinin müavini Karen Qiloyanın yerli mətbuata açıqlaması yalan və böhtanla doludur. Bildirmək istəyirik ki, Azərbaycan Sambo Federasiyası Beynəlxalq Sambo Federasiyası (FIAS) tərəfindən diskvalifikasiya olunmayıb. Buna bariz nümunə FIAS-a oktyabrın 18-də göndərdiyimiz rəsmi məktubdur. Orada göstərilib ki, aprel ayında İrəvanda keçirilmiş ağırlıqqaldırma üzrə Avropa çempionatının açılış mərasimində Azərbaycanın dövlət bayrağı yandırılıb. İdman dəyərlərinə sığmayan bu hərəkəti və idmançılarımızın təhlükəsizliyinin qoruna bilinməyəcəyini nəzərə alaraq yarışda iştirak etməyəcəyimizi bildirmişik".

Federasiya yığmanın oktyabrın 6–8-də Qırğızıstanın paytaxtı Bişkekdə keçirilmiş yeniyetmə və gənclər arasında dünya çempionatına qatıldığını xatırladıb və bunun onların diskvalifikasiya olunmamasını göstərən digər fakt olduğunu vurğulayıb: "Ermənistan KİV-dən məlumatı yayarkən səhv məlumat yaymamağa, verilən istənilən açıqlamanı beynəlxalq qurumlar vasitəsilə dəqiqləşdirməyə çağırırıq".

## Karateçilərimiz 7 medal qazanıblar

**Rusiyanın paytaxtı Moskvada keçirilmiş beynəlxalq turnirdə Azərbaycan karateçiləri 7 medala sahib olublar.**




Təmsilçilərimizdən Asiman Qurbanlı və Mədinə Sadıqova fəxri kürsünün ən yüksək pilləsinə qalxıblar. Finalda məğlub olan Rafiz Həsənov 2-ci yeri tutub.

Roman Heydərov (kata), Hüseyn Məmmədli, Nuran Rza-Zadə və Abbas Dadaşov isə üçüncü pillələrdə qərarlaşıblar.

Yarışda 27 ölkədən 331 idmançı iştirak edib.

*Leyla SABİRQIZI*
*XQ*


# OXUCULARIN NƏZƏRİNƏ!

## "Xalq qəzeti"

*2024-cü il üçün abunə yazılışı kampaniyasını davam etdirir!*

Abunə respublikanın bütün poçt şöbələri və mətbuat yayımı ilə məşğul olan firmalar tərəfindən aparılır.

Qəzetə abunə yazılmaq üçün aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət etmək olar.

1. "Azərmətbuatyayımı" ASC (012)-440-16-26.
2. "Azərpoçt" MMC (012)-598-49-55, (051)-225-02-13.
3. "Qaya" firması (012)-566-77-80, (050)-214-40-53.
4. "SƏMA-M" MMC (012)-594-02-52, (050)-333-69-69.
5. "ZİYA" LTD (012)-497-76-96, (050)-306-77-44.
6. "PRESSİNFORM" MMC (012)-598-49-52, (050)-456-08-35.




1 illik – 187.20 (yüz səksən yeddi manat iyirmi qəpik) manat.
6 aylıq – 93.60 (doxsan üç manat altmış qəpik) manat.
3 aylıq – 46.80 (qırx altı manat iyirmi qəpik) manat.

Hörmətli abunəçilər!
*Abunə yazılışı ilə əlaqədar hər hansı bir problemlə rastlaşsanız (012)-498-85-29 nömrəli telefonla əlaqə saxlaya bilərsiniz.*

**Hörmətli oxucular!**
**ABUNƏ YAZILMAĞA TƏLƏSİN!**


## Koreyalı tələbələr UNEC-də

**Koreya Respublikasından gəlmiş tələbələr Azərbaycan Dövlət İqtisad Universitetində (UNEC) olublar. UNEC-dən mətbuata bildirilib ki, Koreya–Azərbaycan Gənclərinin Beynəlxalq Mübadiləsi Proqramı çərçivəsində koreyalı gənclər universitetlə tanış olub, tələbələrlə görüşüblər.**



Görüşdə UNEC tələbələrinə Koreya mədəniyyəti və tarixi haqqında məlumat verilib, koreyalı gəncin "Koreyada bir gün" layihəsi çərçivəsində çəkdiyi videoçarx nümayiş olunub. Koreyalı gənclərin ifa etdikləri rəqslər və mahnılar UNEC tələbələri tərəfindən böyük maraqla qarşılanıb.

Bədii hissədən sonra gənclər arasında müxtəlif mövzular üzrə diskussiyalar aparılıb.

*XQ*

Texnologiya yenilikləri

## Hava proqnozu verən süni intellekt

**Tədqiqatçılar süni intellektin qasırğanı əvvəlcədən proqnozlaşdırmaqla insanların həyatını xilas edə biləcəyi qənaətinə gəliblər. "DeepMind" şirkəti tərəfindən istehsal edilən yeni süni intellekt modeli bu ilin sentyabr ayında baş vermiş Lee qasırğasının Kanadanı üç gün əvvəl vuracağını proqnozlaşdırmışdı.**



Alimlər deyirlər ki, süni intellektin proqnoz vermək üçün keçmiş hava hadisələrini təhlil etmək sürəti və qabiliyyəti indiyə qədər istifadə olunan texnologiyalardan çox fərqlidir. Belə ki, bu qurğu səhər bayıra çıxmamışdan əvvəl nə geyinəcəyimizi söyləməklə yanaşı, bizə fırtınalar, daşqınlar və istilik dalğaları kimi ekstremal hava şəraiti barədə də əvvəlcədən xəbərdarlıq edə bilir.

Qeyd edək ki, "Google"un "DeepMind" şirkəti tərəfindən yaradılmış "GraphCast" adlı yeni süni intellekt modeli Avropa Orta Mənzilli Hava Proqnozu sistemini üstələyərək bir dəqiqədən az müddətdə hava proqnozlarını hazırlayır.

*FİDAN*
*XQ*

Hava

## Hava yağmursuz keçəcək



**Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətinin verdiyi məlumata əsasən, noyabrın 16-da Bakıda və Abşeron yarımadasında havanın dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir.**

Arabir güclənən cənub küləyi əsəcək, axşam şimal-qərb küləyi ilə əvəz olunacaq. Gecə 11-15°, gündüz 18-23° isti olacaq. Atmosfer təzyiqi 757 mm civə sütunundan 753 mm civə sütununa enəcək, nisbi rütubət gecə 70-80 , gündüz 50-60% olacaq. Azərbaycanın rayonlarında əsasən yağmursuz keçəcək. Gecə və səhər bəzi rayonlarda duman olacaq. Qərb küləyi əsəcək, bəzi şərq rayonlarında arabir güclənəcək. Havanın temperaturu gecə 7-12°, gündüz 18-23° isti, dağlarda gecə 2° şaxtadan 3°-dək isti, gündüz 5-10° isti olacaq.

*Q. QASIMOV*
*XQ*

## Fikrət Əmirov musiqisi Kölndə səslənib



**Almaniyanın Köln şəhərində "Fikrət Əmirov – ənənə və modernizmin ustadı" adlı konsert təşkil olunub. 14-cü əsrin qədim tarixi abidəsi olan məşhur "Sankta Klara Keller"də keçirilən konsert görkəmli Azərbaycan bəstəkarı Fikrət Əmirovun xatirəsinə həsr edilib.**

Tədbir Köln şəhərinin Mədəniyyət şöbəsinin və Alman–Azərbaycan Forumunun dəstəyi ilə həyata keçirilib. Konsertdə Alman–Azərbaycan Forumunun Mədəniyyət və incəsənət şöbəsinin rəhbəri Samirə Patzer çıxış edərək Fikrət Əmirovun yaradıcılığı, onun bəstəkar kimi Azərbaycan və dünya musiqisinə töhfələri, musiqiyə gətirdiyi yeni harmonik dilin qaynaqları barədə məlumat verib. Natiq Əmirov musiqisinin muğam sənəti ilə bağlılığını, bəstəkarın simfonik muğam janrının yaradıcısı kimi xüsusi rolunu qeyd edib.

Tədbirdə iştirak edən alman və Azərbaycan musiqiçiləri – Azərbaycan Respublikasının Əməkdar artisti, Köln Konservatoriyasının professoru Elnarə İsmayılova (piano), Düsselsorf Simfonik Orkestrinin solisti Andrea Kunlayn (skripka), Frankfurt Konservatoriyasının professoru Havyer Alonso (vokal), Fikrət Əmirovun kamera-instrumental əsərlərini ifa ediblər.

Konsertdə Fikrət Əmirovun fortepiano əsərləri, "Sevil" operasından ariyalar, skripka və fortepiano üçün "Ballada", "Məhəbbət rəqsi", "Elegiya" və "Muğam-Poema" və digər əsərləri səsləndirilib.

*XQ*

Sağlamlıq

## Reyhan da dərman imiş

**Reyhanın Azərbaycan mətbəxində xüsusi yeri var. Çox hallarda göyərti kimi yeməklərə və salatlara vurulan bu bitki ədviyyat olmaqla yanaşı, həm də bir çox dərdin də dərmanıdır.**



Alimlər araşdırmalarla reyhanın sağlamlığa faydasının hər dəfə fərqli cəhətlərini müəyyən edirlər. Klivlend klinikasının dietoloqu Cillian Kalbertson italyan və vyetnam mətbəxində də əsas ədviyyatı olan reyhanın yeni faydalarını söyləyib.

Reyhan antibakterial və iltihab əleyhinə təsir ilə xroniki xəstəliklərdə faydalıdır. K vitamini ilə zəngin olduğundan sümükləri bərkidir. Reyhan qanda şəkəri salır, immuniteti möhkəmlədir, zədələnmiş hüceyrələri çıxarır, sağlam hüceyrələri qoruyur, qışda da, yayda da orqanizm üçün çox vacib olan ümumi tonusu artırır.

Bitki, həm də qidanın tez həzm olunmasına şərait yaradır, vanna şəklində sakitləşdirici təsir göstərir. Reyhanın dəmləməsini öskürək zamanı içmək faydalıdır, tərkibindəki efir yağı bakteriya əleyhinə işlənir. Sinir xəstəlikləri zamanı və ürəkbulanmada reyhan çayı yaxşı təsir göstərir.

Hind əczaçıları sübut ediblər ki, reyhan xərçəngin əsas yaranma səbəblərindən olan sərbəst radikalları orqanizmdən çıxararaq onu qoruyur. Bir neçə quru reyhan budağını paltar dolabına qoymaqla pis qoxunun və güvənin qarşısını almaq olar.

*Z.HÜSEYNLİ*
*XQ*

## ALLAH RƏHMƏT ELƏSİN

Azərbaycan Turizm və Menecment Universitetinin rektoru İlham Mədətov və universitetin kollektivi Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri, professor Hamlet İsaxanlıya anası

PƏRİXANIM ASLANQIZININ

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75
Məsul katib: 493-61-02
Texniki şöbə: 493-59-64
Mühasibatlıq: 498-85-29
E-mail: xalqqazeti@gmail.com
info@xalqqazeti.az
+994(51) 280-16-44

"Xalq qəzeti"nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
*Şəhadətnamə 022273*

İNDEKS 0282
TİRAJ 4806
SİFARİŞ 2965
QİYMƏTİ 40 qəpik

Növbətçi redaktor
Səbuhi MƏMMƏDOV

Çapa imzalanmışdır
00:00